Xalqın qəzeti!

# Xalq qəzeti

№ 257 (30373) 25 noyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycan və Mərkəzi Asiya vahid tarixi-mədəni və geosiyasi məkandır

## BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Bakı Zirvə görüşü

***Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edib***




**Noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Azərbaycan Prezidenti Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Şahmatçımız 18 yaşadək qızlar arasında dünya çempionu olub

**Azərbaycan şahmatçısı Ayan Allahverdiyeva 18 yaşadək qızlar arasında dünya çempionatının qalibi adını qazanıb.**



100-dən çox ölkənin ən qabaqcıl şahmatçı qızlarının yarışında 11 turdan 9,5 xal toplayan təmsilçimiz fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Ayan Allahverdiyeva 2015-ci ildə 10 yaşlı qızlar arasında keçirilən Avropa çempionatında ikinci olub. İki il sonra 12 yaşlı qızların qrupunda üçüncü yeri tutub. 2018-ci ildə Riqa şəhərində keçirilən yeniyetmələr arasında Avropa çempionatında 14 yaşlı qızlar arasında Avropa çempionu adını qazanıb. 2019-cu ildə Bratislavada keçirilmiş Avropa çempionatında ikinci dəfə 14 yaşlı qızlar arasında Avropa çempionatının qalibi olub.

**XQ**

## Sərhəddə birbaşa təmas və sülhün risk amili



Səhifə ⇨ 9

## Avropadan neofaşistlərin addım səsləri eşidilir



**Dünyanın digər qitələrindəki xalqlara necə yaşamağı öyrətməyə çalışan, ölkələrin daxili işlərinə qarışmağı adətə çevirən Qərb dövlətlərində etnik və dini məsələlərdə əsl diskriminasiya hökm sürür. İslamofobiya, miqrantlara qarşı nifrət, irqi ayrı-seçkilik (rasizm) bu gün Qərb dövlətlərindəki hökumətlərin siyasətinin aparıcı xəttidir. Onların həmin siyasəti isə cəmiyyətlərin əhval-ruhiyyəsini əks etdirir. Sözdə insan hüquqlarından danışan həmin hökumətlərin, Avropa Parlamentinin üzvləri Aralıq dənizində boğulan miqrantlar haqqında susurlar.**

Son vaxtlar Qərbdə müşahidə olunan mənfi tendensiyalardan biri də millətçilik ruhunda olan siyasi partiyaların hakimiyyətə gəlişidir. Noyabrn 22-də Niderland Nümayəndələr Palatasına (ikipalatalı parlamentin aşağı palatası–S.H.) keçirilən növbədənkənar seçkidə ultrasağçı, ifrat millətçi, islamofob Gert Vildersin rəhbərlik etdiyi Azadlıq Partiyasının qalib gəlməsi buna nümunədir. Səsvermə bülletenlərinin hamısının sayılmasından sonra ultrasağçıların 150 yerlik parlamentdə 37 deputat mandatı qazandığı məlum olub. Millətçilərin ən güclü rəqibi olan solçuların və yaşılların koalisiyası 25 mandat qazanıb. On üç ildir hakimiyyətdə olan Azadlıq və Demokratiya Uğrunda Xalq Partiyası (VVD) yalnız üçüncü yeri qazana bilib (24 yer).

*(ardı 10-cu səhifədə)*

## SPECA – Azərbaycan: ortaq uğur formulu

**Azərbaycan Prezidenti İlham Əliyevin dünən Bakıda, Heydər Əliyev Mərkəzində keçirilmiş BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündəki çıxışı bir neçə cəhətdən mühüm əhəmiyyət daşımaqdadır.**




**Birinci məqam** dövlətimizin başçısının SPECA-ya üzv dövlətlərin Zirvə görüşünün ilk dəfə keçirildiyini vurğulamasıdır. Məlum olduğu kimi, ölkəmiz digər sahələrdə iklərə imza atdığı kimi, burada da nümunə göstərdi. Nümunəvilik özünü BMT-nin mühüm əhəmiyyət daşıyan proqramına yanaşmada göstərir. O proqrama ki, fəaliyyətinin 25 ili tamam olur. Cənab İlham Əliyev isə fikirləri ilə ötən 25 ilin Azərbaycan üçün tərəqqi və inkişafa aparan mərhələ olduğunu xatırladır. Bu xatırlatmada vurğu sabitlik və firavanlıq amilinə qoyulur, mövcud amil başlıca uğur komponenti kimi önə çəkilir: "SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik.

*(ardı 9-cu səhifədə)*

## Mərkəzi Asiya ölkələrinin Qərbə ən qısa yolu Azərbaycandan keçir



**BMT tərəfindən 1998-ci ildə yaradılan və indiyədək uğurla fəaliyyət göstərən Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramın (SPECA) əsas məqsədi üzv dövlətlər – Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstan arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.**

*(ardı 11-ci səhifədə)*



## Azad edilmiş bölgələrdə yüngül sənaye də inkişaf etdiriləcək

**30 ilə yaxın bir dövrdə Azərbaycan ərazisinin 20 faizi işğal altında qalıb. Məhz bu səbəbdən torpaqların iqtisadi potensialından istifadə etmək uzun müddət mümkün olmayıb. Artıq işğalçıdan geri alınan sahələrin mövcud potensialını, xammal və təbii sərvətlərini, habelə digər ehtiyatlarını nəzərə alsaq bölgədə istehsalı bir neçə dəfə artırmaq üçün real şərait yaranıb. Bu barədə UNEC-in professoru Qabil Manafov dedi:**

*(ardı 11-ci səhifədə)*

## Murovdağdan Dəlidağa döyüşsüz Zəfər yürüşü



Səhifə ⇨ 15

# BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Bakı Zirvə görüşü




(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli beynəlxalq təşkilatların nümayəndələri!

Xanımlar və cənablar!

Mən sizi səmimiyyətlə salamlayıram, qonaqlarımıza "Xoş gəlmisiniz!" deyirəm.

Bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Zirvə görüşünün keçirilməsi ilə əlaqədar Azərbaycanın təşəbbüsünə dəstək verdikləri üçün Mərkəzi Asiya ölkələrinin rəhbərlərinə təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər. Əminəm ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq.

SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur.

Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar.

Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilmişdir. Azərbaycan Etimad Fonduna 3,5 milyon ABŞ dolları ayıracaq.

SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir.

Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır. Sentyabr ayında mən Düşənbədə keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə ilk dəfə fəxri qonaq kimi dəvət olunmuşam. Dəvətə görə bir daha təşəkkür edirəm. Hazırkı Zirvə görüşünü Düşənbə görüşünün məntiqi davamı kimi qiymətləndirirəm.

Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb.

Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Hörmətli həmkarlar.

Müstəqilliyimizin ilk illərində ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur.

Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi.

2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik.

Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar.

Buna cavab olaraq və "boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik. Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq. Bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələrə təşəkkürümü bildirirəm.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.

Bu ilin avqust ayında Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin açılışı oldu. Qazaxıstanın hədiyyəsi - Kurmanqazı adına yaradıcılıq mərkəzi hazırda Füzulidə inşa edilir və gələn il açılacaq. Bu qardaşlıq dəstəyinə görə Şavkat Miromonoviç Mirziyoyevə və Kasım-Jomart Kemeleviç Tokayevə bir daha təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda dövlət və hökumət başçılarına dəvətimi qəbul edib Zirvə görüşündə iştirak etdiklərinə görə bir daha təşəkkür edir və Zirvə görüşünün əlaqələrimizə yeni təkan verəcəyinə əminliyimi bildirirəm.

*

Sonra digər dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri çıxış etdilər.

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** çıxışında Zirvə görüşü-







nün iştirakçı ölkələr arasında əməkdaşlığın daha da inkişafı üçün yaxşı zəmin yaradacağını vurğulayaraq dedi:

- Hörmətli dövlət başçıları, hörmətli iştirakçılar. İlk növbədə, mən SPECA Zirvə görüşünün gözəl Bakı şəhərində, Xəzər dənizinin mirvarisi olan şəhərdə təşkil etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Heydər oğluna dərin minnətdarlığımı bildirmək istəyirəm. Onu da deyim ki, bugünkü Zirvə görüşündə iştirak edən Mərkəzi Asiya ölkələrinin dövlət başçılarını və digər qonaqları salamlamaq istəyirəm.

Bu il SPECA xüsusilə Azərbaycanın təşkilatda sədrliyi ilə qeyd olunur. Düşünürəm ki, əldə edilən nəticələr bizim çox sahələrdə olan əməkdaşlığımız üçün yaxşı zəmin yaradacaq və bu, şəffaflıq, səmimiyyət, qarşılıqlı etimad əsasında davam edəcək.

*

Qırğızıstan Prezidenti **Sadır Japarov** BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramına uğurlu sədrliyinə görə Azərbaycana təşəkkürünü bildirərək qeyd etdi:

- Hörmətli cənab İlham Heydər oğlu, hörmətli nümayəndə heyətlərinin rəhbərləri, hörmətli xanımlar və cənablar.

İlk növbədə, ənənəvi qonaqpərvərliyə, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA) fəal və uğurlu sədrliyinə və yubiley Sammitimizin gözəl təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlığımı bildirirəm.

*

Tacikistan Prezidenti **Emoməli Rəhmon** Azərbaycan Prezidenti İlham Əliyevə sədrlik dövründə bir çox məsələlərin müsbət həllinə nail ola bildiyi üçün minnətdarlığını ifadə edərək vurğuladı:




- Zati-aliləri cənab İlham Əliyev.

Hörmətli xanımlar və cənablar.

Hörmətli həmkarlar.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti, dostum və qardaşım cənab İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm ki, bu Zirvə görüşünün ən yüksək səviyyədə təşkil olunmasını təmin etmişdir. Qardaş Azərbaycanı BMT-nin Xüsusi Proqramına uğurla sədrlik etməsinə görə təbrik etmək istəyirəm.

Onu da qeyd etmək istəyirəm ki, şəxsən Siz, hörmətli İlham Heydər oğlu, ən azından SPECA-nın istiqamətində iki əsas sıçrayışa müəllif oldunuz. Birincisi, SPECA-nın son 25 illik tarixi dövründə onun ilk dəfə səviyyəsini iştirakçı ölkələrin dövlət başçıları səviyyəsinə qaldırdınız. İkincisi, uzun müddət idi ki, bu Etimad Fondunun yaradılması alınmırdı, Siz öz sədrlik ilinizdə bu məsələnin müsbət həllinə nail ola bildiniz.

*

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** Zirvə görüşünün üzv ölkələr üçün əhəmiyyətinə toxunaraq dedi:

– Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin ünvanına söylənilən təşəkkür




sözlərinə mən də qoşuluram. Bildiyiniz kimi, bu gün SPECA-nın Zirvə görüşü keçirilir və bizi burada səmimi-qəlbdən qəbul etdiyinə görə ona təşəkkürümüzü bildirmək istəyirəm.

Qeyd etmək istəyirik ki, müasir ticarət və logistika mərkəzləri, xüsusi iqtisadi zonalar sərhəd yerlərində tikilməkdədir. Bu baxımdan biz hörmətli İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş Azərbaycan rayonlarında tarixi ədalətin bərpa olunmasını yüksək dəyərləndirir və Azərbaycanın bu yerlərdə gördüyü inanılmaz quruculuq işini qeyd etmək istəyirik. Əslində, əminəm ki, müsbət və perspektivli dəyişikliklər yeni imkanlar açacaq və regional əməkdaşlıq inkişaf edəcək.

*

Gürcüstanın Baş naziri **İrakli Qaribaşvili** Bakıya – Zirvə görüşünə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək qeyd etdi:




- Hörmətli Prezident, hörmətli Baş nazirlər.

Hörmətli Zirvə görüşünün iştirakçıları.

Çox sevdiyim Azərbaycanı və SPECA-nı burada salamlamaq istəyirəm.

Bu görüşdə fəxri qonaq qismində iştirak etmək mənim üçün böyük qürur hissidir. Əvvəlcə qonaqpərvərliyə görə cənab Prezident Əliyevə təşəkkürümü bildirmək istəyirəm, çox təşəkkür edirik. Gözəl şəhər olan Bakıya məni dəvət etdiyinizə görə minnətdaram.

Mən bu təşkilatın 25 illik yubileyi münasibətilə sizi təbrik etmək istəyirəm. Bu təşkilat regionun dayanıqlı inkişafı üçün gözəl bir platformadır.

Azərbaycan dəyərli qonşumuzdur və strateji tərəfdaşımızdır. Biz qürur hissi ilə demək istəyirik ki, artıq əsrlərdir ölkələrimiz arasında ən yüksək səviyyədə gözəl münasibətlər inkişaf etməkdədir.

*

Macarıstanın Baş naziri **Viktor Orban** Prezident İlham Əliyevi həm bu regionda, həm də qlobal siyasətdə şəxsi səylərinə görə təbrik edərək bildirdi:




- Hörmətli cənab Prezident.

Hörmətli həmkarlar.

Əvvəlcə mən Prezident Əliyevə bu dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl Bakıya gəlmək mənim üçün çox xoş bir hadisədir. Mən Macarıstanın ən xoş salamlarını gətirmişəm və SPECA təşəbbüsünü bərpa etdiyinizə görə Sizə təbrik sözlərimi çatdırmaq istəyirəm.

Azərbaycan və Macarıstan arasında dostluq təkcə qaz dostluğu deyil. Biz aramızda qardaşlıq münasibətlərini qururuq. Biz qardaş ölkələrik və bu yaxınlarda ölkələr arasında çox güclü enerji münasibətləri formalaşmışdır.

Biz cənab Prezident Əliyevin başladığı bu inkişafı dəstəkləyirik. İki ölkə arasında ticarət dövriyyəsi rekordlar vurmağa başlayıb. Biz sərmayə qoyuluşu sahəsində daha fəal olmaq istəyirik. Azərbaycandan ilk təbii qaz artıq Macarıstana çatmışdır.

Yekunda, cənab Prezident Əliyev, mən bir daha Sizi həm bu regionda, həm qlobal siyasətdə şəxsi səylərinizə görə təbrik etmək istəyirəm. Siz qlobal siyasətdə öz tərəfinizdən qarşılıqlı etimad və hörmət prinsiplərini təşviq edirsiniz. Macarıstan Mərkəzi Asiya iqtisadiyyatlarının inkişafında bütün formalarda iştirak etməyə hazırdır. Macarıstan adından Sizə təşəkkürümü bildirmək istəyirəm.

*

Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini **Xocamurad Geldimuradov** bugünkü Zirvə görüşünün region ölkələrinin iqtisadi inkişafı üçün çox gözəl imkanlar yaradan platforma olduğunu vurğulayaraq bildirdi:




- İlk növbədə, mən SPECA Zirvə görüşündə iştirak edənlərin hamısına və cənab Prezident İlham Əliyevə Prezident Sərdar Berdiməhəmmədovun salamlarını və bu tədbirin uğurla keçməsi arzularını çatdırıram.

SPECA-nın yaradılmasının 25 illik yubileyi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik etmək istəyirəm. Bu, nadir bir platformadır, regionda olan dövlətlərin iqtisadi inkişafına yönəlik çox gözəl imkanlar yaradan platformadır.

(ardı 3-cü səhifədə)

# BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Bakı Zirvə görüşü

**(əvvəli 2-ci səhifədə)**

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi **Tatyana Molçan** SPECA-nın üzvü olan ölkələr tərəfindən həlli vacib məsələlərin müzakirəsi baxımından bu tədbirin önəmini qeyd edərək dedi:




- İcazə verin, mən öz çıxışıma Azərbaycan Respublikasına və xüsusən də cənab Prezident Əliyevə bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə və tədbiri – bu Sammiti və ümumiyyətlə SPECA həftəsini yüksək səviyyədə təşkil etdiklərinə görə minnətdarlığımı bildirim.

Bildiyiniz kimi, SPECA 25 ildən sonra bu tədbirlərlə yenə də yeni təkan qazanır. Bildiyiniz kimi, bu yaxınlarda BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilmiş sessiyasında SPECA ilə bağlı xüsusi qətnamə qəbul olunmuşdur. Belə mühüm bir tarixlə mən Azərbaycanı və bütün digər iştirakçıları təbrik etmək istəyirəm.

Burada Etimad Fondunun yaradılması təşəbbüsü səsləndirilmişdir. Biz də istərdik ki, bu məsələ mümkün qədər tez müddətdə öz həllini tapsın. Biz bilirik ki, burada daha çox könüllü surətdə vəsaitlər köçürüləcəkdir. Azərbaycanın bununla bağlı könüllü şəkildə vəsaitlərin ayrılması qərarını alqışlayırıq. İnanırıq ki, digər tərəfdaşlar da bu nümunədən istifadə edəcəklər.

*

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım **Armida Salsiya Alişahbana** yüksək qonaqpərvərliyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirərək dedi:

- Mən, bu əlamətdar Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Zati-aliləri cənab Prezident Əliyevə və Azərbaycan Hökumətinə minnətdarlığımı bildirmək istəyirəm.




*

Körfəz Əməkdaşlıq Şurasının Baş katibi **Casim Məhəmməd əl-Budeyvi** Zirvə görüşünün Körfəz Əməkdaşlıq Şurası ölkələri və Mərkəzi Asiya ölkələri arasında əlaqələrin gücləndirilməsinə təkan verəcəyini qeyd edərək bildirdi:

- Xanımlar və cənablar, yekunda mən bir daha öz təşəkkürümü Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə çatdırmaq istəyirəm ki, o, məni buraya dəvət etdi. Azərbaycan Hökumətinə və xalqına çox sağ olun deyirəm ki, siz məni buraya dəvət etdiniz. Bu addım - hər iki tərəfin ümumi səyləri Körfəz Əməkdaşlıq Şurası ölkələri və Mərkəzi Asiya ölkələri arasında əlaqələrin gücləndirilməsinə yönəlib.



*

**Zirvə görüşünə yekun vuran Prezident İlham Əliyev dedi:**

- Təşəkkür edirəm, əziz dostlar.

Hazırkı Zirvə görüşündə qəbul edilməsi üçün iki sənəd layihəsi – Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi SPECA iştirakçı ölkələrinin nümayəndə heyətləri arasında müzakirə edilmiş və bütün tərəflər üçün məqbul hesab edilə bilən mətnlər üzrə razılıq əldə olunmuşdur.

Sənədlərlə bağlı əlavə fikir varmı?

Təşəkkür edirəm.

Beləliklə, SPECA-nın Bakı Zirvə görüşünün yekununda Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi sənədləri qəbul edilmiş hesab olunur.

Bununla da Zirvə görüşü başa çatır.

Zirvə görüşündə iştirak etdiklərinə görə dövlət və hökumət başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə təşəkkür edirəm.

Sağ olun.

*

SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün yekunu olaraq Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi qəbul edildi.

**AZƏRTAC**

## SPECA-nın Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Prezident İlham Əliyevin adından rəsmi nahar



**Noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından rəsmi nahar verilib.**

## Tacikistan Prezidenti “SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq” adlı sərgi ilə tanış olub

**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon noyabrın 24-də Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən “SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq” adlı sərgi ilə tanış olub.**



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ali qonağa sərgi barədə məlumat verib. Bildirilib ki, SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə təşkil olunan sərgidə ancaq SPECA ölkələrinin stendləri yer alır. Həmin stendlərdə Azərbaycan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistandan dövlət müəssisələrinin və özəl şirkətlərin məhsullarının nümunələri nümayiş olunur. Bütün stendlər Azərbaycan tərəfindən vahid dizayn formatında quraşdırılıb.

Tacikistan Prezidenti sərginin Azərbaycan Milli Stendinin mərkəzində “Made in Azerbaijan” markası ilə istehsal edilən məhsullarla tanış olub. Qeyd edilib ki, burada Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və “ABAD”çı sənətkarların hazırladıqları əl işləri təqdim olunur.

Məlumat verilib ki, burada Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxınməsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və sair olmaqla, 88 adda müdafiə təyinatlı məmulat sərgilənir. Əvvəlki sərgilərdən fərqli olaraq, bu sərgidə ilk dəfə yeni yaradılan “AH-12,7” iriçaplı pulemyot da təqdim edilir.

Daha sonra Tacikistan Prezidenti Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın milli stendləri ilə tanış olub.

Sonda ali qonaq fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

## Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycana səfərə gəlib



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili noyabrın 24-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir İrakli Qaribaşvilini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

## BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nın Zirvə görüşünün Bakı Bəyannaməsi

Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Qırğız Respublikasının, Tacikistan Respublikasının, Özbəkistan Respublikasının prezidentləri və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini 2023-cü il noyabrın 24-də Bakı şəhərində Azərbaycan Respublikasının sədrliyi ilə BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (bundan sonra SPECA) iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının birinci Zirvə görüşünü keçirərək,

SPECA-nın yaradılması haqqında 1998-ci il 26 mart tarixli Daşkənd Bəyannaməsində yer almış məqsəd və prinsipləri **xatırladaraq,**

SPECA-nın əsasının qoyulmasının 25-ci ildönümünü və SPECA iştirakçı dövlətlərinin öz müstəqilliklərinin möhkəmləndirilməsi, həmçinin qarşılıqlı əməkdaşlıq istiqamətlərində əsas prioritet sahələrə münasibətdə əldə etdikləri mühüm nailiyyətləri **qeyd edərək,**

SPECA çərçivəsində xalqlarımızın bölüşdüyü ümumi maraqlara, məqsəd və dəyərlərə əsaslanan əməkdaşlığı gələcəkdə də dərinləşdirmək və inkişaf etdirmək üzrə möhkəm qətiyyətlərini bir daha **təsdiq edərək,**

SPECA regionunda mövcud olan, istifadə edilməmiş böyük iqtisadi inkişaf potensialını, zəngin təbii ehtiyatları və regional əməkdaşlığı inkişaf etdirmək, həmçinin SPECA regionunun Avropa və Asiya bazarları ilə gələcək əməkdaşlığı üçün bu imkanlardan birgə istifadə üzrə güclü siyasi iradəni **nəzərə alaraq,**

2023-cü il aprelin 17-də İsveçrənin Cenevrə şəhərində keçirilmiş SPECA iştirakçı ölkələrinin nazirlərinin görüşünün Azərbaycanın 2023-cü ildə sədrliyi haqqında Birgə Bəyanatında əksini tapmış “SPECA regionunun qlobal əhatəli birləşdirmə mərkəzinə çevrilməsi” mövzusunu və indiyədək aparılan növbəti işləri **təqdir edərək,**

Azərbaycanın 2023-cü ildə SPECA-da sədrliyi ilə Proqramın daha səmərəli, Mərkəzi Asiyada və onun hüdudlarından kənarda kollektiv səylərə, maraqlara və iştirakçı dövlətlərin məsuliyyətinə əsaslanan həqiqi regional platformaya çevrilməsi üzrə və BMT-nin müvafiq regional komissiyaları tərəfindən dəstəklənən ardıcıl və fəal səylərini yüksək **qiymətləndirərək,**

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE), BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) və onların müvafiq İcraiyyə katibliklərinin Proqramın yaradıldığı vaxtdan SPECA-nın iştirakçı ölkələrinə göstərdikləri dəstəyə görə səmimi təşəkkür **ifadə edərək,**

Razılığa gəlirik:

**1.** SPECA-nın iqtisadi əməkdaşlıq və regional inteqrasiya imkanlarından müştərək istifadə edilməsi yollarının öyrənilməsi məqsədilə və xüsusən rabitə, ticarət, nəqliyyat və logistika, rəqəmsal transformasiya və innovasiyalar, sənaye, energetika, su ehtiyatlarının idarə edilməsi, ətraf mühit, yaşıl keçid və qarşılıqlı maraq doğuran digər sahələr üzrə meydana çıxan ümumi çağırışlara ortaq cavabların verilməsi platforması kimi SPECA-nın rolunun gücləndirilməsi barədə öz niyyətini **bəyan etmək.**

**2.** Bununla bağlı SPECA-nın davam edən təsisatlanma prosesinə və SPECA çərçivəsində fəaliyyətin məsuliyyətini yüksəldəcək, mütəmadi dialoqu, ardıcıllığı və səmərəli əlaqələndirməni təmin edəcək, həmçinin SPECA-nın iştirakçı ölkələrinin dövlət başçıları tərəfindən qəbul olunan qərarların həyata keçirilməsinə kömək edəcək zəruri mexanizmlərin yaradılması ilə əlaqədar qətiyyəti **ifadə etmək.**

**3.** Rəqəmsallaşma və tranzit marşrutlarının yaşıl transformasiyası, həmçinin ticarət və nəqliyyat prosedurlarının sadələşdirilməsi və energetika birləşmələri, o cümlədən Şərq-Qərb Transxəzər Orta Dəhlizi çərçivəsində yaşıl enerji daxil olmaqla, əməkdaşlıq sahəsində bilavasitə prioritet sahə və bu məqsədlə Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə Multimodal Məlumat və Sənədlərin Rəqəmsallaşdırılması üzrə Yol Xəritəsinin qəbul edilməsinin qərara alınmasını **vurğulamaq.**

**4.** SPECA-nı qəbul olunmuş qərarların dəstəklənməsi məqsədilə müvafiq maliyyə mexanizmi ilə təmin etmək üzrə siyasi hazırlığımızı bildirərək və bununla əlaqədar BMT-nin himayəsi altında praktik əməkdaşlığa dəstək olacaq və SPECA-nın Çoxtərəfdaşlı Məqsədli Fondunun (ÇMF) yaradılmasını alqışlayaraq, bununla bağlı beynəlxalq tərəfdaşları SPECA ÇMF-in fəaliyyətinə töhfə verməyə dəvət etməyi **təsdiqləmək.**

**5.** Şərq-Qərb Transxəzər Orta Dəhlizinin SPECA-nın iştirakçı ölkələri ilə Asiya və Avropanın müxtəlif regionları, onun hüdudlarından kənarda daha səmərəli və dayanıqlı əlaqələrdən biri kimi əhəmiyyətinin və ölkələri dəhlizin potensialından qitələrarası nəqliyyat əməliyyatları üçün istifadə etməyə çağırmaq, SPECA-nın iştirakçı ölkələrinin müvafiq hakimiyyət orqanlarına nəqliyyat şirkətləri, ekspeditorlar, logistika mərkəzləri və milli operatorlar arasında bütün dəhliz boyu kommunikasiyaların səmərəliliyini artırmaq üçün nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına diqqəti cəmləşdirməyin tövsiyə edilməsini **vurğulamaq.**

**6.** BMT Baş Assambleyasının SPECA-nın 25 illiyinə həsr olunmuş qətnamə qəbul etməsini alqışlamaq və BMT-nin üzv dövlətlərini, regional komissiyalarını və ixtisaslaşmış qurumlarını SPECA-ya üzv ölkələrin səylərini dəstəkləməyi davam etdirməyə **çağırmaq.**

**7.** Bakı Zirvə görüşündə beynəlxalq tərəfdaşların iştirakını alqışlamaq və SPECA regionunun daha yaşıl və təhlükəsizlik gələcəyi üçün dayanıqlı və davamlı iqtisadi inkişafı dəstəkləmək üzrə ortaq səyləri əks etdirən sıx əməkdaşlığın davamının əhəmiyyətini **vurğulamaq.**

**8.** Öz müvafiq nazirliklərinə hazırkı Bəyannamənin həyata keçirilməsini UNECE, UNESCAP və digər müvafiq beynəlxalq təsisatlarla birgə reallaşdırılmasının əlaqələndirilməsini **tapşırmaq.**

**9.** SPECA-nın üzv ölkələrinin dövlət başçılarının və hökumətlərinin birinci görüşünün beynəlxalq tərəfdaşların iştirakı ilə Bakı şəhərində mükəmməl təşkilinə, həmçinin Azərbaycanda SPECA günləri çərçivəsində 2023-cü il noyabrın 20-24-də digər tədbirlərin təşkilinə görə Zati-aliləri Prezident İlham Əliyevə və Azərbaycan Respublikasının Hökumətinə səmimi təşəkkür **ifadə etmək.**

**Bakı şəhəri, 24 noyabr 2023-cü il**

## Tacikistanla çoxlu ortaq layihələrimiz var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşüb.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Emoməli Şaripoviç, Sizi Azərbaycanda salamlayıram. Sizinlə yenidən görüşməyimə şadam. Dəvəti qəbul etdiyinizə və SPECA Proqramının Sammitində iştirakınıza görə sağ olun. Görüşmək, danışmaq, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq gündəliyini müzakirə etmək üçün daha bir yaxşı fürsətdir. Həmçinin Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının iclasında yeganə fəxri qonaq qismində iştirak etmək üçün dəvətinizə görə bir daha təşəkkürümü bildirmək istərdim. Mən bunu yüksək qiymətləndirirəm. Bunu dostluq və hörmət əlaməti hesab edirəm.

Münasibətlərimiz çox uğurla inkişaf edir. Son vaxtlar biz Sizinlə müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafını dəfələrlə müzakirə etmişik. Əminəm ki, Sizin hazırkı səfəriniz də münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Nümayəndə heyətlərimizin üzvləri artıq sıx təmasdadır, həm dünən görüşüblər, həm də bu gün davam edirlər. Çoxlu planlar, layihələr var. Ən əsası isə xalqlarımızın qardaşlığıdır, əminəm ki, ortaq gələcəyimizdir.

Bir daha "Xoş gəlmisiniz!" deyirəm. Vaxtınızın xoş keçməsini diləyirəm.

**Sonra Prezident Emoməli Rəhmon çıxış edərək dedi:**

– Hörmətli İlham Heydər oğlu, çox sağ olun. SPECA-nın yubiley Sammitinə dəvətə görə təşəkkür edirəm. Səmimi qəbul üçün sağ olun.

İkitərəfli qarşılıqlı fəaliyyətimiz həm ticarət sahəsində, həm də humanitar müstəvidə dinamik şəkildə inkişaf edir. Azərbaycanlı dostlarımızın uğurlarına sevinirik, ölkəniz inkişaf edir. Düzgün qeyd etdiniz ki, son illər, xüsusən Sizin Düşənbəyə dövlət səfərinizdən sonra nazirliklərimiz və idarələrimiz çox fəal əməkdaşlığa başlayıblar. Çoxlu proqramlar işlənib hazırlanır, biz indi bu barədə danışırıq. Dəvətinizə görə sağ olun. Növbəti ildə olacaq səfərə hazırlaşırıq. Biz indi bunun üzərində işləyirik və müvafiq orqanlarımız qarşılıqlı fəaliyyət göstərir. Zənnimcə, bu, ikitərəfli münasibətlərimizə güclü təkan verəcək. Bu gün isə mən Sizinlə münasibətlərimizin mövcud vəziyyətini və perspektivlərini, regional problemləri müzakirə etməyə hazıram.

Bir daha səmimi qəbula görə çox sağ olun.

## Qırğızıstanla münasibətlərin dinamikası yüksəkdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşüb.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Sadır Nurqojoyeviç, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Sizi yenidən görməyimə çox şadam. Dəvətimi qəbul etdiyinizə və Sammitdə iştirakınıza görə sağ olun.

Fikrimcə, bu, həmçinin münasibətlərimizin ikitərəfli gündəliyini müzakirə etmək üçün yaxşı fürsətdir. Sizinlə müntəzəm görüşürük. Mənim Qırğızıstana dövlət səfərimlə bağlı çox yaxşı təəssüratlarım var. Həmçinin Sizin Azərbaycana ötən il etdiyiniz səfəri xatırlayıram. Əlbəttə, Sizi növbəti ildə dövlət səfəri ilə yenə də gözləyirik.

Münasibətlərimizin dinamikası ölkələrimizin və xalqlarımızın bir-birinə necə yaxın olduqlarını əyani şəkildə göstərir. Biz bir-birimizi həmişə dəstəkləyəcəyik və gələcəkdə beynəlxalq strukturlarda da bunu edəcəyik. Bu gün əmtəə dövriyyəsinin artırılması, investisiya siyasəti, ölkələrimizin daha da yaxınlaşması ilə əlaqədar mühüm məsələləri həll edirik. Son vaxtlar beynəlxalq tədbirlərdə çox tez-tez görüşürük. Bu, həmişə gündəlikdə duran məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Bu gün nümayəndə heyətlərinin iştirakı ilə il ərzində görülən işlərə bir daha yekun vuracağıq, il başa çatır, növbəti gələcək addımları müəyyən edəcəyik. Beləliklə, bir daha xoş gəlmisiniz.

**Sonra Prezident Sadır Japarov çıxış edərək dedi:**

– Hörmətli İlham Heydər oğlu, sağ olun.

Növbəti görüşümüzə çox şadam. Səmimi sözlərinizə görə çox sağ olun. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin vəziyyətinə Sizin verdiyiniz yüksək qiymətə tam şərikəm. Son illər dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb. Fürsətdən istifadə edərək, Sizə və azərbaycanlı dostlarımıza mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən səmimi qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu gün biz Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın aktual məsələlərini konstruktiv şəkildə müzakirə edəcək və fikir mübadiləsi aparacağıq.

Qırğızıstan özünün strateji tərəfdaşı olan Azərbaycanla dostluq münasibətlərinə və qarşılıqlı dəstəyə dəyər verir. Bu il ölkələrimiz diplomatik münasibətlərin qurulmasının 30 illik yubileyini qeyd etdilər. Biz bu əlamətdar tarixə yaxşı nəticələrlə gəldik. Ötən il yüksək səviyyədə iki görüş olub, dövlət başçıları səviyyəsində Dövlətlərarası Şura yaradılıb və onun birinci iclası keçirilib. Yüksək səviyyədə dinamik şəkildə möhkəmlənən və genişlənən əlaqələr parlamentlər, hökumətlər və sahə nazirlikləri arasında fəal qarşılıqlı fəaliyyətə şərait yaradıb. 2022-ci ildə bizim qarşılıqlı səfərlərimiz əsnasında əldə olunmuş bir sıra razılaşmalar 5-ci iclası bu il iyulun 26-da Çolpon-Ata şəhərində hökumət başçılarının müavinlərinin sədrliyi ilə keçirilən İqtisadi və humanitar əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın xətti ilə praktiki dinamika qazanıb.

Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı fəaliyyət göstəririk və namizədlərin irəli sürülməsində bir-birimizi dəstəkləyirik.

***

Qırğızıstan Prezidenti Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün bərpa olunması münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırdı, bunun Cənubi Qafqazda sülh və sabitlik üçün yeni şərait yaratdığını qeyd etdi. Qırğızıstan Prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə də təbriklərini çatdırdı.

Prezident Sadır Japarov qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun şərəfinə Bakıda abidənin ucaldılmasını yüksək qiymətləndirdi, buna görə minnətdarlığını bildirdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin daim bir-birinə dəstək göstərdiyi vurğulandı.

Prezident Sadır Japarov qeyd etdi ki, Qırğızıstan həmişə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Prezident İlham Əliyev xalqımızın ulu öndəri Heydər Əliyevin 100 illik yubileyi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası münasibətilə təbriklərinə görə Qırğızıstan Prezidentinə minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafı və birbaşa aviareyslərin təşkil olunması müsbət addım kimi qeyd edildi. Azərbaycan-Qırğızıstan İnvestisiya Fondunun yaradılmasının önəmi vurğulandı, bunun birgə iqtisadi layihələrin inkişafı üçün əlverişli imkanlar yaradacağı bildirildi. Həmçinin ölkələrimiz arasında mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə də fikir mübadiləsi aparıldı.

## Qazaxıstanla birgə fəaliyyətin gələcəyi böyükdür



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb.**

Əvvəlcə dövlət başçıları arasında qısa dialoq oldu.

**Prezident Kasım-Jomart Tokayev:** Mənimlə böyük nümayəndə heyəti gəlib.

**Prezident İlham Əliyev:** Bəli, doğrudur.

**Prezident Kasım-Jomart Tokayev:** Hökumət üzvləridir.

**Prezident İlham Əliyev:** Bütün qonaqların gəlişinə şadam. Bu, onu göstərir ki, gündəlik kifayət qədər genişdir.

**Prezident Kasım-Jomart Tokayev:** Azərbaycanla qarşılıqlı münasibətlər, əməkdaşlıq bizim üçün prioritetdir.

**Prezident İlham Əliyev:** Bizim üçün də belədir.

**Qazaxıstan Prezidentinə Bakıya səfərinə görə təşəkkür edən Prezident İlham Əliyev dedi:**

– Kasım-Jomart Kemeleviç, bu tədbirdə iştirakınıza görə sağ olun. Hesab edirik ki, bu, həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı fəaliyyətimizin gələcəyi ilə bağlı məsələləri birlikdə müzakirə etmək üçün yaxşı fürsətdir.

İkitərəfli gündəliyə gəldikdə, Sizin də qeyd etdiyiniz kimi, nümayəndə heyətinin tərkibi özlüyündə bunun göstəricisidir. Mövzular çoxdur. Əməkdaşlığın bütün istiqamətləri üzrə maksimum səmərəli fəaliyyət mövcuddur. Biz yaxşı dostlar, qardaşlar, tərəfdaşlarıq. Ona görə də son illər ölkələrimizin hökumət üzvləri arasında, şirkətlər arasında rəsmi səfərlər çərçivəsində bizim aramızdakı təmasların dinamikası əyani şəkildə görünür. Həqiqətən də biz, zənnimcə, ölkələrimizin müstəqil inkişafının bütün tarixində qarşılıqlı fəaliyyətimizin ən yüksək səviyyəsinə çatırıq. Bu, çox xoşdur. Birincisi, bu, məntiqi olaraq xalqlarımız arasında münasibətlərin ruhunu və xarakterini əks etdirir və zamanın hökmüdür. Biz bu gün Xəzər regionunda və daha geniş regionda bir çox sahələr üzrə səyləri birləşdirərək çox mühüm energetika və nəqliyyat layihələri həyata keçiririk. Əlbəttə, bunun əsası ondan ibarətdir ki, ölkələrimizin iqtisadi inkişafı çərçivəsində yaxşı təməl qoyulub.

Bu gün SPECA Proqramının 25 illiyinə yekun vurarkən, yəqin ki, hər bir ölkə bizim necə irəlilədiyimizi görə bilər. Sevindirici haldır ki, Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinə bu gün yeni məzmun əlavə edilir. Bu tədbirdə iştirak etmək üçün vaxt tapdığınıza görə Sizə çox minnətdaram. Son vaxtlar bizim təmaslarımız müntəzəm xarakter daşıyır. Biz artıq bu ay Qazaxıstanda görüşmüşük. Beləliklə, düşünürəm ki, növbəti ildə də təmasların dinamikası planlaşdırılacaq.

Növbəti ildə biz Sizi dövlət səfəri ilə gözləyirik. Düşünürəm ki, biz bu səfərə də yeni ideyalar və yeni nəticələrlə yaxşı hazırlaşacağıq. Bir daha xoş gəlmisiniz.

**Sonra Prezident Kasım-Jomart Tokayev çıxış edərək dedi:**

– Təşəkkür edirəm. Möhtəşəm Bakı şəhərində olmaq mənim üçün çox xoşdur. Mən çıxışımda Bakını Xəzər regionunun incisi adlandırmaq istəyirəm. Burada heç bir mübaliğə yoxdur, çünki mən bir çox şəhərlərdə olmuşam. Prinsipial olaraq hesab edirəm ki, Bakı geniş beynəlxalq miqyasda ən gözəl şəhərlərdən biridir. Fürsətdən istifadə edərək, indi Azərbaycan ərazisində Sizi və bütün qardaş Azərbaycan xalqını əsrin tarixi hadisəsi – beynəlxalq hüquqa və Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə uyğun olaraq ölkənin ərazi bütövlüyünün təmin olunması münasibətilə təbrik etmək istərdim. Bu, Sizin güclü və nüfuzlu rəhbərliyiniz, dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş uzaqgörən müdrik siyasətiniz, xalqın rifahının yüksəldilməsi və beynəlxalq aləmdə ölkənizin nüfuzunun artırılması sayəsində mümkün olub. Zənnimcə, bu, həqiqətən tarixi hadisədir və özünü Azərbaycana münasibətdə qardaş, dost hesab edən ölkələrin hamısı buna sevinib.

Sizinlə razıyam ki, ölkələrimiz arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir, yeni layihələr ortaya çıxır. Bizim bir-birimizə heç bir sualımız yoxdur. Biz həqiqi strateji tərəfdaşlar, Xəzər dənizi ilə faktiki qonşularıq. Strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsinə dair birgə Bəyannamənin qəbul edilməsi, həmçinin Ali Dövlətlərarası Şuranın təsis olunması da tarixi hadisədir. Qeyd etdiyim kimi, bu fürsətdən istifadə edərək mən Bakıya faktiki olaraq tam formatda nümayəndə heyəti ilə gəlməyi qərara aldım. Çünki hesab edirəm ki, Azərbaycanda bugünkü görüşlərdə danışıqlar mahiyyətcə çox zəngin olacaq.

***

Qazaxıstan Prezidenti Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün bərpa olunması münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdi, bu uğurlara dövlətimizin başçısının müdrik siyasəti nəticəsində nail olunduğunu vurğuladı.

Prezident Kasım-Jomart Tokayev hazırda Füzuli şəhərində Kurmanqazı adına yaradıcılıq mərkəzinin inşasının Qarabağda həyata keçirilən bərpa-quruculuq işlərinə bir töhfə olduğunu qeyd etdi.

Prezident İlham Əliyev təbrikə və Kurmanqazı adına yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidentinə təşəkkürünü bildirdi.

Prezident Kasım-Jomart Tokayev atası, görkəmli qazax yazıçısı Kemel Tokayevin 100 illik yubileyinin keçirilməsinə və "Gecə açılan atəş" əsərinin çapdan çıxmasına görə minnətdarlığını ifadə etdi.

Görüşdə Azərbaycanın və Qazaxıstanın beynəlxalq təşkilatlarda daim bir-birini dəstəkləməsi, ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi məmnuniyyətlə qeyd olundu. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə edilməsi, bütövlükdə nəqliyyat-logistika imkanlarının və Transxəzər nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin "Rəqəmsal İpək Yolu" layihəsinin və Xəzər dənizinin dibi ilə xəttin çəkilməsi məsələsinin əhəmiyyəti və burada ölkələrimizin işbirliyi məmnuniyyətlə qeyd olundu. Eləcə də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında orta dəhliz üzrə multimodal əməkdaşlığın qurulması və bu xüsusda ayrıca şirkətin yaradılması həmin istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişaf etdirilməsi baxımından müsbət irəliləyiş kimi vurğulandı. Energetika sahəsində Azərbaycan-Qazaxıstan-Özbəkistan üçtərəfli əməkdaşlığı, Xəzərin dibi ilə elektrik xəttinin çəkilməsi və bunun gələcəkdə Avropa istiqamətində ixracı qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın hazırda Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, ölkəmizin cənub regionları istiqamətində İran ərazisindən keçməklə Naxçıvana və Türkiyə tərəfindən Qars-İğdır dəmir yolu xəttinin qurulması ilə yeni bir alternativ nəqliyyat dəhlizi formalaşdırmasının ötürücülük qabiliyyətinin və nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini diqqətə çatdırdı.

Söhbət zamanı SPECA-nın əhəmiyyəti xüsusi vurğulandı, bu Zirvə görüşünün Proqramın 25-ci ildönümünə həsr olunduğu qeyd edildi.

Dövlətimizin başçısı bu Zirvə görüşündə SPECA-ya üzv ölkələrlə yanaşı, region dövlətləri ilə dost və tərəfdaş olan Macarıstanın və Gürcüstanın iştirakını da məmnuniyyətlə qeyd etdi. Macarıstanın və Gürcüstanın nəqliyyat-logistika imkanları baxımından da tərəfdaş ölkələr olduqları bildirildi.

Görüşdə ölkələrimiz arasında mədəniyyət və humanitar sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

## Özbəkistanla bütün istiqamətlərdə fəal iş gedir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə görüşüb.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Şavkat Miromonoviç, hörmətli qonaqlar, sizi yenidən görməyimə çox şadam.

Biz bu ay Özbəkistanda görüşmüşük və bu gün təmaslarımızı davam etdiririk. Biz o qədər tez-tez görüşürük ki, hətta bir-birimizdən ayrılmadığımız təəssüratı yaranır. Əlbəttə, bu, çox xoşdur. Mənim Özbəkistana səfərim və Sizin Azərbaycana dövlət səfəri zamanı biz Sizinlə elə bu cür də danışmışdıq ki, tez-tez görüşəcəyik, bu, ölkələrimiz və xalqlarımız üçün faydalı olacaq. Zənnimcə, cəmiyyətlərimiz də bütün bunları aydın şəkildə görür. Prezidentlərin qardaşlığı, komandaların üzvlərinin qarşılıqlı fəaliyyəti və ən əsası – nəticə. Nəticələr artıq görünür. Biz Sizinlə iqtisadi, ticari, sənayenin inkişafı və kooperasiya üzrə çox iddialı plan müəyyən etmişik və hamısı yerinə yetirilir. Sizinlə razılaşdığımız kimi, biz müntəzəm olaraq tapşırıqların icrasına nəzarət edirik, hələ ki, öz tərəfimizdən heç kimə irad tutmamışıq. Srağagün SPECA-ya üzv ölkələrin sərgisi ilə tanış olduqda və Sizin hörmətli nazirlə Özbəkistan stendini bir daha ziyarət etdikdə, mən öz səfərim zamanı Daşkənddə şahidi olduqlarımı, məhz Sizin yaratdığınız sənaye gücünü yenidən gördüm və xatırladım.

Bu gün biz kooperasiya çərçivəsində, qarşılıqlı investisiyalar çərçivəsində, mahiyyətcə, həmçinin özümüzü təmin etməyə və ixraca istiqamətlənmiş birgə istehsalı yaradırıq. Bütün istiqamətlər üzrə fəal iş gedir. İli ikitərəfli münasibətlərin yaxşı nəticələri ilə başa vururuq, əlbəttə ki, növbəti ildən də yeni nəticələr gözləyirik.

Bir daha xoş gəlmisiniz.

**Sonra Prezident Şavkat Mirziyoyev çıxış edərək dedi:**

- Çox sağ olun. Sizi bir daha gördüyümə, görüşməyimə şadam. Həqiqətən mən də çox sevinirəm. Siz düzgün qeyd etdiniz ki, bu il bizim üçün çox zəngin il olub. Mən üçüncü dəfədir ki, Azərbaycana gəlirəm, çünki Siz doğru qeyd etdiniz, biz Sizinlə razılaşmışıq ki, görüşlərimiz çox olduğu üçün nəticələr də çoxdur. Xalqlarımız da ölkələrin liderləri arasında belə səmimi, etimada əsaslanan çox yaxşı münasibətlərin olduğu zaman, əlbəttə, nəticənin də olmasını görürlər. Beləliklə, bir daha Azərbaycanda, gözəl Bakıda olmağıma şadam. Özümü evimdəki kimi hiss edirəm. Hava da elə bizdəki kimidir. Dünən mən tez gəldim, ətrafı seyr etdim və mənim üçün çox xoş oldu.

*(ardı 5-ci səhifədə)*

## Özbəkistanla bütün istiqamətlərdə fəal iş gedir



(əvvəli 4-cü səhifədə)

Görüşdə ölkələrimiz arasında əlaqələrin hərtərəfli dinamik inkişafından məmnunluq ifadə olundu, dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd edildi. Özbək xalqı adından Füzuli şəhərində Mirzə Uluqbəy adına orta məktəb binasının inşasına görə minnətdarlıq bildirildi.

SPECA-nın 25 illiyinə həsr olunan Zirvə görüşünün önəmi, eləcə də Azərbaycanın və Mərkəzi Asiyanın geosiyasi, iqtisadi və siyasi baxımdan vahid məkan olduğu vurğulandı.

İqtisadi-ticari əlaqələrinin müxtəlif sahələrdə, həmçinin yeni əməkdaşlıq istiqamətlərində genişləndirilməsi ilə bağlı konkret layihələr müzakirə edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələləri qeyd olundu.

## Körfəz ölkələri ilə əməkdaşlığımız genişlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvini qəbul edib.**

Dövlətimizin başçısı Körfəz Əməkdaşlıq Şurasının SPECA-nın Zirvə görüşündə iştirakını yüksək qiymətləndirdi, Azərbaycanın təşkilata üzv dövlətlərlə çox yaxın tərəfdaşlıq münasibətlərinin olduğunu vurğuladı. Prezident İlham Əliyev Körfəz Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçıları ilə şəxsi dostluq əlaqələrinin olduğunu, bu ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi, investisiyalar, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin mövcudluğunu qeyd etdi. Azərbaycan Prezidenti respublikamızda və Mərkəzi Asiya ölkələrində siyasi sabitliyin tam təmin olunduğunu, ölkələrimizin siyasi, iqtisadi, demoqrafik amillər baxımından sürətlə inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin Mərkəzi Asiya regionu ilə inteqrasiyası prosesinin dinamik getdiyini, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid geosiyasi, iqtisadi və siyasi məkan, Xəzər dənizinin bizi birləşdirən dəyər olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev gələcəkdə Azərbaycan, Mərkəzi Asiya və Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr arasında əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu bildirdi. Dövlətimizin başçısı, həmçinin Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın SPECA ilə yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsində bir araya gəldiklərini, Türk Dövlətləri Təşkilatı və Körfəz Əməkdaşlıq Şurası arasında da təsisatlanmış əməkdaşlığın qurulmasının vacibliyini qeyd etdi.

Baş katib SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini qeyd etdi, münasibətlərin müxtəlif sahələrdə inkişafını vurğuladı, siyasi, iqtisadi, investisiyaların artırılması və digər istiqamətlərdə böyük perspektivlərin olduğunu dedi.

Görüşdə hazırda dünyada islamofobiya meyillərinin artması və ona qarşı mübarizənin aparılması məsələləri də müzakirə edildi.

## Ortaq hədəflər Gürcüstanla dostluğu möhkəmləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.**

Baş nazir İrakli Qaribaşvili SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi, SPECA-nın 25 illiyi münasibətilə təbriklərini çatdırdı. Gürcüstanın Baş naziri Azərbaycanın SPECA-ya sədrliyi dövründə bu Zirvə görüşünün keçirilməsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Gürcüstana səfərini və səfər çərçivəsində aparılan müzakirələri məmnuniyyətlə xatırladı.

Söhbət əsnasında Azərbaycan ilə Gürcüstan arasında mehriban dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu. Transxəzər nəqliyyat dəhlizinin inkişafı və bu xüsusda Gürcüstan, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu. Əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Qırğızıstan Prezidentinin səfəri başa çatıb

**Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan Respublikasına səfəri noyabrın 24-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Sadır Japarovu hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

## Qazaxıstan Prezidenti Astanaya dönüb



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycan Respublikasına işgüzar səfəri noyabrın 24-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər yola saldılar.

## Tacikistan Prezidenti ölkəsinə qayıdıb



**Noyabrın 24-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına işgüzar səfəri başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər yola saldılar.

## Özbəkistan Prezidenti Bakı ilə vidalaşıb

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycan Respublikasına işgüzar səfəri noyabrın 24-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şavkat Mirziyoyevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

## Macarıstan Baş naziri vətəninə dönüb

**Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycan Respublikasına işgüzar səfəri noyabrın 24-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Viktor Orbanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

# Viktor Orban Heydər Əliyevin məzarını ziyarət edib



**Noyabrın 24-də Macarıstanın Baş naziri Viktor Orban Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib.**

Baş nazir Ümummilli liderin xatirəsini dərin ehtiramla anıb, məzarı önünə gül dəstələri düzüb.

# Qazaxıstanın nümayəndə heyəti SPECA ölkələrinin sərgisində



**Ölkəmizdə səfərdə olan Qazaxıstanın nümayəndə heyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və iqtisadiyyat naziri Mikayıl Cabbarovla birlikdə noyabrın 24-də Bakı Ekspo Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, qonaqlara sərgi barədə məlumat verilib. Bildirilib ki, sərgidə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyanın, dayanıqlı inkişafın təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən bəhs edilir.

Həmçinin qeyd olunub ki, bu sərgidə Ümummilli Lider Heydər Əliyevə həsr edilən xüsusi stend də nümayiş olunur. Burada Ulu Öndərin 100 illiyinə həsr olunmuş videoçarx, Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən 11 kitabın nüsxəsi və markalar təqdim edilir. Bundan başqa, stenddə "AzerGold" QSC tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilən "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkə də nümayiş etdirilir.

Şahin Mustafayev, Mikayıl Cabbarov və qazaxıstanlı qonaqlar SPECA-nın üzv dövlətlərinin - Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın və Özbəkistanın stendləri ilə tanış olub, stendlərdə üzv ölkələrdə istehsal olunan məhsullara baxıblar.

Qeyd olunub ki, sərginin məqsədi iştirakçı ölkələrin iqtisadi potensialını nümayiş etdirmək, birlikdə qarşılıqlı faydalı tərəfdaşlıq imkanlarını müzakirə etmək və üzv dövlətlər arasında regional iqtisadi əməkdaşlığı gücləndirməkdir.

Mərkəzi Asiya ölkələri və Azərbaycan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünyada strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və coğrafi regiondur.

Sərginin açıq sahəsində iştirakçı ölkələr tərəfindən nəqliyyat vasitələri, həmçinin sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi, energetika və digər sahələrə aid avadanlıqlar və ağır texnikalar nümayiş olunur.

Sərgi çərçivəsində Qazaxıstan nümayəndələri Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevə xatirə hədiyyəsi təqdim edib. Şahin Mustafayev qazaxıstanlı qonaqlara təşəkkürünü bildirib.

# Körfəz ölkələri ilə əməkdaşlıq inkişaf edir

**Noyabrın 24-də xarici işlər naziri Ceyhun Bayramov ilə ölkəmizdə səfərdə olan Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) Baş katibi Casim Əl-Budeyvi arasında görüş keçirilib.**



Görüş zamanı Azərbaycan ilə KƏŞ arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə münasibətlərin inkişaf perspektivləri müzakirə olunub.

Bununla yanaşı, KƏŞ-in bir sıra regional formatlarında, xüsusilə də Orta Asiya ölkələri ilə əməkdaşlıq mexanizmlərində ölkəmizin iştirakının və proseslərə yaxından cəlb olunmasının əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov bu xüsusda ölkəmizin sədrliyi altında BMT Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün xüsusi proqramının (SPECA) Bakı həftəsi və Sammitinin və əldə olunmuş razılaşmaların bölgədə əməkdaşlığa əlavə təkan verəcəyini bildirib.

Azərbaycanın KƏŞ-ə üzv dövlətlərlə tarixi dostluq, qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan münasibətlərin mövcudluğundan bəhs edən nazir Ceyhun Bayramov, bu münasibətlərin KƏŞ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa təkan verdiyini qeyd edib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədəki vəziyyət, sülh perspektivləri barədə qarşı tərəfə məlumat verib.

# 12 min şəxs peşə hazırlığına cəlb ediləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Prezidentin xüsusi nümayəndəliyi və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə birgə Laçında "İşğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasında məşğulluğun rolu – Peşə və bacarıqların inkişaf etdirilməsi" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Qeyd edilib ki, artıq Laçına köçürülən sakinlərdən 266 nəfərin məşğulluğu təmin edilib. Əlavə olaraq 53 şəxsin də məşğulluq məsələlərinin həlli istiqamətində tədbirlər görülür.

Bildirilib ki, Böyük Qayıdış proqramı çərçivəsində köçürülən sakinlərin peşə hazırlığına cəlbi əsas məşğulluq tədbirlərindən biridir və ilkin mərhələdə azad olunan ərazilərdə məskunlaşacaq 12 min şəxsin peşə hazırlığına cəlbi nəzərdə tutulub. Artıq Zəngilan rayonunun Ağalı kəndində 31 nəfər dərzi peşəsi üzrə kurslara cəlb olunub və kursun yekununda işlə təmin edilib. Digər ərazilərə köçürülən şəxslərin də peşə hazırlığına cəlbi istiqamətində tədbirlər görülür.

**Zərifə HÜSEYNOVA**
**XQ**

# Əli Əsədovun BMT Komissiyasının icraçı katibi ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 24-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiya Alişahbana ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) Həftəsinin əhəmiyyəti vurğulandı. UNESCAP-ın icraçı katibinin Azərbaycanın SPECA-ya sədrliyi çərçivəsində ilk dəfə olaraq təşkil olunan və proqramın 25-ci ildönümünə təsadüf edən Zirvə görüşündə iştirakı yüksək qiymətləndirilib.

Azərbaycanın Komissiyanın əksər üzv ölkələri ilə müxtəlif sahələrdə yaxşı münasibətlərə malik olduğu bildirilərək, çoxtərəfli əməkdaşlığın genişləndirilməsi baxımından UNESCAP səmərəli platforma kimi dəyərləndirilib.

Azərbaycanın təşəbbüsü ilə Komissiya tərəfindən qəbul edilmiş nəqliyyat bağlantıları və dayanıqlı enerjinin inkişafı üzrə qətnamələrin önəmi vurğulanıb.

Görüşdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə uğurlu əməkdaşlığından bəhs edilib, bu əməkdaşlığın SPECA çərçivəsində iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika və qarşılıqlı maraq doğuran bütün digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin mövcud olduğu bildirilib.

# Fövqəladə hallar naziri Qubada

**Noyabrın 24-də fövqəladə hallar naziri Kəmaləddin Heydərov Quba şəhərində Heydər Əliyev Mərkəzinin binasında Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.**



Qəbula gələn sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşların müraciətlərini dinləyiblər.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

**XQ**

# Sosial şəbəkələrdə əsassız məlumatlar yayan vətəndaşa xəbərdarlıq olunub

**Bəzi sosial şəbəkə səhifələrində guya Ağdam rayonunda müxtəlif ərazilərin minalanması görüntüsünün formalaşdırılması ilə bağlı yayılmış məlumatlar üzrə araşdırma aparılıb.**

Baş Prokurorluqda aparılmış araşdırmalarla müəyyənləşdirilib ki, 1999-cu il təvəllüdlü Emin Nəcəfzadə Ağdam rayonunun Baş Qərvənd kəndinin yaxınlığında çəkiliş apararaq həmin mina olmayan ərazilərdə Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbərliyinin göstərişi ilə guya təhlükənin mövcud olmasını göstərmək məqsədilə müxtəlif nişanlar və yararsız minalar yerləşdirildiyini iddia edib.

Bildirilir ki, istinad olunan təşkilat həmin ərazilərdə minatəmizləmə işlərində iştirak etməyib: "Qeyd olunan ərazidə səlahiyyətli dövlət orqanları tərəfindən minatəmizləmə işləri həyata keçirilib, eyni zamanda, təhlükənin qarşısının alınması məqsədilə monitorinqlər davamlı həyata keçirilir.

Şəxsi qərəzlilik zəminində və Fondun keçmiş əməkdaşı kimi işçi münasibətlər zamanı ortaya çıxmış narazılığı səbəbindən Emin Nəcəfzadənin irəli sürdüyü əsassız və həqiqətə uyğun olmayan iddialar əhalinin təhlükəsizliyinin təmin olunmasına kölgə salmaqla yanaşı, cəmiyyət içində ciddi narahatlığa və təşvişə səbəb olub.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən Emin Nəcəfzadə Tərtər Rayon Prokurorluğuna dəvət olunaraq ona xəbərdarlıq edilib".

**XQ**

# Vizaların sadələşdirilməsi müzakirə olunub

**Bakıda Azərbaycanla Avropa İttifaqı arasında Birgə Viza Sadələşdirilməsi Komitəsinin yeddinci iclası keçirilib.**



Iclasda Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının rəsmiləri, eləcə də Avropa İttifaqının Miqrasiya və Daxili İşlər Baş Direktorluğunun nümayəndələri, Avropa İttifaqının ölkəmizdəki Nümayəndəliyinin əməkdaşları və Avropa İttifaqı üzv dövlətlərinin ölkəmizdə akkreditə olunmuş diplomatik missiyalarının konsulları da iştirak ediblər.

Tərəflər 2013-cü ilin noyabrın 29-da imzalanmış "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında" Sazişin müddəalarından irəli gələn sadələşdirilmələrin tətbiqi mexanizmləri və Avropa İttifaqı ilə ölkəmiz arasında bu sahədə faydalı əməkdaşlığın genişləndirilməsi perspektivlərini əhatə edən mövzular ətrafında konstruktiv və ətraflı müzakirələr aparıblar.

2022-ci və 2023-cü il noyabrın 15-dək olan statistik göstəricilərə istinad edilərək, Azərbaycan və Avropa İttifaqı vətəndaşları arasında qarşılıqlı səfər sayında ciddi artımın olduğu vurğulanıb.

İclas zamanı, həmçinin vətəndaşlarımızın Avropa İttifaqına üzv ölkələrin Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyalarına viza müraciətləri zamanı üzləşdikləri çətinliklər qarşı tərəfin diqqətinə çatdırılıb və onların aradan qaldırılması mexanizmləri üzrə fikir mübadiləsi aparılıb.

**XQ**

# Bakıda beynəlxalq elmi-praktik konfrans

**Noyabrın 24-də Bakıda Birinci Moskva Dövlət Tibb Universitetinin və Bakı Sağlamlıq Mərkəzinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Minimal və endo-vizual ginekologiya" beynəlxalq elmi-praktik konfransının açılış mərasimi keçirilib.**

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev bildirib ki, Ümummilli lider Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü və demokratik hüquqi dövlətə çevirmək idi. Heydər Əliyev təhsil sisteminin də inkişafına xüsusi diqqət yetirirdi.

Hazırda ölkəmizdə Azərbaycan Diplomatik Akademiyası, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, Azərbaycan Fransız Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı kimi nüfuzlu universitetlər yaradıldıqdan sonra gənclərimiz elə Vətənimizdə mükəmməl təhsil ala bilirlər.

Azərbaycanda keçirilən səhiyyə islahatlarından danışan Milli Məclisin Səhiyyə komitəsinin üzvü, həkim-kardioloq Rəşad Mahmudov həkimlərin, tibb işçilərinin üzərinə böyük məsuliyyət düşdüyünü, dövlətin siyasətinə dəstək vermək üçün görüləcək işlərin çox olduğunu bildirib.

Bakı Sağlamlıq Mərkəzinin icraçı direktoru Asiman Həsənov isə Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda tibb sahəsində aparılan islahatlardan bəhs edib. O, əhalinin sağlamlığının mühafizəsində Mehriban xanım Əliyevanın rolunun danılmaz olduğunu deyib. İcraçı direktor humanitar və sosial sahələrdə müxtəlif layihələr həyata keçirən Heydər Əliyev Fondunun dəstəyi ilə müalicəyə ehtiyacı olanlara göstərilən köməkdən də danışıb.

Tədbir panel sessiyalarla davam edib.

**XQ**

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## Fəlsəfi-sinergetik təhlil



> *“Əsl lider konsensus axtaran deyil, onu yaradandır”*
>
> **Martin Lüter Kinq**

**VII məqalə**

VI məqalədə İlham Əliyev nümunəsində yeni liderlik sinerjisini dövlət tərbiyəsi kontekstində üç aspektin - substantiv (kadrlar), idarəetmə (siyasi, sosial, informasiya və s. institutlar) və funksional (cəmiyyətin müəyyən təbəqələrinin (stratların) toplum naminə fəaliyyət əmsalı), vəhdəti kimi təhlil etməyimizin konkret siyasi-strateji məqsədi vardı. Məsələ ondan ibarətdir ki, son 300 ildə cəmiyyətimiz Azərbaycan dövlətçiliyinin taleyi baxımından çox keşməkeşli bir mərhələni yaşamışdır. Azərbaycan XIX əsrdə siyasi-coğrafi ilə yanaşı, mənəvi-mədəni və ideoloji olaraq da parçalandı.

Ölkə ərazi olaraq iki yerə bölündü, onun qalıqları isə bir neçə xanlığa... Nəticədə Azərbaycan cəmiyyətinin coğrafi, siyasi, mədəni, mənəvi-əxlaqi və ideoloji aspektlərdə parçalanması daha da dərinləşdi. Prosesin digər cəhətləri üzərində dayanmadan dövlətçilik kontekstində bu gedişatın insanlarda müstəqil dövlət, özünəməxsus identikliyi olan cəmiyyət haqqında təhrif olunmuş psixoloji yaşantılar və siyasi təsəvvürlər formalaşdırmağa başladı. O cümlədən, kənardan cəmiyyətə müstəqil ola bilməmək kimi kölə “siyasi tərbiyəsi” aşılandı.

Bu kimi proseslər, ümumiyyətlə, istənilən toplumun taleyində çox mürəkkəb və ağır reallıqlar yaradır. O cümlədən, insanların dövlət tərbiyəsi pozulur. Azərbaycan XX əsrin əvvəllərində bu siyasi və psixoloji apatiyadan qurtulmaq cəhdini göstərdi. Lakin müxtəlif səbəblərdən Azərbaycan Demokratik Respublikası süqut etdirildi. Bununla cəmiyyətdə müstəqil dövlət qurmağa layiq ola bilmək inamı yenidən söndü. Ulu öndər Heydər Əliyevin sovet dövründə həyata keçirdiyi sistemli və davamlı siyasət nəticəsində Mərkəzin razılığı olmadan belə, azərbaycanlılar azərbaycanlı olmaq haqqında mənəvi-əxlaqi, mədəni və ideoloji təsəvvürləri qoruya bildilər. Heydər Əlıyev idarəetmədə də konkret addımlarla kadrların Azərbaycana xidmət etməli olduğu məsuliyyətini və duyğusunu aşılaya bildi. Bu mənada Ulu öndər kadrları məharətlə, sözün əsl mənasında azərbaycanlılaşdırdı.

Müstəqilliyin ilk illərində naşı rəhbərlik yenidən cəmiyyəti sosial, siyasi, mənəvi və ideoloji apatiyaya sürüklədi. Heydər Əliyev xalqın təkidli dəvəti ilə hakimiyyətə yenidən gələnədək cəmiyyətdə siyasi absenteizm (siyasi proseslərə, seçkilərə laqeydlik) xeyli yüksəldi. Onun əlamətlərinin mərkəzində bütövlükdə insanların dövlətçiliyə laqeydliyi dayanırdı. Mənəvi, siyasi və ideoloji kontekstdə bu, dövlət tərbiyəsinin hiss olunacaq dərəcədə zəifləməsi demək idi ki, vətəndaş dövlət marağını şəxsi marağından aşağı görürdü.

Tarixi təcrübə göstərir ki, dünyada dövlətçilik şüurunun zəif olduğu və bu mənada vətəndaşın dövlət tərbiyəsinin aşağı olduğu şəraitdə dayanıqlı müstəqil dövlət qurmaq mümkün deyildir. Ulu öndər bu mənfi tendensiyanı nəinki dayandırdı və hətta qısa müddətdə absenteizmin bütövlükdə kökünü kəsdi. Bunun əsas göstəricisi, 1993-cü il Prezident seçkisində cəmiyyətin böyük fəallığı və Heydər Əliyevə inam nümayiş etdirməsi idi. Həmin dövrü araşdıran politoloqlar və sosioloqlar mövcud məqamı xüsusi vurğulayırlar.

Beləliklə, XXI əsrin astanasında aydın idi ki, cəmiyyətdə dövlətçilik şüurunu bütün aspektlərdə və incəliklərində yeni səviyyəyə yüksəltmək prosesi kəsintisiz davam etməlidir. Bunun ən səmərəli yolu isə dövlət başçısı və liderinin şəxsi nümunəsində yüksək keyfiyyətlər nümayiş etdirməklə, bütövlükdə topluma nümunə olmasıdır. İlham Əliyev məharətlə özündə dövlətçilik şüurunu və onun mühüm komponenti kimi dövlət tərbiyəsini ehtiva edən yeni liderlik nümunəsini yaratdı. Həmin nümunənin əsas faktorlarından biri isə yeni liderliyin yuxarıda vurğuladığımız mənada siyasi sinerjisidir!

Beləliklə, İlham Əliyev Prezident və lider kimi müstəqil dövlətçilik baxımından tarixi olan bir missiyanı yerinə yetirmək məsuliyyətini üzərinə götürdü. Konkret olaraq, Prezident yeni liderliyin (və onun siyasi sinerjisinin) nəzəri-konseptual modelini (obrazını) yaratmalı, həm də praktiki olaraq onu reallaşdırmalı idi. Bu vəziyyət keçən əsrin 90-cı illərinin əvvəllərində Ulu öndərin xilaskarlıq, quruculuq və birləşdiricilik aspektlərini nəzəri və praktiki olaraq paralel aparmaq missiyası ilə müəyyən xüsusiyyətlərdə oxşarlıq təşkil edir).

İlham Əliyev Avrasiya məkanında dövlət başçısı olmaqla yeni liderliyi sintez edə bilən nümunə yaratmalı idi. Yeni liderliyin siyasi sinerjisi bizim üçün məhz həmin kontekstdə fəlsəfi və politoloji dəyər kəsb edir. Həmin istiqamətdə də yeni liderliyin siyasi sinerjisini bütöv ifadə edən (bu mənada onu təmsil edən, əyaniləşdirən) konkret proqramlar üzərində dayanaq. Onlar birlikdə bu liderliyin siyasi sinerjisini substantiv, idarəetmə və funksional aspektlərin vəhdəti kimi xarakterizə edirlər. VI məqalədə vurğuladığımız kimi bu, İlham Əliyevin praktiki fəaliyyətdə strateji zəka qabiliyyəti ilə yüksək şəxsi keyfiyyətlərinin vəhdətinə əsaslanır.

Konkret proqramlar və onların nəticələrinin cəmiyyətdə yaratdığı müxtəlif xarakterli dəyərlər (siyasi, mədəni, ideoloji, aksioloji, mənəvi-əxlaqi, geosiyasi və s.) nümunəsində yeni liderliyin siyasi sinerjisinin yuxarıda vurğulanan aspektlərdə ayrı-ayrı təzahürlərini aydınlaşdıra bilərik.

Məsələnin fəlsəfi və politoloji tərəfi çoxaspektli olduğundan biz yalnız bir sıra məqamlar üzərində dayanaq. Bu baxımdan Prezident İlham Əliyevin son 20 ildə cəmiyyətlə ünsiyyətində siyasi-diplomatik məharətlə yeni dəyərləri topluma aşılaya bilməsi aktualdır. Çünki bu faktorda həm dövlət quruculuğunun konkret aspekti mövcuddur, həm dövlət tərbiyəsinin siyasi-ideoloji komponenti vardır, həm də belə incə məqamların praktiki reallaşan proqramlarda ifadə özəlliyi olduqca maraqlıdır.

Onların sırasında İlham Əliyevin vətəndaşların siyasi laqeydliyini (absenteizm) tamamilə aradan qaldıraraq, dövləti və toplumsal məsələlərdə vətəndaş aktivliyini XXI əsrin çağırışlarına adekvat təmin etməsi xüsusi yer tutur. Azərbaycan Prezidenti cəmiyyətlə ünsiyyətində vətəndaşlara verdiyi önəmi insan kapitalını mərkəzi faktor kimi seçərək davamlı inkişaf modelini reallaşdırmağın zərurətini konkret proqramları vasitəsi ilə anlatmışdır.

Biz həmin məsələyə enerji strategiyasına aid layihələr, idarəetmədə vitse-prezidentlik institutunun uğurla reallaşmasını təmin edən proqram, “dəmir yumruq” və “biz birlikdə güclüyük” kəlamlarının ifadə etdiyi həmrəylik və monolitlik proqramı, Azərbaycan siyasi mühitində demokratik sıçrayış effekti verən siyasi dialoq proqramı, ordu quruculuğunun strateji humanitarlığını və milli təhlükəsizliklə sıx əlaqəsini təmin edən proqram nümunəsində nəzər salacağıq. Bu zaman prosesin daxili məntiqinin və gedişat dinamikasının konkret istiqamətlər üzrə həyata keçirilən siyasi kurs olaraq fəlsəfi izah edilməsi başlıca məqsəd olacaqdır.

### Cəmiyyət naminə enerji strategiyası

İlham Əliyev ölkənin neft strategiyasının cəmiyyət üçün faydalarını əks etdirən islahatları reallaşdırmışır. Bura sosial-mədəni, iqtisadi, nəqliyyat, energetik xarakterli layihələr daxildir. O cümlədən, regionların inkişafı proqramının ayrıca yeri vardır.

İlham Əliyev vurğulanan aspektlərdə çox mürəkkəb və çətin şərtlər daxilində Azərbaycanda enerji strategiyasını davamlı olaraq inkişaf etdirmişdir və onu tamamilə cəmiyyətin faydalanması istiqamətinə yönəltmişdir.

Xüsusilə, ətraf bölgələrdə geosiyasi, siyasi, təhlükəsizlik və iqtisadi-maliyyə böhranları kəskinləşəndə İlham Əliyev yeni liderlik keyfiyyətlərini həm ünsiyyətdə (siyasi-diplomatik fəaliyyətdə), həm də həyata keçirdiyi islahatlar proqramlarında nümayiş etdirmişdir. Filosoflar və politoloqların ünsiyyət qabiliyyətini hazırda uğurlu liderliyi xarakterizə edən faktorlar sırasında ilk yerə qoyurlar və onlar tam haqlıdırlar.

Çünki qlobal miqyasda beynəlxalq hüquq normalarına əməl olunmursa (güc faktoru önə çıxırsa) və xüsusilə beynəlxalq təhlükəsizliyin arxitekturası pozulursa, liderin şəxsi, iradi, psixoloji, kommunikativ, siyasi, mənəvi-əxlaqi keyfiyyətləri birinci sıraya yüksəlməlidir.

Bütün bunların fonunda İlham Əliyevin öz şəxsi ünsiyyət, siyasi-diplomatik imkanları sayəsində istənilən böhranlı situasiyada neft strategiyasını reallaşdıra bilməsinin nəzəri və praktiki əhəmiyyətini göstərir. Liderliyin sinerjisində bu məqam xüsusi yer tutur və motivəedici faktorlardan biri kimi qəbul edilir. Doğurdan da İlham Əliyevin neft strategiyasını Gürcüstan və Ukrayna üçün çox çətin mərhələlərdə hansı inam, dəqiqlik, fəallıq və təşəbbüskarlıqla inkilşaf etdirdiyi tarixi faktdır. Xüsusilə, Gürcüstan üçün bu prosesin ayrıca strateji əhəmiyyəti vardı. Azərbaycan Prezidenti Ulu öndərin siyasi varisi kimi, tərəddüd etmədən qonşu dövlətin ən ağır günlərində belə neft strategiyasının reallaşdırılmasından kənarda qalmamasını təmin etdi. Nəzərə almaq lazımdır ki, kifayət qədər siyasi strateji zəka və iradə olmasa, kənardan güclü təzyiqlərə sinə gərib, öz mövqeyində qalmaq mümkün olmazdı. Bu məqam da liderlik sinerjisinin vacib komponentidir.

Azərbaycan Prezidentinin neft strategiyasını inamlı siyasi varislik və XXI əsrin çağırışları fonunda həyata keçirməsinin daxili proyeksiyası çox möhtəşəm olmuşdur. Bir tərəfdən, cəmiyyətin sosial-mədəni, maddi, mənəvi, əxlaqi, ideoloji inkişafı və birliyi üçün neftdən əldə edilən gəlirlər sərf edilmişdir, digər tərəfdən onlar strateji ehtiyat kimi toplanmışdır. Bunların fonunda isə sürətli Ordu quruculuğu aparılmışdır.

### Hərbi güc və humanitarlığın sintezində

Ordu quruculuğu bütövlükdə İlham Əliyevin liderlik sinerjisinin ən parlaq və əhəmiyyətli komponentidir. Çünki burada bir neçə məqam sintez halında milli dövlətçilik və humanitarlıq kontekstində əksini tapmışdır.

Birincisi, İlham Əliyev Ordu quruculuğunu, Azərbaycan ordusunun texniki-hərbi təchizatını və vurucu gücünü ərazi bütövlüyünü bərpa etmək və tam suverenliyə nail olmaq məqsədi ilə aparmışdır. Bu, militarizmin tüğyan etdiyi müasir dövrdə olduqca humanist və humanitar bir mövqedir!

İkincisi, İlham Əliyev Ordu quruculuğu prosesini sırf müstəqil dövlətçiliyin siyasi varislik kontekstində inkişafı naminə həyata keçirmişdir. Burada hər hansı dövlətə qarşı aqressiv münasibətdən söhbət gedə bilməz.

Üçüncüsü, Ordu quruculuğu cəmiyyətin bütün sferalarında yenidənqurma, islahatlar və sosial-mədəni, iqtisadi inkişaf ilə uzlaşdırılaraq aparılmışdır. Bu, ümumilikdə ölkənin inkişaf paradiqmasında qalmasını təmin etmişdir ki, başlıca məqsədi cəmiyyəti gücləndirmək olmuşdur! Bu, liderliyin sinerjisi çərçivəsində böyük ideyadır!

Dördüncüsü, şübhə yoxdur ki, yeni liderliyin Ordu quruculuğu aspektində bu cür təzahürü İlham Əliyevə iki istiqamətdə böyük uğur əldə etməsinə imkan vermişdir. Onlardan biri ərazi bütövlüyünün təmini, digəri isə suverenliyə tam nail olunmasıdır.

Ərazi bütövlüyünün təmini və tam suverenlik müasir fəlsəfi və politoloji ədəbiyyatda dövlətçiliyin iki aparıcı faktoru kimi qəbul edilir. Deməli, İlham Əliyev faktiki olaraq vahid siyasi-diplomatik və hərbi-təhlükəsizlik fəaliyyəti prosesi daxilində müstəqil və milli dövlətçilyin iki əsas şərtinin ödənliməsini təmin etmişdir. Avrasiyada bu uğuru hələ təkrar edən ikinci lider yoxdur.

Vurğulanan sonuncu məqam yeni liderliyin sinerjisini mərkəzi motivəedici və təminedici sistem faktoru kimi xarakterizə edir. Bizim anlamımızda həmin məqam aparıcı rol oynayır. Çünki yeni liderliklə dövlət başçısı statusu (bu anda Prezidentliklə) vəhdətdə qəbul edilir. XXI əsrin şərtləri liderlərə birbaşa dövlət başçısı-lider kontekstində baxmağı tələb edir. O halda dövlətçiliyin aparıcı əlamətləri olan ərazi bütövlüyü və suverenliyin təmin edilməsini, ümumiyyətlə, liderliyin sinerjisinin əsas effektlərindən biri kimi təsəvvür etmək doğru olardı.

Həmin kontekstdə İlham Əliyevin ifarəetmə sisteminə vitse-prezidentliyi böyük uğurla daxil etməsi xüsusi əhəmiyyət daşıyır.

**Vitse-prezidentlik: uğurlu Azərbaycan nümunəsi**

**(ardı var)**

**Füzuli QURBANOV**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# Cəbrayılın Soltanlı kəndinin təməli qoyulub

## *Yeni məktəb Macarıstanın hədiyyəsi olacaq*

**Dünən Cəbrayıl rayonunun Soltanlı kəndinin rəsmi təməlqoyma mərasimi keçirilib.**



Tədbirdə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Soltanlı kəndinin sakinləri iştirak ediblər.

Soltanlının Baş planı layihəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Macarıstanın tikinti və layihələndirmə sahəsində fəaliyyət göstərən "KESZ" şirkətlər qrupu və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Ümumi sahəsi 398,82 hektar olan və 6 100 nəfərdən ibarət 1 525 ailənin yaşayacağı proqnozlaşdırılan bu məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Burada ümumilikdə 496 fərdi yaşayış evinin tikintisi təklif olunur. Bununla yanaşı, kənddə 1 044 mənzildən ibarət 4 və 5 mərtəbəli çoxmənzilli yaşayış binaları da yerləşdirilib.

Həmçinin kənd ərazisində inzibati bina, klub-icma mərkəzi, məktəb binası, bağça, xəstəxana, idman-sağlamlıq mərkəzi, hotel, ticarət və ictimai-iaşə obyektləri, toxuculuq sexi, sənətkarlıq emalatxanaları, iri və xırda buynuzlu heyvanların saxlandığı fermaların inşası da planlaşdırılıb.

Soltanlı kəndində tikiləcək məktəb Macarıstan hökumətinin Azərbaycana hədiyyəsidir.

Bunu Macarıstanın tikinti və layihələndirmə sahəsində fəaliyyət göstərən "KESZ" şirkətlər qrupunun rəhbəri Otto İzso bildirib.

Onun sözlərinə görə, bu məsələ iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcək: "Kəndin tikinti işlərini görmək bizim üçün əlamətdar hadisədir. Çox şadıq ki, bu iş bizə həvalə olunub. Ümid edirik ki, tezliklə bu kəndin sakinləri yüksək standartlara cavab verən evlərində xoşbəxt yaşayacaqlar".

**XQ**

# 25 ailə də Füzuliyə qayıtdı



## *Köçkünlərin doğma yurdlarına qayıdışı davam edir*

**Dünən 25 ailə olmaqla, 72 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Bununla da Füzulidə 283 ailə olmaqla, 1000 nəfərin daimi məskunlaşması təmin edilib.**

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**XQ**

# “Heydər Əliyev Naxçıvandakı sovet hərbi əmlakını bütünlüklə milliləşdirdi”



**Naxçıvan Sərhəd Dəstəsinin ilk milli komandiri, sovet dövründə burada yaradılmış 41-ci Sərhəd Dəstəsini sovet-rus hərbçilərindən təhvil almış cəsur azərbaycanlı zabit, istefada olan general-mayor Cahangir Qulamov o zaman Ermənistanın yaratdığı ağır blokada və muxtar respublikaya davamlı təzavüzü şəraitində ümummilli lider Heydər Əliyevin talenin ümidinə qalmış qədim diyarda gerçəkləşdirdiyi müstəsna xilaskarlıq missiyası barədə söhbətə belə başladı:**

– Təsəvvür edin ki, sovet dönəmində Naxçıvan ərazisindəki bir çox sərhəd məntəqələri Ermənistanın nəzarətində idi. Sədərəkdəki indiki birinci sərhəd zastavası Azərbaycanda yeganə hərbi məntəqədir ki, Türkiyə, İran və Ermənistan arasında sərhədə nəzarəti həyata keçirir. Belə bir mühüm zastava Naxçıvanda yerləşsə də sovet zamanı Ermənistandakı Artaşat sərhəd dəstəsinə tabe edilmişdi. Məqsəd aydın idi: Azərbaycanı dil və din qardaşlarının yaşadığı ölkələrdən kənarda qoymaq. Ordubad rayonundakı “Yaycı” zastavasından “Kotam” sərhəd məntəqəsinədək bütün bütün hərbi keşik obyektləri də Naxçıvandakı 41-ci Sərhəd Dəstəsinə deyil, Ermənistan ərazisində süni şəkildə yaradılmış Mehri Sərhəd Dəstəsinə tabeliyinə verilmişdi.

Bu rüsvayçı vəziyyət ermənilərin Naxçıvana qarşı davam edən hərbi təcavüzü zamanı sərhədçilərlə yerli hakimiyyət orqanları arasında ciddi problemlər yaradır, əhalini narazı salırdı. Belə taleyüklü məsələ ulu öndər Heydər Əliyev Naxçıvana gəldikdən sonra öz həllini tapdı. Çünki dahi şəxsiyyət, dünya şöhrətli dövlət xadimi, siyasət qrossmeysteri Zaqafqaziyada sərhədlərin qorunması işinin necə təşkil olunduğunu bütün incəliklərinə qədər bilirdi. Ulu öndər Sərhəd Qoşunları Zaqafqaziya Dairəsinin və 41-ci sərhəd dəstəsinin rəhbərliyindən tələb etdi ki, muxtar respublikanın ərazisindəki sərhəd məntəqələrinin hamısı ərazidəki dəstəyə tabe edilsin.

Bu məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tələb etdiyi müddətdə, yəni 3 gün ərzində (30 oktyabr 1991-ci il) həll edildi. SSRİ imperiyası rəsmi şəkildə buraxılmamış, sovet hərbi əmlakı və obyektləri respublikalar arasında bölünməmiş belə belə addımın atılması o zaman üçün görünməmiş və mümkün olmayan bir hadisə idi. Bu müşkül Ulu öndərin zəkasının, iradəsinin və siyasi nüfuzunun gücü ilə mümkün olmuşdu.

**Xatırladaq ki, müsahibimiz Cahangir Qulamov 1952-ci ildə Naxçıvan şəhərində anadan olub. Hərbi xidmətini də buradakı sərhəd qoşunlarında keçib, sıravi əsgərdən polkovnik rütbəsinədək yüksəlib. Sərhəd qoşunlarında qüsursuz xidməti və əməliyyat sahəsində təcrübəsi nəzərə alınaraq DTK-nın Moskvadakı Ali Məktəbinə göndərilib. Rus və fars dillərini mükəmməl bildiyinə görə qonşu ölkələrlə bir sıra yüksək səviyyəli görüşlərdə iştirak edib, siyasi cəhətdən də yetkinləşib. 28 iyul 1992-ci ildə müstəqil Azərbaycanın Dövlət Sərhədini Mühafizə Komitəsi sədrinin müavini – Naxçıvan Sərhəd Dəstəsinin rəisi vəzifəsinə təyin edilib. Sonrasını general belə açıqladı:**

– 1992-ci ildə SSRİ məkanı artıq yox idi, amma SSRİ silahlı qüvvələri Azərbaycan ərazisində mövcud idi. Buna görə də Heydər Əliyev Naxçıvan Ali Məclisində məsələni belə qoydu ki, bu silahlı qüvvələrin statusu müəyyənləşməlidir. Ulu öndərin böyük səyləri, qətiyyəti nəticəsində Naxçıvandakı 75-ci motoatıcı diviziya və 41-ci sərhəd dəstəsi bütün əmlakı ilə Azərbaycanın tabeliyinə verildi. 29 avqust 1992-ci ildə sərhəd qoşunlarının sonuncu nümayəndələri Naxçıvanı tərk etdi və sərhəd dəstəsində müstəqil Azərbaycanın milli bayrağı dalğalandırıldı.

Beləliklə, ölkəmizin xidməti ərazisində sərhədlərimizi tam mühafizə altına götürən ilk milli sərhəd dəstəsi yaradıldı. O zaman Naxçıvandan fərqli olaraq, respublikamızın digər ərazisindəki sərhəd dəstələrinin əmlakının 50 faizini Rusiya Federasiyasına, 50 faizinin isə Azərbaycan Respublikasının sərəncamına verilməsi barədə razılaşma olmuşdu. Belə bir şəraitdə 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin yığıncağında “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunması haqqında” məsələyə baxıldı.

Qəbul edilmiş qərara əsasən muxtar respublika ərazisində yerləşmiş keçmiş SSRİ Silahlı Qüvvələrinin tabeliyində olan silah-sursat, texnika, hərbi və mülki əmlak bütünlüklə Azərbaycana təhvil verildi. Bundan sonra mən müstəqilliyimizin bərpasından sonra ilk dəfə Azərbaycan bayrağı altında Türkiyə və İrana sərhəd komissarlarının görüşünə getdim. Bununla da ulu öndər Heydər Əliyev göstərdi ki, Azərbaycan öz sərhədlərini öz gücü ilə qorumağa qadirdir.

**– Cənab general, təhvil-təslim prosesinə qədər hadisələr necə davam etmişdi? Sovet-rus sərhədçiləri Naxçıvanı tərk edənədək hansı hadisələrə şahidlik etmişdiniz?**

– Mən o zaman sərhəd dəstəsində əməliyyat idarəsinin rəisi idim. Açığını deyim ki, rus sərhədçiləri Naxçıvanı tərk etmək istəmirdilər və onlar hərbi hissədə digər millətlərdən olan zabitləri də öz tərəflərinə çəkərək sonadək dayanmaq üçün təbliğat aparırdılar. Azərbaycanlı zabit və əsgərlər isə bununla razılaşmırdılar. Hərbi hissələrdə gərginlik getdikcə dözülməz həddə yaxınlaşırdı. Həmin vaxt Ukrayna prezidenti Leonid Kravçukun səlahiyyətli nümayəndəsi Rimma Miroşniçenko muxtar respublikaya gəlmişdi. O, əvvəlcə Ali Məclisin sədri Heydər Əliyevlə görüşdü. Məhz dahi şəxsiyyətin köməyi ilə ukraynalı xanımın zabit və əsgərlər qarşısında çıxış etməsi üçün komandanlığın razılığı alındı.

“Siyasi səhvə” yol verməyəcəyinə komandanlığı əmin edəndən sonra şəxsi heyət qarşısında çıxış edən Rimma Miroşniçenko nitqini bu sözlərlə bitirdi: “Cənab zabit və əsgərlər! Mən respublika prezidentinin tapşırığı ilə sizin qarşınızda çıxış edirəm. Əgər sentyabrın 1-dək Ukraynaya qayıdıb rəsmi şəkildə qeydiyyatdan keçməsəniz, doğma vətənin silahlı qüvvələrində xidməti davam etdirmək haqqında raport verməsəniz, siz ölkə vətəndaşlığından çıxarılacaqsınız. Vətən yolunuzu gözləyir!”

Təsəvvür edirsinizmi belə bir çıxış o zaman nə demək idi? Bu, şəxsi heyətinin 40 faizi ukraynalı olan, Moskvaya tabe olan sərhəd dəstəsi üçün necə böyük zərbə idi. Məhz kiyevli qonağın bu çıxışından sonra onların qarşısını kəsməyə çalışan rus hərbçilərinin artıq heç nəyə gücü çatmadı. Başa düşdülər ki, onlar da tezliklə buradan getməli olacaqlar. Sonralar bu hadisəni müzakirə edən rus hərbçilərindən biri belə demişdi: “Heydər Əliyevin rəhbərlik etdiyi yerdə belə də olmalı idi”.

**– Həmin dövrdə rus zabitləri həm sərhəd qoşunlarında, həm də orduda çox güclü təbliğat apararaq Naxçıvandan getməmək üçün güclü direniş göstərmişdilər.**

– Bəli, sovetdənqalma rus hərbçiləri, necə olursa-olsun, əmlakın, hərbi texnikanın daha çox hissəsini və ən yaxşılarını götürməyə çalışırdılar. Bu yolda onlar hər vasitəyə əl atırdılar. Bu proseslərdə qarşıdurmalar zamanı həm ulu öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti, həm də yerli hərbçilərimizin göstərdiyi qətiyyət və şücaət nəticəsində təhvil-təslim prosesi Naxçıvandakı hərbi hissələrdə, o cümlədən sərhəd dəstəsində uğurla başa çatdı.

**– SSRİ-dən qalma silah-sursatın, hərbi texnikanın tamamilə Naxçıvanda saxlanılması, əsl mənada, milliləşdirməsi Ulu öndərin Vətən qarşısında daha bir müstəsna xidməti kimi tarixə yazılıb.**

– Əlbəttə, bu danılmaz bir tarixdir. Ulu öndər Heydər Əliyevin dediyi hər bir söz, fikir faktlara, dəlillərə söykənirdi. Azərbaycanı, Naxçıvanı heç cür əldən vermək istəməyən Moskva danışıqlar aparmaq üçün muxtar respublikaya ən təcrübəli əməkdaşlarını göndərmişdi. Onlarla görüşün birinci günü Rusiya nümayəndə heyətinin tərkibindəki bir polkovnik Heydər Əliyevə şübhəli görünmüşdü. Ulu öndər məni yanına çağırıb onunla bağlı fikrimi soruşdu və aramızda qısa bir söhbət oldu. Görüşün müəyyən məqamında Heydər Əliyev özünəməxsus təmkinliklə sözə başladı: “Cənablar, başa düşürəm ki, bu, çox mürəkkəb və çətin prosesdir. Gəlin, məsələyə vicdanla yanaşaq, bir-birimizi aldatmağa çalışmayaq”.





Sonra Rusiya tərəfdən danışıqlarda iştirak edən həmin polkovniki ayağa qaldırdı və amiranə səslə dedi: “Siz, cənab zabit, DTK-nın generalı ola-ola polkovnik forması geyinərək bizi aldatmaq istəyirsiniz. Özünüzə hörmət qoymursunuz, heç olmazsa, general rütbəsinə hörmət qoyun”.

Sonra rusiyalı general otaqdan çıxarıldı. Bundan sonra danışıqlar biz istədiyimiz məcrada getdi və nəticə əldə olundu. Görüş başa çatdıqdan sonra bizim sərhəd dəstəsinin komandiri polkovnik Jukov iftixarla olunmuş generala yaxınlaşaraq demişdi: “Sizə dedim ki, Heydər Əliyevi aldatmaq mümkün deyil”.

**– Sərhəd dəstəsinin təhvil-təslim prosesi necə keçdi?**

– Ümumiyyətlə, sərhəd dəstəsinin təhvil-təslim prosesində Rusiya generalları danışıqların növbəti mərhələsinə keçməzdən əvvəl bir yerə yığışır, təxmini ortalığa çıxa biləcək sualları götür-qoy edir, müzakirələr aparırdılar. Bir sözlə, özlərini Heydər Əliyev qarşısında sınağa hazırlayırdılar. Təhvil-təslim başa çatdıqdan sonra rus zabitlərindən biri Azərbaycan nümayəndə heyətinin tərkibində olan Dövlət Sərhədi Mühafizəsi Komitəsinin rəis müavini, polkovnik Arif Əliyarova etiraf etmişdi ki, bu müzakirələr əvvəldən axıradək Heydər Əliyev istədiyi istiqamətdə gedib. Bu, Azərbaycanın dövlət müstəqilliyinin tələbi idi.

Uzun və gərgin keçən görüşlərdən sonra Naxçıvan Sərhəd Dəstəsinin təhvil-təslim prosesi başa çatdı. Heydər Əliyevin prinsipiallığı nəticəsində hərbi hissənin bütün əmlakı, texnika və sursatı ilə birlikdə Azərbaycan Respublikasının yurisdiksiyasına verilməsi haqqında sənədlər imzalandı. O sənədlərin hamısında mənim də imzam var. Sonda 41-ci Sərhəd Dəstəsinin komandiri Jukov ayağa qalxaraq məni təbrik etdi. Mən isə bizimlə üz-üzə əyləşmiş Heydər Əliyevi göstərib dedim: “Mən öz generalımın əmrini gözləyirəm”. Yalnız Ulu öndərin razılığından sonra mən Sərhəd Dəstəsinə rəisliyi qəbul etdim.

**– Sonrakı xidmət dövründə Ulu öndərlə görüşləriniz oldumu?**

– Bilirsiniz ki, 1992-ci il oktyabrın 24-də Naxçıvanda AXC-nin dəstəyi ilə dövlət çevrilişinə cəhd edildi. Həm Naxçıvan Ali Məclisinin, həm Daxili İşlər Nazirliyinin binalarının ələ keçirilə bilməməsində Sərhəd Dəstəsinin şəxsi heyətinin böyük rolu oldu. Bundan sonra prezidentin sərəncamı ilə mən vəzifəmdən azad edildim. Ulu öndər 1993-cü ilin may ayında məni yenidən Naxçıvanda Dövlət Gömrük Komitəsinin sədri vəzifəsinə təyin etdi və 7 il bu vəzifədə çalışdım. Ulu öndərimiz Heydər Əliyev Bakıya ali hakimiyyətə qayıtdıqdan sonra isə bir daha onunla görüşə bilmədim.

Sonrakı dövrdə isə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında və Fövqəladə Hallar Nazirliyində işlədim. General-mayor rütbəsini də Fövqəladə Hallar Nazirliyində aldım. Bu nazirlikdə ən önəmli işlərimdən biri də xüsusi riskli xilasetmə xidmətinin yaradılması və formalaşdırılması oldu.

Sonda onu deyim ki, məhz Heydər Əliyev kimi dahi şəxsiyyətin əvəzolunmaz xidmətləri nəticəsində Azərbaycan bütün bu çətin tarixi proseslərdən üzüağ çıxaraq öz müstəqilliyini möhkəmləndirdi. Dövlət müstəqilliyimizin əsasını təşkil edən ordu quruculuğu Naxçıvandan başlayaraq bütün Azərbaycanı əhatə etdi. Məhz bugünkü güclü ordumuzun təməli o zaman Naxçıvanda qoyuldu. Ulu öndərin yaratdığı əsaslar üzərində onun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz 3 il əvvəl 30 il işğal altında qalan torpaqlarımızı azad edərək Vətənimizin ərazi bütövlüyünü və suverenliyini təmin etdi.

Hər bir azərbaycanlı üçün bundan böyük iftixar hissi ola bilməz. Buna görə də xalqımız ulu öndər Heydər Əliyevi daim böyük qürur və ehtiram hissi ilə anır.

**– Maraqlı söhbət üçün sağ olun.**

***Söhbəti hazırladı:***
***H.SƏBUHİ***
***XQ***

**Naxçıvan**

# Ulu öndərin xatirəsinə dərin ehtiramla

**Ümummilli lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla öz gələcəyinə doğru inamla addımlayır.**



Bu fikirlər Kürdəmirdə Heydər Əliyev Mərkəzində Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş tədbirdə YAP rayon təşkilatının sədri Ayaz Cəbrayılovun giriş məruzəsində səslənib.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov çıxışında bildirib ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin inkişaf strategiyasını müəyyənləşdirib və onun həyata keçirilməsi üçün mühüm addımlar atıb. Onun rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini təmin edib.

Ümummilli liderimizin layiqli davamçısı olan Prezident İlham Əliyevin 2003-cü ildə ölkə başçısı seçilməsindən sonra keyfiyyətcə yeni mərhələ başlanıb, tarixi nailiyyətlərə imza atılıb, xalq-iqtidar birliyi daha da möhkəmlənib.

YAP İdarə Heyətinin üzvü, professor Amin İsmayılov, YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov öz çıxışlarında Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs ediblər.

Şəhid anası Müşgünaz Həziyeva, partiya fəalı Şəfəq Ağayeva isə çıxışlarında qeyd ediblər ki, Ulu öndər xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb.

Daha sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar və YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

***İlqar HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

# “Diplomatiya aləmi” jurnalının yubiley buraxılışı

**Azərbaycan Xarici İşlər Nazirliyinin “Diplomatiya aləmi” jurnalının 59-cu xüsusi buraxılışı işıq üzü görüb. Jurnalın budəfəki xüsusi buraxılışı ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.**




Prezident İlham Əliyevin 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamı ilə başlayan xüsusi buraxılışda, həmçinin ölkəmizin bir sıra dövlət rəsmilərinin, o cümlədən xarici işlər naziri Ceyhun Bayramovun, ədliyyə naziri Fikrət Məmmədovun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının, Dövlət Neft Şirkətinin (SOCAR) sabiq birinci vitse-prezidenti, mərhum Xoşbəxt Yusifzadənin, Milli Məclisin üzvü Musa Qasımlının, habelə Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun baş direktoru Nazim Müzəffərlinin (İmanov) məqalələri dərc olunub.

Xüsusi buraxılışda, eyni zamanda, xarici ölkələrin bir sıra dövlət xadimlərinin, o cümlədən Moldovanın keçmiş prezidenti Petru Luçinskinin, Gürcüstanın xarici işlər nazirinin birinci müavini Laşa Darsalianın, keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının son xarici işlər naziri Budimir Lonçarın, Ankara Universitetinin rektoru Necdet Ünüvarın, Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenovun və digərlərinin ulu öndər Heydər Əliyevlə bağlı xatirələrinin əks olunduğu müsahibə, məqalə və çıxışlar əksini tapıb.

***XQ***

# Sərhəddə birbaşa təmas və sülhün risk amili

## İrəvanın manipulyasiyaları 30 noyabr görüşünə əngəl törədə bilərmi?

**Noyabrın 30-da Azərbaycan və Ermənistanın sərhəd demarkasiyası komissiyalarının üzvləri dövlət sərhədində görüşəcəklər. Hər halda, bununla bağlı müəyyən razılaşma var. Sözügedən qurumlara isə Azərbaycanın və Ermənistanın baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mher Qriqoryan rəhbərlik edirlər və onlar əvvəllər danışıqlar aparıblar. Deməli, bu sahədə müəyyən təcrübələri var.**



Adlandırma şərti görünə bilər. Qeyd edək ki, Ermənistan tərəfdən Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Dövlət Sərhədinin Demarkasiyası və Sərhəd Təhlükəsizliyi üzrə Komissiyanın, Azərbaycan tərəfdən isə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında Dövlət Sərhədinin Demarkasiyası üzrə Dövlət Komissiyasının formalaşdırılmasının özü vacibdir. Əslində, prinsipcə hər iki qurum böyük tarixi missiya naminə yaradılıb. Əlbəttə, missiya o zaman reallaşacaq ki, onların fəaliyyətləri səmərəli olsun. Bu isə ilk növbədə noyabrın 30-dakı görüşün baş tutmasından asılıdır. Bəs, görüşün keçiriləcəyinə skeptik yanaşma nədən irəli gəlir? Yazımızın sonunda bu sualın cavabını mövzu üzrə apardığımız paralellər və gətirdiyimiz arqumentlər nəticəsində gələcəyimiz qənaətə əsasən verəcəyik.

Hələlik onu bildirək ki, Azərbaycan – Ermənistan arasında danışıqlar aylardır dalana dirənib. Noyabrın 30-dakı görüşün baş tutması, bütövlükdə, bu prosesin yenidən işə düşməsi kimi qiymətləndirilə bilər. Qeyd edək ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bir neçə gün əvvəl yaydığı açıqlamada Ermənistana birbaşa, o cümlədən dövlət sərhədində danışıqlar aparmağı təklif etmişdi. Buna cavab olaraq rəsmi İrəvan yalnız sərhəd demarkasiyası komissiyalarının iclasının keçirilməsini məqbul saymışdı.

Yəni, əslində, birmənalı şəkildə demək olmaz ki, noyabrın 30-dakı görüş Bakının təklifinin qəbuludur. Elə Ermənistan rəsmiləri də, demək olar, bütün açıqlamalarında sərhəd demarkasiya komissiyalarının fəaliyyətini ümumi nizamlama prosesindən kənar tutmağa çalışırlar. Ancaq bu yanaşmada da şübhəli məqamlar var. Yazımızda, həmçinin həmin məqamlara diqqət yetirəcək və Ermənistanın niyyətinə aydınlıq gətirməyə çalışacağıq.

Əlbəttə, sərhəd komissiyalarının qarşılıqlı fəaliyyətinin əhəmiyyətini kiçiltmək olmaz. Çünki, ümumən Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanmasında sərhəd mübahisəsi, kifayət qədər, ciddi anlam daşımaqdadır. Mövcud istiqamətdə irəliləyişə nail olunması münasibətlərin tənzimlənməsi baxımından vacibdir. Yəni, birinci ikincinin səmərəliliyinə müsbət təsir göstərəcək amil rolunda çıxış edə bilər.

Bu yerdə bir haşiyə çıxaq ki, Rusiya tərəfi hər zaman sərhədlərin demarkasiyası işində Azərbaycana və Ermənistana kömək göstərməyə hazır olduğunu vurğulayır. Ermənistanda isə hesab edirlər ki, Moskvanın bu niyyəti sərhəddə rus qoşunlarını yerləşdirməyə hesablanıb. Yəni, Moskva vasitəçilik edirsə, öz xeyrini güdür, – kimi fikirlər irəli sürülür. Bəs, Qərb elə deyilmi? Elədir və hazırda Ermənistan sərhəd danışıqlarında da Qərb faktorunu qabardır. Nəyə görə?

Əlbəttə, Bakı-İrəvan birbaşa təması hələ o demək deyil ki, ikinci mövcud müstəvidə manipulyasiyalara yol vermək niyyətindən uzaqdır. Məsələn, erməni hakim siyasi dairələri 2022-ci il sentyabrın 12-13-də Azərbaycanın, guya Ermənistana qarşı hərbi təcavüzə yol verdiyini qabardır, ölkəmizin 150-200 kvadratkilometr ərazini işğal etdiyini vurğulayırlar. Bu baxımdan daha "irəli" gedənlər də var. Onlar Laçın-Xankəndi yolunun başlanğıcında Həkəri çayı üzərində sərhəd nəzarət-buraxılış məntəqəsini qurmağımızı da qeyri-qanuni addım kimi qələmə verirlər. Deməli, manipulyasiyaların ilkin əlamətləri var. Ermənistanda, eyni zamanda, Rusiyanın Azərbaycanın köməyi ilə ortaya öz iddiasını qoyacağını vurğulayanların aktivləşdiklərini də söyləmək mümkündür.

Bəli, noyabrın 30-dakı görüş İrəvan üçün Rusiyanın demarkasiya prosesindən sıxışdırılması mahiyyəti daşımaqdadır. Yəni, Nikol Paşinyan administrasiyası Azərbaycanın birbaşa təmas təklifini məhz mövcud xüsusda dəyərləndirmək niyyəti güdür. Moskvanın uzaqlaşdırılması ilə paralel şəkildə onun yerini Qərb təşəbbüsləri ilə doldurmaq istəkləri önə çəkilir. Haqqında az əvvəl söz açdığımız Qərb faktorunun qabardılması da elə budur. Çox güman ki, qarşıdakı müddətdə qeyd etdiyimiz məqam özünü daha açıq formada göstərəcək. İrəvanın həmin vaxtadək fərqli spekulyasiyalara baş vuracağını proqnozlaşdırmaq mümkündür. Həm də ona görə mümkündür ki, erməni hakim siyasi dairələrində Azərbaycanla sülh prosesinə ABŞ və Avropa İttifaqının dəstəyi kazusu aktuallığını qorumaqdadır və bu kazusun birbaşa sərhəd müstəvisinə gətiriləcəyini ehtimal etmək mümkündür. Hələ noyabrın 30-na günlər var…

Onu da nəzərə alaq ki, Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Aİ-nin mülki müşahidə missiyası keşik çəkməkdədir. Qərb özünün ənənəvi sırımaq metodu ilə onları da sərhəd danışıqlarına cəlb edərək, prosesə dəstək göstərdikləri görüntüsünü formalaşdıra bilər. Yəni, beləliklə Kremlə qıcıq verilməsi mümkündür. Buna görə müstəqil siyasi xətt yeridən Azərbaycan üçün vacib vəzifə təklif etdiyi birbaşa təmas məntiqindən kənar təsirləri uzaqlaşdırmaq olacaq. Nəzərə alaq ki, Ermənistanda Bakı və İrəvan arasında sərhəd məsələlərində ikitərəfli formatda razılaşmaların olacağı təqdirdə, Qərbin vasitəçiliyilə sülh müqaviləsinin imzalanmasının sadəcə texniki məsələyə çevriləcəyini düşünənlər var.

Prinsip etibarilə, noyabrın 30-da keçiriləcək görüşdə başlıca müzakirə predmeti sərhədlərin müəyyənləşdirilməsi üçün lazım olan xəritələrin müzakirəsi ola bilər. Burada maraqlı məqam isə ondadır ki, İrəvanda mövcud xüsusda Brüssel formatı çərçivəsində əldə edilmiş razılaşmalara köklənirlər. Məlum olduğu kimi, bu formatda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü tanıyıblar. Tanınmada 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsas götürülüb. Məsələyə mövcud kontekstdən yanaşsaq, demarkasiyanın əsasını da SSRİ-nin son xəritələri təşkil etməlidir.

Burada problemli məqam Ermənistanın SSRİ Baş Qərargahının 1975-ci xəritəsinə üstünlük verməsidir. Nəyə görə məhz bu xəritə? Ona görə ki, İrəvan Brüssel formatı kontekstində həmin ilə aid xəritəni gündəmə gətirmək yolu tutur? Təsəvvür edin, Paşinyanın və komandasının istinad etdiyi 1975-ci il xəritəsi SSRİ-nindir, dövlətin varisi Rusiyadır, ancaq ölkə tənzimləmədən uzaq tutulur, əvəzində erməni siyasi dairələri bildirirlər ki, sərhəd müstəvisində yarana biləcək mübahisələri tənzimləmək üçün avropalı ekspertlərə ehtiyac var. Çox güman, məsələdəki məntiqsizliyin fərqinə vardınız.

Əlbəttə, söhbət heç də ondan getmir ki, sərhəd məsələsində mütləq Rusiya da iştirak etməlidir. Sadəcə, nə üçün avropalı ekspertlər olmalıdır, anlaşılmaz olan budur. Üstəlik, 1975-ci il xəritəsi varsa, ATƏT-in 2017-ci il təlimatına söykənərək oradakı demarkasiya prinsiplərindən yararlanmaq nəyə lazımdır? Axı Azərbaycanla Ermənistan arasındakı durumda spesifiklik var. Yəni vahid ölçü meyarı yoxdur və məsələyə bu baxımdan yanaşsaq, 1975-ci il xəritəsinin gündəmə gətirilməsinin özü də yerinə düşmür.

Əsas olan səmimi anlaşma mühitinin formalaşmasıdır və bu mühitdə əsl həqiqətləri görmək elə də çətin deyil. Ermənistan həqiqətləri görüb, reallığı qəbul edirmi, bunu demək çox çətindir. Ölkənin xarici işlər nazirinin müavini Mnatsakan Safaryanın açıqlaması da fikrimizin təsdiqidir. O deyib ki, Bakı ilə danışıqlarda vasitəçilərin iştirakını tələb edən məsələlər var. Doğrudur, Safaryan bu fikirlərini Azərbaycan və Ermənistan liderlərinin vasitəçilərsiz görüşü ilə bağlı açıqlayıb. Ancaq həm bu açıqlamanı, həm də əvvəl bildirdiklərimizi bir araya gətirsək, yenə birbaşa təmas məsələsində skeptiklik yaranır. Çünki erməni XİN rəhbərinin müavini bildirir: "Biz dəfələrlə demişik ki, müzakirələr zamanı vasitəçilərin iştirakı məcburi olan məsələlər var. Elə məsələlər var ki, orada vasitəçilərin iştirakı çox mühüm rol oynayır. Bunlar, məsələn, Qarabağın məcburi köçkün əhalisinin hüquqları ilə bağlı məsələlərdir. Bu məsələdə Ermənistan tərəfi beynəlxalq mexanizmlərin zəruriliyini vurğulayır. Zəmanətlərin çox vacib olduğu başqa məsələlər də var".

Ermənistanın Qarabağ müstəvisindəki manipulyasiyalarından, bu sayaq halların – bölgə ermənilərinin ayrıca təbəqə kimi göstərilməsinin, onlar üçün hüquq və təhlükəsizliklə bağlı beynəlxalq təminatlar gündəliyinin, ümumən Qarabağ avantürasının davamına xidmət etməsindən xəbərdarıq. Mövzumuz bu olmadığından, üzərində geniş dayanmırıq. Heç şübhəsiz, İrəvan Safaryanın dediyi kimi, zəmanətlərin çox vacib olduğu digər məsələlərə sərhəd məsələsini də daxil edəcək. Bu isə nəticə etibarilə birbaşa təmas məntiqindən uzaq durumdur. Onu da nəzərə alaq ki, Azərbaycan XİN-in birbaşa danışıqlar məntiqi yalnız sərhəd məsələlərinin tənzimləməsinə hesablanmırdı, hazırda dalana dirənmiş danışıqlar prosesini bütövlükdə əhatə edirdi.

**B**əli, yuxarıda vurğuladıqlarımız yekunda onu deməyə əsas verir ki, ümumi danışıqlar baxımından ölkəmizin irəli sürdüyü birbaşa təmas təklifinin yalnız sərhədlərin müəyyənləşdirilməsi hissəsinə reaksiya verən Ermənistan mahiyyətcə özünü dünyaya konstruktiv göstərmək yolunu tutur. Yəni Azərbaycan XİN açıqlamasında məsələni kifayət qədər konkret qoydu. İrəvan və havadarları yaxşı başa düşdülər ki, bu konkretliyə reaksiya verməsələr, məsələ qeyri-konstruktuvlik kimi qiymətləndiriləcək. Ona görə sərhəd müzakirəsini kontekstdən çıxardılar, müsbət yanaşdılar. Bu yolla dünya birliyinə mütərəqqi mesaj yolladılar. İndi XİN rəhbərinin müavini Safaryanın şəxsində ifadə etdilər ki, ümumən danışıqlarda vasitəçilik olmalıdır, guya, bu vacibdir filan. Yuxarıda vurğuladığımız məqamlara əsasən isə deyə bilərik ki, Ermənistan qarşıdakı müddətdə sərhəd danışıqlarına da Qərbi daxil etmək fikrini gündəmə gətirəcək. Noyabrın 30-da nəzərdə tutulan görüşün baş tutmama riskini doğuran da elə budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# SPECA – Azərbaycan: ortaq uğur formulu

## *Prezident İlham Əliyevin yeni mesajları*

**(əvvəli 1-ci səhifədə)**

Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur".

**İkinci məqam** Azərbaycanın beynəlxalq miqyasdakı nailiyyətlərinin təməlindəki amillərlə bağlıdır. Dövlətimiz istər ulu öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin rəhbərliyi dövründə uzaqgörən, proqmatik, ardıcıl və rasional siyasət kursu həyata keçirib. Ölkəmiz bu siyasət nəticəsində dünya birliyinin tamhüquqlu üzvü kimi özünü təsdiqləyib. Əlbəttə, gedilən yol heç də asan olmayıb. Respublikamız müxtəlif təzyiqlərlə üzləşib, çətinliklərə və məhrumiyyətlərə sinə gərib. Ən əsası isə Azərbaycan hər zaman müstəqil xarici siyasət kursuna sadiqlik göstərib. Bu dəst-xətt beynəlxalq miqyasda ölkəmizə inam və etibar qazandırıb. Ona görə Prezident İlham Əliyev çıxışında məhz müstəqillik amili üzərində xüsusi dayanıb. Dövlətimizin başçısının mövzunu müstəqil siyasət yürütməyi bacarmayan ölkə kimi Ermənistanın üzərinə gətirməsində də qanunauyğunluq və məntiq var. Çünki biz məhz Ermənistanın timsalında faktiki müstəqilliyə malik olmayan dövlətin götürdüyü "dəst-xəttin" firavanlığa, əmin-amanlığa, insan rifahına, ümumən bəşəri prinsip və dəyərlərə qarşı yönəldiyinin şahidi olmuş, erməni işğalına məruz qalaraq illərlə çiyinlərimizdə bu durumun ağırlığını daşımışıq.

Prezident İlham Əliyevin diqqətə çatdıracağımız bu fikirləri isə əslində, belə xoşagəlməz halın bir daha təkrarlanmaması üçün dərin müqavimətdir: "Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar".

**Üçüncü məqam** əvvəlkilərin davamıdır. Yəni, Prezident İlham Əliyev keçmişin dərslərini yada salaraq, bugünkü Azərbaycanın inkişaf trayektoriyasındakı nəhəngliyi vurğulayır. Dövlətimizin başçısı çətinlik və məhrumiyyətlərlə dolu qeyri-sabitlik illərinin işğal aqibətindən tutmuş ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasınadək olan mərhələnin qısa, ancaq dolğun təsvirini cızır. Bu təsvirdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlının öz dədə-baba yurdlarından qovulması da var, otuz ilə yaxın aparılan Qarabağ danışıqlarının faydasızlığının və nəticəsizliyinin vurğulanması da, Ermənistanın işğalçılıq niyyətinin davamında israrlı olması da. "2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi", – deyən dövlətimizin başçısının ölkəmizin 44 günlük müharibədəki Qələbəsindən söz açmasındakı başlıca məqsəd işğala son qoyulduğunu vurğulamaqdır. O işğal ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsində əksini tapmış və həmin qətnamələrin icrası 27 il kağız üzərində qalmışdı. Deməli, Azərbaycanın Zəfəri həm də beynəlxalq ədalətin təminatına töhfədir. Prezident İlham Əliyevin üzərində dayandığı ən başlıca məqam da elə budur.

**Dördüncü məqam.** Lakin 44 günlük müharibədən sonra da Ermənistan iddiasından daşınmadı. Bu, onun müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırmasında özünü göstərdi. Halbuki, Azərbaycanın gözləntiləri başqa idi və xoş niyyətini İrəvana sülh əlini uzadaraq ifadə etmişdi. Müstəqil xarici siyasət yürütməyən, dövlətimizin başçısının da vurğuladığı kimi, "özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən" Ermənistan buna qarşılıq adekvat addım atmadı: "Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar. Buna cavab olaraq və "boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik".

**Beşinci məqam.** Bəli, bu il sentyabrın 19-da başlanılmış və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli uğurlu antiterror tədbirləri respublikamıza bütün ərazilərində suveren hüquqlarını bərpa imkanı qazandırdı. Prezident İlham Əliyevin bu barədə söz açarkən, Xocalının üzərində dayanmasında isə xüsusi rəmzi məna var. Çünki Xocalı xalqımızın qan yaddaşıdır, ümumən, azərbaycanlıların tarixin bütün dövrlərində məruz qaldıqları soyqırımı siyasətinin müasir təzahür formasıdır. Bu, elə bir təzahür formasıdır ki, illərlə özünü ölkəmizin ərazisindəki separatçılıq kimi qorxunc və təhdidedici mahiyyətlə göstərmişdi. Ona görə tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələr təşəkkürə layiqdir. Çünki onlar təkcə Azərbaycanın uğuruna deyil, həm də haqq və ədalətin təntənəsinə seviniblər.

**Altıncı məqam.** Ölkəmizin uğuruna sevinənlər bu gün də yanımızdadırlar və onlar Qarabağın, ümumən işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması prosesinə töhfələrini verməkdədirlər. "Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq", – deyərək, Zirvə görüşünün iştirakçılarını məlumatlandıran Prezident İlham Əliyevin bu ilin avqustunda Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin açılışını, Qazaxıstanın hədiyyəsi olan Füzulidəki Kurmanqazı adına yaradıcılıq mərkəzinin inşasının davam etdiyini vurğulamasında və bu ölkələrin dövlət başçılarına təşəkkürünü bildirməsində də böyük rəmzi məna var.

Sonda bir məqama yenidən qayıdaraq bildiririk ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü ilk təşəbbüs idi. O da məlumdur ki, hazırda SPECA-ya Azərbaycan sədrlik edir. Ölkəmizin bütün beynəlxalq strukturlara rəhbərliyi isə özünü əməli tədbirlərdə, gerçək təşəbbüslərdə göstərməkdədir. Buna misal olaraq respublikamızın Qoşulmama Hərəkatına uğurlu sədrliyini diqqətə çatdırmaq yerinə düşər. Heç şübhəsiz, SPECA müstəvisindəki öncüllük də əlamətdar olacaq. Çünki "Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq", – deyən Azərbaycan Prezidenti əminlik yaradır. Əminlik ona görə var ki, Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkanda yerləşir, digər yandan isə bu məkanın əhəmiyyəti BMT-nin vacib təsisatı müstəvisində, yəni SPECA çərçivəsində vurğulanır. Deməli, qarşıda duran başlıca vəzifələrdən biri başlanılmış yolun qətiyyətli şəkildə davam etdirilməsidir. Azərbaycan sədr ölkə olaraq bu istiqamətdə də özünün əməli töhfəsini verməkdədir. Söhbət respublikamızın BMT-nin himayəsi altında təsis edilmiş SPECA Etimad Fonduna 3,5 milyon ABŞ dolları məbləğində vəsait ayırmasından gedir. Heç şübhəsiz, belə əməli nümunələr gələcəkdə də davamını tapacaq və ölkəmiz bu müstəvini də özünün uğur formulunun paylaşım platformasına çevirəcəkdir. Prezident İlham Əliyevin çıxışı bununla bağlı dərin əminlik hissi yaradır.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Avropada neofaşistlərin addım səsləri eşidilir

## “Qoca qitə”də ultrasağçılar, millətçilər və islamofoblar hakimiyyət olimpinə yüksəlirlər




**(əvvəli 1-ci səhifədə)**

Bir sıra ekspertlər seçkinin nəticəsini “siyasi zəlzələ” adlandırırlar. Onlar qeyd edirlər ki, 2021-ci ildə keçirilən seçkidə 17 mandat qazanmış Azadlıq Partiyasının növbədənkənar seçkidə mandatların sayını iki dəfədən çox artırması Avropada millətçiliyin, islamofobiyanın, miqrantlara münasibətdə dözümsüzlüyün artmasından və ölkənin Avropa İttifaqından (Aİ) çıxmaq istəyindən xəbər verir. Çünki Aİ-nin gələcəyinə şübhə ilə yanaşmaq (avroskeptisizm) Azadlıq Partiyasının ideologiyasıdır. Partiyanın sədri Gert Vilders vaxtaşırı Avropa İttifaqını tənqid edir, Niderlandın sərhədlərinə nəzarət etməyə, ittifaqa ödənişləri əhəmiyyətli dərəcədə azaltmağa və yeni üzvlərin daxil olmasına qadağa qoymağa çağırır. Vilders “Nekzit”in, yəni Niderlandın Aİ-dən çıxmasının (“Brekzit”in analoqu–S.H.) ideoloqudur. Qərb mediası yazır ki, Vildersin hakimiyyətə gəlməsi ilə Avropa Parlamentində sağçı siyasətçilərin koalisiyası güclənəcək və Aİ-nin gündəliyi ciddi şəkildə dəyişə bilər. Bu baxımdan ifrat sağçıların qələbəsinin sağa dönüş olduğu və Brüsseli də təşvişə saldığı bildirilir.

Ancaq G.Vildersin Aİ-dən çıxmaq istəyi daha çox Brüsselin problemi hesab oluna bilər. Onun siyasi baxışlarında bizim diqqətimizi daha çox cəlb edən anti-İslamçı, həmçinin daha sərt miqrasiya siyasətinin tərəfdarı olmasıdır. Miqrasiya əleyhinə çıxışlarına görə Vildersi tez-tez ABŞ-ın keçmiş prezidenti Donald Trampla müqayisə edirlər. Onun həmfikirləri arasında Fransa Milli Birlik Partiyasının lideri Marin Le Pen də var. Mədəni millətçilik, sağ populizm, milli liberalizm, avroskeptisizm, islamofobiya G.Vildersin başçılıq etdiyi partiyanın rəsmi ideologiyasıdır.

Buna baxmayaraq, Vilders özünü azad iradə ideologiyasının (libertarianizm) nümayəndəsi kimi təqdim etməyi xoşlayır. Ancaq çoxları onu ifrat sağçı faşistlərlə assosiasiya edir. Solçu rəqibləri və müsəlmanlar onu sağçı ekstremist adlandırırlar. Vilders özü belə müqayisələrə qəti etiraz edir: “Mənim müttəfiqlərim Le Pen və ya Hayder deyil. Biz heç vaxt faşistlərlə müttəfiq olmayacağıq”. Qeyd edək ki, Vilders bu zaman fransız Marin Le Peni və avstriyalı sağçı radikal siyasətçi Yorq Hayderi nəzərdə tutur.

Vilders Yaxın Şərqdəki münaqişədə İsrailin tərəfdarıdır və iki il həmin ölkədə yaşayıb. O, hesab edir ki, İsrail “İslam təhlükəsi”nə qarşı Qərbin ilk müdafiə xəttidir. Vilders Fələstin probleminin həllində İsrailin hər hansı güzəştə getməsini rədd edir və yeganə “düzgün” həll yolunu İordaniyanın adının Fələstinə dəyişdirilməsində və bütün fələstinlilərin ora yerləşdirilməsində görür. Siyasətçi 2012-ci ilin yanvarında Niderland hökumətini İkinci dünya müharibəsi zamanı nasist işğalçıları tərəfindən yəhudilərin kütləvi deportasiyasına passiv reaksiyasına görə üzr istəməyə çağırmışdı.

Partiya sədri sərt anti-İslam ritorikası sayəsində geniş populyarlıq qazanıb. O, İslamı sərt tənqid etməsi və müsəlmanların Niderlanda miqrasiyasını qadağan etmək təklifi ilə də tanınır. O deyir: “Bu təklif ona görə deyil ki, müsəlmanlar pis insanlardır. Sadəcə, xristian və yəhudi dəyərlərinə əsaslanan mədəni irsimiz və cəmiyyətimiz İslam cəmiyyətindən daha yaxşıdır. Biz miqrasiyanı dayandırmasaq, Avropanı itirəcəyimizə inanırıq”. Vilders məscidlərə və “Quran”a qadağa qoymaq, eləcə də hökumət binalarında hicab taxmağı qadağan etmək istəyir.

O, digər açıqlamalarında daha irəli gedərək İslam dini və Allahın rəsulu (s.) ilə bağlı xoşagəlməz ifadələr işlədib. Özü faşist düşüncəsində olmasına baxmayaraq, İslamı nasizmə bənzədib, müqəddəs “Quran”ın surələrini Adolf Hitlerin “Mənim mübarizəm” əsərindən parçalarla müqayisə edib. İndi belə bir siyasi baxışlara malik şəxsin quracağı hökumətin hansı siyasəti yürüdəcəyini təsəvvür etmək çətin deyil.

Onu da bildirək ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra ölkəmiz Avropanın bəzi ölkələrində olduğu kimi, erməni diasporu və lobbisinin təsiri altında Niderland parlamentində də islamofob, ultrasağçı və millətçi qüvvələrin hədəfinə çevrilmişdir. Müharibənin başa çatmasından sonrakı ilk günlərdə parlamentdə Azərbaycan və Türkiyə əleyhinə bir sıra qətnamə qəbul olunması barədə təşəbbüslər irəli sürülmüşdür. Qardaş Türkiyə və Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, keçmiş qondarma rejimin tanınması, uydurma “suriyalı terrorçular” məsələsinin araşdırılması və sair cəfəng çağırışlar edən həmin layihələrin müəllifləri Martin van Helvert (Xristian Demokratik Çağırış Partiyası), Joel Voordevind (Xristian İttifaqı Partiyası) və Sven Koopmans (Vildersin rəhbərlik etdiyi Azadlıq Partiyasının deputatı) idi. Onların səyləri ilə 2020-ci il noyabrın 17-də Niderland parlamenti tərəfindən Azərbaycan və Türkiyə əleyhinə bir neçə qətnamə qəbul olunmuşdur.

2020-ci il noyabrın 18-də Prezident İlham Əliyev Niderlandın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edərkən Niderland parlamentinin təxribatçı qətnamələrinə kəskin münasibətini onun diqqətinə çatdırmışdır. Dövlətimizin başçısı parlamentdəki müzakirələr zamanı Niderland XİN rəhbəri Stef Blokun balanslaşdırılmış yanaşma ilə çıxış etməsini təqdir etsə də, ümumilikdə, belə ədalətsiz qərarların ölkələrimiz arasında yaxın əlaqələrin qurulmasına kömək etməyəcəyini xüsusilə vurğulamışdır.

Göründüyü kimi, G.Vildersin və onun Azadlıq Partiyasının parlament seçkilərində qalib gəlməsi ölkəmiz üçün də yaxşı heç nə vəd etmir. Hələlik, yeganə müsbət cəhət odur ki, Vildersin rəhbərlik etdiyi partiya seçkidə qalib gəlsə də, mütləq çoxluq qazana bilməyib. O, koalisiya qurmaq üçün sonrakı yerləri tutan partiyalarla danışıqlar aparmalıdır. Ancaq G.Vildersin hökumət koalisiyası qurmağa nail olacağı sual altındadır. Çünki digər üç partiyanın lideri Azadlıq Partiyası ilə koalisiyada iştirak etməyəcəklərini bildiriblər. Onların öz mövqeyini dəyişib-dəyişməyəcəyini isə qarşıdakı günlər göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

– Qərb ölkələrinin daxili siyasətində radikalizm, ultrasağçılıq, millətçilik, islamofobiya, etnik dözümsüzlük və digər təzahürlər getdikcə özünü daha qabarıq şəkildə göstərməkdədir. Bu cür neqativ halların çoxalması həmin ölkələrdə cəmiyyətlərin dəyərlərini getdikcə itirməsinin nəticəsidir. Zənnimcə, bu da təsadüfi deyil. Qərb ölkələrinin dünyanın müxtəlif yerlərində apardıqları müstəmləkəçilik, haqsızlıq, ədalətsizlik, beynəlxalq hüquq normalarından uzaq, ikili standartlar siyasəti son nəticədə həmin bölgələrdə bu dövlətlərin siyasətinin ifşasına gətirib çıxarır. Avropa ölkələrinin apardıqları ikili standartlar siyasəti müsəlman ölkələrində milli azadlıq, etiraz hərəkatlarının baş qaldırmasına səbəb olur. Nəticədə yaranmış kataklizmlərdən qaçmaq üçün insanların bir qismi Avropa ölkələrinə axın edir.

Halbuki, miqrantların “qoca qitə”yə axınının əsas səbəbi elə Avropa ölkələrinin apardıqları siyasətlə bağlıdır. Ancaq Avropa ölkələri özlərində heç bir təqsir görmürlər və miqrantlara qarşı qərəzli siyasət aparmağa başlayırlar. Bütün bunlar “qoca qitə” ölkələrində tolerantlıq adlanan dəyərin kökünü baltalamağa başlayır. Nəticədə Avropa ölkələrində cəmiyyətlər parçalanır. Cəmiyyətlər təkcə siyasi nöqteyi-nəzərdən bir-birinə qarşı dayanmır, eyni zamanda, milli əlamətlərə, dini fərqlərə görə qitədə əsl vətəndaş qarşıdurması yaşanır. Aydındır ki, bu da siyasi qüvvələrin platformasına təsir göstərir.

Təsadüfi deyil ki, xüsusilə son 10-15 il ərzində Avropa ölkələrində islamofob, ultrasağ, radikal xristianlıq və digər cərəyanlara söykənən siyasi partiyaların nəinki təsiri və gücü artır, eyni zamanda, onlar sürətlə siyasi hakimiyyət olimpinə yüksəlirlər. Məsələn, Fransa illərdir ki, radikal sağçı-millətçi qüvvələr tərəfindən idarə olunur. Son vaxtlar İrlaniyada ultrasağ, millətçi qüvvələrin hakimiyyətə gəlməsi buna sübutdur. Əlbəttə, bu isə təkcə həmin ölkələr üçün deyil, bütün dünya üçün çox təhlükəlidir. Nəzərə almaq lazımdır ki, İkinci dünya müharibəsi də Almaniyada, o cümlədən digər Avropa ölkələrində radikal, qisasçı, millətçi, radikal dairələrin hakimiyyətə gəlməsi nəticəsində başlamışdı.

# İrəvan üçün “siçan tələsi”

## Hayastan baş naziri yenə təminatı bölgədən kənarda axtarır

**Paşinyan yenə nala-mıxa vurur. Bakının təklifi şəffaf və konkretdir: birbaşa dialoqun məkanı ya Tbilisi, ya da iki ölkənin sərhədi ola bilər. Rəsmi İrəvan isə sözdə razılıq bildirməsinə baxmayaraq, əməldə ən müxtəlif bəhanələrlə yenə ikitərəfli görüşdən və deməli, sülh müqaviləsinin imzalanmasından yayınmaq yolunu tutub. Paşinyan iqtidarının bu ikibaşlı və nataraz siyasəti erməni cəmiyyətinin özündə də birmənalı qəbul edilmir. Mövcud vəziyyətdə Bakı ilə sülh dialoquna getməyin vacibliyindən danışan, bu şansdan istifadə etməməyin acı nəticələrini proqnozlaşdıran erməni politoloqların, ekspertlərin, blogerlərin səsi daha ucadan eşidilməkdədir.**



### Sərhəddə danışaq, amma sülhdən yox?

Nəzərə alsaq ki, Bakı sülh danışıqlarının Brüssel və Vaşinqton formatlarından imtina edib, İrəvan isə, öz növbəsində, təkcə Moskva platformasından deyil, artıq məlum olduğu kimi, Azərbaycanla vasitəçilərsiz birbaşa dialoqdan da yayınır, onda vəziyyətin dalana dirəndiyini söyləyə bilərik. Bu dalanı yaradan əsas səbəb Ermənistan tərəfinin sülh sazişinin mətninə inadkarcasına Qarabağ ermənilərinin məsələsini daxil etməyə cəhd göstərməsidir. Azərbaycanın Qarabağı könüllü tərk etmiş etnik ermənilərlə bağlı məsələnin sülh danışıqlarının predmetinə çevrilməsinə qarşı olduğunu bilən rəsmi İrəvanın bu cəhdi dalanı daha da keçilməz edir. Ermənistan hakimiyyəti bu zaman Qərbi Azərbaycandan qovulmuş etnik azərbaycanlıların geri qayıtmaq hüququnu müzakirə etməkdən hər vasitə ilə qaçır.

Maraqlıdır ki, Ermənistan hakimiyyəti sərhədin demarkasiyası ilə bağlı iki ölkənin Baş nazirlərinin müavinlərinin şərti sərhədin adı çəkilməyən yerində görüşünə razılığını bildirir, amma xarici işlər nazirlərinin neytral məkanda təmaslarını məqbul saymır. Axı siyasətdən uzaq adama da gün kimi aydındır ki, demarkasiya, delimitasiya məsələləri sülh sazişinin mətnində yer alacağından bu proses paralel aparılmalıdır. Əgər sərhədin müəyyənləşdirilməsi sülh sazişinin əsas şərtlərindən biridirsə, bu halda iki məsələ ayrı-ayrılıqda müzakirə oluna bilməz.

Bakının sülh danışıqlarını kənarda deyil, bölgədə, həm də vasitəçilərsiz aparmaq təklifinə İrəvanın isti yanaşmamasına erməni politoloqlar mövqe bildiriblər. Onların çoxu bunun “zamin” məsələsi ilə bağlı olduğunu iddia edirlər. Yəni Ermənistan imzalanacaq sülh sazişinə üçüncü tərəfin “zamin durmamasından” və yaxud “zaminin kimliyindən” çox narahatdır. Sosial şəbəkədə “siyasi strateq” kimi təqdim edilən Vigen Akopyan yazır ki, Ermənistan məhz bu səbəbdən “Qərb platformasını” təklif edir, Azərbaycan isə Ermənistana “istədiyi vaxt təzyiq göstərmək üçün” bu platformanı danışıqlar üçün məqbul saymır və Brüsselə getmir. Fəqət Ermənistanın “zamini” niyə bu ölkədə güc strukturu, hərbi bazası olmayan Qərbdə axtardığı sualına “siyasi strateq” cavab verə bilməyib.

Onu da xatırladaq ki, münaqişənin “tet-a-tet” müzakirəsi təşəbbüsünü 2001-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev irəli sürmüş və belə bir görüş Naxçıvanla Ermənistanın sərhədində, Sədərəkdə baş tutmuşdu. Tərəflər arasında birinci və sonuncu olan birbaşa dialoqun o zaman davam etməməsinin səbəbi hər kəsə bəllidir. Moskva onun “nəzarət zonasından” kənara çıxan prosesin qarşısını dərhal almışdı.

### “İrəvan təngnəfəs olacaq”

Hadisələrə ayıq başla yanaşan erməni ekspertlərin bəziləri İrəvanın sonda Bakının təklifi ilə razılaşmaq məcburiyyətində qalacağını istisna etmirlər. Politoloq Tiqran Qriqoryan hesab edir ki, Ermənistanın Azərbaycanın sülh təklifini qəbul etməsi ehtimal olunur. Çünki Azərbaycanın daim sülh təklifini səsləndirməyəcəyini hələ bir müddət əvvəl Prezident İlham Əliyev də xüsusi vurğulamışdı. “Artıq həmin məqam yetişib və Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınmaq üçün bir gücdən digərinə qaçdıqca şərtlər də dəyişir və sərtləşir. İrəvan bu arada nə qədər “oynayacaqsa”, daha çox təngnəfəs olacaq və daha ağır şərtlərlə üz-üzə qalacaq”.

Politoloqun yetərincə məntiqli qənaətinə onu əlavə edək ki, Ermənistan rəsmilərinin son açıqlamaları bu həqiqəti anlamağa meyilli olduqlarını göstərir.

“Vasitəçilər, xüsusilə ABŞ Azərbaycana Qərbin danışıqlar platformasına getməsi üçün kifayət qədər təzyiq göstərməsə, İrəvan Bakının istədiyi kimi, üzbəüz danışıqlara getməli olacaq. Ermənistan hakimiyyətinin siyasəti nəyin bahasına olursa–olsun, hansısa sənədin imzalanmasına nail olmaq və eskalasiyadan qaçmaqdır. Bakı İrəvanı öz prinsiplərinə razı sala bilər. Bu, anklavlar məsələsində, eləcə də Azərbaycanın davranışı hərbi və iqtisadi üstünlüyə malik qalib tərəfin məntiqinə tam uyğun gəlir”. Bu isə erməni politoloq Ayk Demoyanın şərhidir. Siyasi ekspertin fikrincə, hazırkı məqamda Ermənistanın mövqeyi daha “əsəbi” görünür: “Hakimiyyət fasiləsiz olaraq sülh gündəmindən bəhs edir, ərazilərlə bağlı hansısa rəqəmləri, sülh müqaviləsinin imzalanması ilə bağlı faizləri səsləndirir. Sadəcə, Ermənistanın Azərbaycana qarşı heç bir təbliğat tədbiri yoxdur”.

İqtidardakı “Mülki müqavilə” partiyasından parlamentin deputatı Gaqik Melkonyan isə hesab edir ki, Rusiya özünü yenidən diktə edən tərəf kimi, Ermənistanı isə “qul statusunda” görür. Onun sözlərinə görə, İrəvan isteblişmenti nə qədər gec deyil, Rusiyaya alternativ axtarıb tapmalıdır.

### Paşinyan sürpriz hazırlayırmı?

Kənarda dəstəkçi axtarışlarına son qoymağa tələsməyən Ermənistan hakimiyyətinə Azərbaycan və Türkiyə dəfələrlə xəbərdarlıq ediblər ki, onun təhlükəsizlinin təminatı region ölkələrindən, xüsusilə Bakı və Ankaradan keçir. Yəni, bu, o deməkdir ki, Cənubi Qafqaza min kilometrlərlə uzaqdakı beynəlxalq aktorları gətirmək və onların maraqlarını təmin etmək cəhdlərindən əl çəkməli, qonşularla normal müzakirələr aparmalı, problemlərinin konstruktiv həlli yollarını tapmalıdır.



**Ermənistanın Qərbə meyillənməsi prosesinin erməni xalqı üçün heç də ağrısız ötüşməyəcəyini söyləyən qazaxıstanlı politoloq Atbek Aytmatov güman edir ki, İrəvanı qarşıda fəlakətli perspektiv gözləyir:** “ABŞ və Fransa kimi ölkələr açıq şəkildə nümayiş etdirirlər ki, Ermənistanı Rusiya ilə qarşıdurmada Qərbin forpostuna çevirmək planından əl çəkməyiblər. Əslində, Vaşinqtonun Azərbaycanın ünvanına aqressiv diplomatik ritorikası və Fransanın Cənubi Qafqazda təxribatçı hərəkətləri yalnız bir məqsədə xidmət edir: Ermənistan rəhbərliyində onlarla əməkdaşlıqdan arxayınlıq və eyforiya hissi yaratmağa, onu sakitləşdirməyə, “başının altına yastıq qoymağa”. Guya, əmin olsun ki, onlar Azərbaycanı cəzalandıracaqlar. Bunu erməni cəmiyyətinin revanşist kəsimi də arzulayır və Paşinyandan tələb edir. Erməni siyasi bomondunun şizofrenikliyini nəzərə alsaq, bu, heç də təəccüblü görünməz. İntəhası, mənə elə gəlir ki, bu şirnikləndirmə oyununun Ermənistan üçün hansı ağır fəsadlarla nəticələnəcəyini həmin revanşistlər kimi, Paşinyanın özü də anlamaqda çətinlik çəkir”.

Hazırda Qərbin, guya, Ermənistanın tərəfində durduğu görüntüsü yaransa da, məlum aktorlar İrəvanı Cənubi Qafqazda “ikinci Ukrayna” poliqonuna çevrilməyə razı salmaq üçün hər şeyi etdiklərini vurğulayan qazaxıstanlı politoloqun fikrincə, buna, həm də, anti-Rusiya əhvalına köklənmiş erməni cəmiyyətinin zəmin yaratdığını deyir: “Vaşinqton və Parisin Ermənistanla bağlı böyük planları var və onlar bu missiyanı hərtərfəli düşünüblər. Bu mənada Paşinyanın Rusiyaya sürpriz hazırladığı aydın sezilir. Rəsmi İrəvanın KTMT-dan ayrılması, Rusiya hərbi kontingentinin ərazisindən çıxarılması məsələlərini eyni vaxtda, həm də kifayət dərəcədə kəskin şəkildə qaldıra bilər. Bunu anlamaqdan ötrü dərin analizə ehtiyac yoxdur. ABŞ-ın Ermənistana yardım barədə təkliflər zərfinə nəzər yetirmək kifayətdir. İrəvandakı sağlam düşüncəli siyasətçilər ABŞ-ın Ermənistanı yaxın vaxtlarda hansı bataqlığa sürükləməyə hazırlaşdığından, sadəcə, dəhşətə gəlməlidirlər. Revanşizm infeksiyasına yoluxmuş ermənilər isə bu ssenarinin optimist sonluğuna ümid bəsləməkdədirlər. ABŞ-ın vədlərinin necə aldadıcı olduğunu başa düşmək üçün onun Yaxın Şərqdə və Şərqi Avropada “təhlükəsizlik yastığı” verdiyi ölkələrin aqibətinə baxmaq yetər. İndi həmin dövlətlərin böyük əksəriyyəti həmin “humanitar blef”in altını çəkir.

### “Ağası” çox olan sonda sahibsiz qalır

Otuz il bundan əvvəl Azərbaycanın həm iqtisadi, həm də hərbi imkanları tam fərqli idi. Amma hazırda dünyanın tanıdığı qalib Azərbaycan var və o, iradəsini diktə edən tərəfdir. Əgər Ermənistan bundan sonra da sülh sazişini “44 günlük müharibənin nəticələrinə uyğun” – kapitulyasiyaya imza atan tərəf kimi qəbul etməyib, Avropada, okeanın o tayında “zamin” axtarışlarına son qoymasa, saziş də olmayacaq. Azərbaycan, təbii olaraq, bu fürsətdən öz maraqları üçün istifadə edəcək.

“Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır”. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında bildirib. Dövlətimizin başçısı xüsusi olaraq vurğulayıb ki, Ermənistan kimi ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz: “Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir”.

Cənab Prezident dünənki çıxışında Qərbin şirin vədlərinə şirniklənib sülhdən qaçan Ermənistanın dəqiq təyinatını verib. Bəli, həmin ABŞ-ın İrəvana mümkün valyuta defisitini bağlayacağı ilə bağlı verdiyi vədi sadəcə gülüş doğurur. Vaşinqtonun bu, eləcə də Hayastanı “zəruri hərbi texnika ilə” təmin edəcəyi barədə təkliflər zərfi “blef”dən başqa bir şey deyil. Bunu anlaması üçün İrəvanın Ukraynanı gözünün önünə gətirməsi kifayətdir. Məgər Ermənistan hakimiyyəti Vaşinqtonun, Parisin onu “siçan tələsinə” salmağa çalışmalarının fərqində deyil? Yoxsa, İrəvan Qərbin “xəyali dəstəyi” naminə “qurbanlıq keçi” kimi bıçaq altına tərəf könüllü gedir?

***İmran BƏDİRXANLI***
***XQ***

# Mərkəzi Asiya ölkələrinin Qərbə ən qısa yolu Azərbaycandan keçir

## Son bir ildə bu regionla iqtisadi əlaqələrimiz 3 dəfə artıb

**(əvvəli 1-ci səhifədə)**

Platforma daim qarşılıqlı təcrübə mübadiləsinin təşkilini, mümkün əməkdaşlıq modellərinin araşdırılması və təşviqini diqqətdə saxlayır, proqrama üzv ölkələri əhatə edən region daxilində qarşılıqlı iqtisadi bağlantıların yaradılması üçün nəqliyyat-logistika, eyni zamanda, sərmayə yatırımları imkanlarının tədqiqini reallaşdıraraq müvafiq layihələr hazırlayır, regional inteqrasiya təşəbbüslərini gerçəkləşdirir.

Xatırladaq ki, SPECA 1998-2030-cu illəri əhatə edir. Proqram iqtisadi inteqrativ layihələrin həyata keçirilməsi və prosesin dəstəklənməsi baxımından mühüm önəm daşıyır. Qeyd edək ki, Azərbaycan bu proqrama 2002-ci ildə qoşulub və hazırda birliyin fəal üzvlərindəndir.

O da vurğulanmalıdır ki, SPECA əsasən, türk geopolitik regionu əhatə etdiyindən Türk Dövlətləri Təşkilatı çərçivəsində diqqət mərkəzində saxlanılan inteqrasiya layihələrinə xüsusi əhəmiyyət və dəstək verir. Türk dövlət başçılarının davamlı qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasında iqtisadi əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda inkişafının getdikcə sürətlənməsi də bunun bariz ifadəsidir.

Ekspertlər bildirirlər ki, qardaş Türkiyənin respublikamızla birgə vahid türk geopolitik regionunu təşkil edən Mərkəzi Asiya ölkələri Avrasiyanın coğrafi mərkəzində vahid türk siyasi platformasının ərsəyə gətirilməsində mühüm rol oynayan aktorlardır. Mərkəzi Asiya ölkələri ilə birlikdə türk coğrafiyası iqtisadiyyatı və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və region kimi fərqlənir. Möhkəm özül üzərində qurulan platforma türk dünyası çərçivəsində siyasi-iqtisadi, hərbi-texniki, mədəni-humanitar inteqrasiya proseslərini sürətləndirir.

Ümumiyyətlə, Mərkəzi Asiya ölkələri və Azərbaycan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və coğrafi regiondur. Son dövrlər dövlət başçılarının qarşılıqlı səfərləri ölkələr arasında iqtisadi əməkdaşlığın ikitərəfli formatda inkişafını təşviq edir. Eyni zamanda, bu regionun beynəlxalq arenada artmaqda olan nüfuzu ölkələrimizin sıx əməkdaşlığını şərtləndirir. Bu baxımdan SPECA çərçivəsində fəaliyyət çoxtərəfli əməkdaşlığın inkişafı üçün münbit zəmin yaradır.

Yeri gəlmişkən, ekspertlər bildirirlər ki, SPECA-nın üzv ölkələr arasında əməkdaşlığın inkişafına və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsi prosesinə dəstəyi yalnız texniki-metodik xarakter daşıyır, inteqrasiya üçün nəzərdə tutulan layihələrin maliyyələşdirilməsi və reallaşdırılması isə həmin ölkələr tərəfindən həyata keçirilir. Lakin buna baxmayaraq inteqrasiya proseslərinin iqtisadi əsaslarının araşdırılması, iqtisadi dəyərləndirilməsi və perspektivlərin aşkarlanması baxımından SPECA lazımi zamanda yaradılan, eyni zamanda, ötən dövr ərzində uğurla fəaliyyət göstərən bir platformadır. Prezident İlham Əliyevin Azərbaycanda keçirilən SPECA həftəsi çərçivəsində "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərginin açılışında iştirakı da respublikamızın bu proqrama verdiyi önəmin əməli göstəricisidir.

Proqramın əhatə etdiyi ölkələrin siyahısına və coğrafi mövqeyinə nəzər salsaq görərik ki, Azərbaycan son illərdə proqramın əhatə etdiyi ölkələrlə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".



Azərbaycanın SPECA-nın üzv ölkələri ilə əməkdaşlığının davamlı inkişafını təsdiqləyən bir faktı da diqqətə çatdırmaq istərdik. Bu, dövlətimizin başçısının son iki ildə Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfəri ilə bağlıdır. Şübhəsiz ki, belə səfərlər qarşılıqlı xarakter daşıyıb. Başqa sözlə, həmin dövrdə proqrama üzv digər dövlətlərin başçıları tərəfindən də Azərbaycana dəfələrlə səfərlər həyata keçirilib.

Ölkəmizin birlik dövlətləri ilə əməkdaşlığının daha bir göstəricisi qarşılıqlı ticarət və sərmayə qoyuluşu ilə əlaqədardır. Azərbaycanın hər iki istiqamətdə göstəriciləri ildən-ilə yüksəlir. Məsələn, 2022-ci il ərzində respublikamızın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Respublikamızın SPECA-nın üzv ölkələri ilə əməkdaşlığında investisiya qoyuluşu da diqqət çəkir. Belə ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri birgə sərmayə fondları yaradıblar, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. İndiyədək sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələr həyata keçirilib. Bir sıra digər sahələrdə isə yeni sərmayə layihələrinin icrasına başlanılıb.

Azərbaycanın SPECA Proqramına üzv ayrı-ayrı ölkələrlə əməkdaşlığında da müsbət dinamika müşahidə edilir. Belə ki, 2023-cü ilin yanvar-iyul aylarında respublikamızın Qazaxıstanla ticarət dövriyyəsi illik müqayisədə 32 faiz, Türkmənistanla 3,6 dəfə, Qırğızıstanla isə 4,8 dəfə artıb. Əfqanıstana gəldikdə isə Azərbaycan əvvəlki illərdə bu ölkənin təhlükəsizliyinə böyük töhfələr verib. Belə ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı missiyasına 2002-ci ildə başlayıb və 2021-ci il avqustun sonunda onu başa çatdırıb. Azərbaycan hərbçiləri Əfqanıstanı sonuncu tərk edən koalisiya qüvvələrinin hərbçiləri arasında olublar.

Yeri gəlmişkən, Azərbaycan SPECA Proqramına üzv ölkələr arasında sürətli iqtisadi inkişafı ilə daha çox fərqlənir. Prezident İlham Əliyev Bakıda keçirilən SPECA-nın Zirvə görüşündəki çıxışında səsləndirdiyi göstəricilər də bu fikri təsdiqləyir. Belə ki, dövlətimizin başçısının vurğuladığı kimi, son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox yüksəlib.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb.

Göstərilən dövrdə ölkəmizdə əlverişli investisiya mühiti yaradılıb, iqtisadiyyata 310 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da 200 milyard dolları qeyri-enerji sektorunun payına düşür.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Bütün bunlar isə Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan, təşəbbüslərlərinin uğurla gerçəkləşməsindən və enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, həm də qlobal miqyasda ədalətin carçısına, bəzi böyük dövlətlərin ədalətsiz davranışlarına və müstəmləkəçi siyasətlərinə qarşı çıxan xalqların azadlıq mübarizəsinə dəstək verən qüvvəyə çevrilməsindən xəbər verir.

***V.BAYRAMOV***
***XQ***

# Azad edilmiş bölgələrdə yüngül sənaye də inkişaf etdiriləcək





**(əvvəli 1-ci səhifədə)**

– İşğaladək bu ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm rola malik idi. Burada əsasən yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf etmişdi. Həmin ərazilərdə İstisu və Turşsu mineral suyunun qablaşdırılması müəssisələri, Qarabağın və Ağdamın mərmər, mişar daşı, şərab zavodları, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. müəssisələr fəaliyyət göstərirdi. Kənd təsərrüfatına gəldikdə, bu ərazilərdə taxılçılıq, yem istehsalı, tütünçülük, üzümçülük, pambıqçılıq, kartofçuluq, bağçılıq və bostançılıq, ətlk-südlük heyvandarlıq, xüsusən də qoyunçuluq üstünlük təşkil edirdi.

İşğaldan azad olduqdan sonra ərazinin sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi dağ-mədən, metallurgiya, tikinti materialları, müxtəlif istiqmətli emal sənayesi sahələrinin inkişafı ilə yanaşı, yüngül sənayenin dirçəlməsinə də imkan yaradacaq. Çünki bölgə yüngül sənayenin inkişafı üçün xammalla zəngindir. İlkin hesablamalara görə, qarşıdakı illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əsas sahələrdə ümumi istehsal həcmi 2 milyard manatdan çox arta bilər.

Yuxarıda qeyd vurğulandığı kimi, bölgədə yüngül sənayenin inkişaf etdirilməsi üçün güclü potensial var. **İqtisadiyyat üzrə fəlsəfə doktoru Ceyhun Vəliyev də həmin ərazilərdə yaşayışın bərpa edilməsi üçün yüngül sənayenin əhəmiyyətini diqqətə çatdırdı:**

– Sənaye istehsalı yüksək səviyyədə olan ölkələrin iqtisadi inkişafı və tərəqqisi digər sahələrlə bərabər yüngül sənayenin inkişaf səviyyəsindən də birbaşa asılıdır. Bu gün həmin sənaye sahəsinin inkişafı istehsalın genişləndirilməsi, əldə olunan mənfəətin yüksəldilməsi kimi son dərəcə əhəmiyyətli iqtisadi göstəricilərlə yanaşı, həmçinin regional inkişafın da təmin edilməsində, ətraf mühitin qorunmasında, gəlirlərin səmərəli şəkildə bölüşdürülməsinin təmin olunmasında vacib rol oynayır. İşğaldan azad olunmuş ərazilərin əksəriyyətinin kənd təsərrüfatı rayonları olduğunu, həmçinin yüngül sənaye xammalının əsasını kənd təsərrüfatı məhsullarının təşkil etdiyini nəzərə alsaq, bu sahənin inkişafı üçün böyük perspektivlər var. Məsələn, baramaçılığın inkişafı müvafiq yüngül sənaye müəssisələrinin açılmasına əlverişli şərait yaradacaq. Bu sahədə tarixi təcrübə də var. XX əsrin əvvəllərində Şuşa və Cəbrayıl qəzalarında 17 ipəkəyirən fabrik (12-si Şuşada, 5-i isə Cəbrayılda) fəaliyyət göstərib. Bunlarla yanaşı, Şuşada 6 ipəkəyirən, 2 ipəkeşən və 3 baramaboğan fabrikdən ibarət səhmdar cəmiyyət də fəaliyyət göstərib.

Sovet dövründə də Qarabağın ipəkçilik müəssisələri əsasən Şuşa və Cəbrayılda olub. Bütövlükdə isə işğaldan əvvəl bu bölgələrdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının təqribən 35–40 faizi, o cümlədən baramanın 17 faizdən çoxu istehsal edilirdi. Yəni kifayət qədər xammal vardı. Bir vaxtlar Qarabağ İpək Kombinatı da fəaliyyət göstərirdi. Kombinat baramaaçma, eşmə və toxuma sahələrini birləşdirmiş, xam ipək, eşmə ipək, cod ipək parça buraxırdı. Bu da regionda baramaçılığın inkişafından xəbər verir. Yenidən bu sahə inkişaf etdirilməli və yüngül sənayenin aparıcı sahəsinə çevirilməlidir. Qarabağın xalis ipəyindən hazırlanmış xalçası, kilimi, cecimi, kəlağayısı bütün dünyaya təqdim edilən brendə çevrilməlidir.

Qarabağda xalçaçılıq sənətinin zəngin ənənələri var. Xalçaçılığı inkişaf etdirməklə həm daxili bazarın tələblərini ödəmək, həm də beynəlxalq bazarda ənənəvi Qarabağ xalçalarının satışını təşkil etmək mümkündür. Bu, dünyada Azərbaycan mədəniyyətinin təbliği baxımından da perspektivlidir. Xammal baxımından da region zəngindir. Azərbaycanda yunun 19 faizi Qarabağ və Şərqi Zəngəzurda istehsal edilirdi.

Yüngül sənayenin bir sahəsi olan toxuculuğun inkişafı üçün də geniş imkanlar var. İnkişaf edən ölkələrin böyük əksəriyyətində sənayeləşmənin hərəkətverici qüvvəsi qismində toxuculuq və tikiş istehsalı çıxış edir. Əməktutumlu olduğu səbəbindən tikiş sferasında çox sayda yeni iş yerləri əmələ gətirir.

Pambıqçılıq və heyvandarlığı inkişaf etdirməklə parça istehsalını təşkil eləmək olar. Bununla da yüngül sənaye məhsullarının xarici bazardan asılılığını minimuma endirə bilərik. Hazırda yüngül sənaye məhsulları ölkəmizə əsasən Çin və Türkiyədən idxal olunur. Amma daxili bazarda idxalı yerli istehsalla əvəz etməyə imkanlar var.

Ceyhun Vəliyev daha sonra dedi ki, müasir texnologiyalara əsaslanan yüngül sənaye avadanlıqları çox bahalı olduğuna görə bu sektora iri həcmdə investisiyaların cəlb edilməlidir. Ona görə də işğaldan azad edilmiş ərazilərimizdə yüngül sənayenin yaradılması və inkişaf etdirilməsi üçün güclü dövlət dəstəyinə, daxili və xarici investisiya qoyuluşlarına ehtiyac var. Yüngül sənaye müəssisələrində istehsal edilən məhsullar üçün daxili bazarın qorunması istiqamətində lazımi tədbirlərin həyata keçirilməsi də bu sahənin cəlbediciliyini həm daxili, həm də xarici investorlar üçün artırar. Daha sonra bu ərazilərdə sərbəst rəqabət mühiti yaranmalıdır. Digər tərəfdən xarici investorları cəlb etməyin yolu vergi və gömrük sahəsində onlara müəyyən güzəştlərin təklif edilməsidir. Belə ki, hər hansı bir xarici şirkət investisiya yatırdığı ərazilərdə bərpa və istehsal məqsədləri üçün öz ölkəsindən müəyyən avadanlıqlar gətirəcək. Bu səbəbdən də, onlara müəyyən güzəştlər verilməli və ya tam şəkildə gömrükdən azad olunmalıdırlar.

Yerli sahibkarlar da unudulmamalı və onlar da güzəştlərdən yararlanmalıdır. Artıq bu sahədə böyük işlər görülüb. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şirkətlərə vergi və gömrük güzəştləri tətbiq olunur. Bunlar yüngül sənayenin yaxın illərdə regionun aparıcı sahələrindən biri olacağından xəbər verir.

Beləliklə, işğaldan azad edilmiş torpaqlarımızın potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi ölkə ÜDM-nin dəyərinin artmasına, qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozları yaxşılaşdırmaq istiqamətində dəqiqləşdirməyə, ölkənin ərazi əmək bölgüsündə bölgənin yerini və payını yüksəltməyə, bölgədə istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyətini təmin etməyə böyük imkanlar yaradacaqdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan malları xarici bazarlarda yeni alıcılar qazanır



## 10 ayda ölkəmizin ixracı 29 milyard dolları ötüb

**Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi Məsələlər və İnnovativ İnkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Bakıda Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə keçirilən "Gömrük Biznes Forumu 2023" tədbirində çıxış edərək bildirib ki, gömrük sistemində rəqəmsallaşma genişləndirilməklə xarici ticarət bazarında canlama yaranıb.**

Hazırda isə gömrük orqanları ilə sahibkarlar arasında səmərəli dialoq qurulur. Bu sahədə daha praktiki tədbirlərin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılır. Vətəndaş və sahibkar məmnunluğunun zəruriliyinə xüsusi əhəmiyyət verilir. Bundan başqa gömrük sisteminin şəffaflaşdırılması, prosedurların sadələşdirilməsi, xərclərin optimallaşdırılması, habelə xarici ticarətin asanlaşdırılması xarici ticarət iştirakçılarının və büdcə daxilolmalarının artmasına səbəb olur.

Prezident köməkçisinin sözlərinə görə, 2015-2022-ci illərdə qeyri-neft ixracının həcmi 2,3 dəfə yüksəlib. Eyni zamanda, qeyri-neft ixracında çeşidlərin sayında artım müşahidə olunub. 5700 çeşidli maldan 1990-nı ixrac edilib, 1234-ü isə ixraca göndərilib. Son 3 ildə Azərbaycanın ixrac səbətinə 35 adda yeni məhsul daxil edilib.

Onu da qeyd edək ki, respublikamızın bu gün qeyri-neft ixracının artırılması məqsədilə 10 ölkə ilə azad ticarət sazişi və Türkiyə Respublikası ilə Preferensial Ticarət Sazişi qüvvədədir. Qardaş ölkə ilə imzalanan preferensial sazişə əsasən, bir sıra kənd təsərrüfatı məhsullarına və digər Azərbaycan və Türkiyə mənşəli mallara qarşılıqlı preferensial ticarət rejimi tətbiq edilir.

Hazırda neft və qazın dünya bazar qiymətlərinin azalmasına baxmayaraq, ölkəmizin xarici ticarət balansında böyük həcmli profisit müşahidə olunur. Bu, cari ilin 10 ayında Azərbaycanın ixracının 29 milyard dolları ötməsi, ticarət balansının profisitinin 15 milyard dollardan çox olması ilə təsdiqlənir.

Xatırladaq ki, son məlumata əsasən, qeyri-neft-qaz sektorunun ixracı 11 faizdən çox artaraq 2,7 milyard dolları keçib. Emal olunan kənd təsərrüfatı məhsulları çıxılmaqla qeyri-neft sənaye məhsullarının qeyri-neft-qaz ixracında payı 68 faizə çatıb. Cari ilin 9 ayında sənaye zonalarının qeyri-neft-qaz ixracında payı isə 23 faiz təşkil edib.

Bəs Azərbaycan məhsullarının xarici bazarlarda yeni alıcılar qazanması nə ilə bağlıdır? Sualın cavabı ilə əlaqədar, ilk növbədə, onu qeyd edək ki, son illərdə özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər gerçəkləşdirilib. Yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra isə ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu amil ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi isə ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib.

Bütün bu layihələrin uğurla gerçəkləşdirilməsi nəticəsində ixras prosesində davamlı olaraq yüksək göstəricilər qeydə alınıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın oktyabr sayında bu barədə ətraflı bəhs olunub. Bununla bağlı müvafiq göstəricini diqqətə çatdırmazdan əvvəl xatırladaq ki, son illər ərzində Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların salınması da investisiyaların cəlbini və biznes mühitinin kifayət qədər yaxşılaşdırılmasını şərtləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən, bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Bakıda keçirilən "Gömrük Biznes Forumu 2023" tədbirində bununla bağlı bildirib ki, hazırda yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Bu gün iqtisadiyyatımız qarşısında duran əsas məqsədlərdən biri Azərbaycanın ixrac potensialının artırılmasıdır. Bu məqsədlə 2023-cü ilin 9 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 dəfə çox -- 500 milyon dollardan çox məhsul daxildə emal gömrük proseduru altında yerləşdirilib. Beləliklə, bu göstərici sözügedən mexanizmin emal və xidmət sektorunun inkişafı, xüsusilə də ixrac fəaliyyətinin genişləndirilməsi üçün mühüm əhəmiyyətə malik olduğunu bir daha təsdiqləyib.

Gömrük prosedurlarının sadələşdirilməsi kimi amillər ölkəmizin xarici ticarət dövriyyəsinin həcminin sürətlə artmasına səbəb olub. Neft və qazın dünya bazarı qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyük həcmli profisit müşahidə olunmaqdadır. Belə ki, cari ilin 10 ayında ixrac 29 milyard dolları ötüb, ticarət balansının profisiti 15 milyard dollardan çox olub. Qeyri-neft-qaz sektorunun ixracı isə 11 faiz dən çox artaraq 2,7 milyard dolları ötüb. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla qeyri-neft sənaye məhsullarının qeyri-neft-qaz ixracında payı 68 faizə çatmaqdadır. Cari ilin 9 ayında sənaye zonalarının qeyri-neft-qaz ixracında payı isə 23 faizə çatıb.

Yuxarıda qeyd edilənlər və bununla bağlı müsbət göstəricilər hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşmasını deməyə əsas verir. Bu, istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri–neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri–neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

***Vaqif BAYRAMOV***
***XQ***



## Milli iqtisadiyyatımızın dollardan asılılığı sürətlə azalır

**2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan bazarında 23,8 milyard dollar dəyərində valyuta əməliyyatları həyata keçirilib. Azərbaycan Mərkəzi Bankının (AMB) Pul Siyasəti İcmalına istinadən verdiyi xəbərə görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9,2 faiz azdır.**

AMB-nin məlumatına görə, nağdsız ödənişlər bazarında 21 milyard dollar, nağd ödənişlər üzrə isə 2,8 milyard dollar məbləğində əməliyyatlar həyata keçirilib. Bu, bir il əvvəllə müqayisədə müvafiq olaraq 6 faiz və 29,2 faiz azdır.

Cənubi Qafqazın ən böyük iqtisadiyyatında nağdsız valyuta əməliyyatlarının 79 faizi və 21 faizi ABŞ dolları, 21 faizi digər xarici valyutalarla aparılıb. Nağd valyuta əməliyyatlarının 83,6 faizi ABŞ dolları, 16,4 faizi isə digər valyutalarda həyata keçirilib.

## Bu il 61 min yeni iş yeri yaradılıb

**2023-cü ilin 9 ayı ərzində ölkəmizdə 60,9 min yeni iş yeri açılıb. Yeni iş yerlərinin 92,6 faizi qeyri-dövlət sektorunun payına düşüb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**



Məlumatda bildirilir ki, yeni iş yerlərinin 80,4 faizi Bakı şəhərində yaradılıb. Qalan iş yerlərinin isə 1,2 faizi Naxçıvan Muxtar Respublikasının, 18,4 faizi digər regionların, o cümlədən 3,6 faizi Abşeron-Xızı, 2,7 faizi Quba-Xaçmaz, 1,9 faizi Gəncə-Daşkəsən, 1,8 faizi Şəki-Zaqatala, 1,5 faizi Qazax-Tovuz, 1,4 faizi Mərkəzi Aran, 1,4 faizi Şirvan-Salyan, 1,2 faizi Qarabağ, 0,9 faizi Lənkəran-Astara, 0,9 faizi Şərqi Zəngəzur, 0,6 faizi Dağlıq Şirvan, 0,5 faizi isə Mil-Muğan iqtisadi rayonlarının payına düşüb.

***XQ***

# Orta Dəhliz Avrasiyanın önəmli marşrutuna çevrilir

## Bu yol Qərbdə də, Şərqdə də getdikcə daha böyük maraq doğurur



**Uzaq Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən multimodal dəhliz olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) iştirakçı dövlətlərin, o cümlədən Azərbaycanın iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. İqtisadi baxımdan səmərəli olduğu kimi, siyasi cəhətdən də xüsusi əhəmiyyət kəsb edən Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə olunan məslələrdəndir. Sözügedən nəqliyyat dəhlizinin işinin canlandırılması istiqmətində həyata keçirilən tədbirlər layihəyə marağı getdikcə artırır.**

Bugünlərdə Vaşinqtonda fəaliyyət göstərən Xəzər Siyasət Mərkəzi Britaniyanın nüfuzlu beyin mərkəzi olan Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitutla birgə Londonda Xəzər Enerji Təhlükəsizliyi mövzusunda konfrans təşkil edib. Tədbirdə Britaniya və Xəzər hövzəsi ölkələrinin enerji təhlükəsizliyi, regional əməkdaşlıq və son zamanlar strateji əhəmiyyəti artan Orta Dəhlizin inkişafının perspektivləri müzakirə olunub.

Forumda çıxış edən Britaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Tim Stern enerji təhlükəsizliyi, eləcə də alternativ enerjiyə keçiddə Xəzər hövzəsi ölkələrinin mühüm roluna diqqət çəkərək ölkəsinin Orta Dəhlizin inkişaf etdirilməsinə tam dəstək verdiyini bildirib.

Xəzər Siyasət Mərkəzinin direktoru Əfqan Nifti Xəzər hövzəsi regionunun strateji əhəmiyyəti, xüsusilə enerji təchizatının şaxələndirilməsindəki rolundan, Orta Dəhliz vasitəsilə enerji daşımaları sahəsində görülən işlərdən söz açıb. Tədbirdə, həmçinin Gürcüstan, Türkiyə, Qırğızıstan və Özbəkistanın Britaniyadakı səfirləri, Qazaxıstanın bu ölkədəki səfirliyinin nümayəndəsi, britaniyalı diplomat Deyvid Moran, Xəzər Siyasət Mərkəzinin Məşvərətçi Şurasının üzvü Erik Rudenşold, eləcə də Britaniya siyasi və akademik dairələrindən olan mütəxəssislər çıxış edərək Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın əlaqələndirici roluna diqqət çəkiblər.

Orta Dəhlizin perspektiv imkanları, onun fəaliyyətinin genişləndirilməsi ilə bağlı məsələlər Bakıda keçirilən SPECA BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində də əsas müzakirə mövzularından olub. Məsələn, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov SPECA Ticarət üzrə İşçi Qrupunun 18-ci iclasında Orta Dəhlizin BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramına üzv ölkələr arasında iqtisadi əlaqələrin canlanmasına və ticari əməkdaşlığın genişlənməsinə xidmət etdiyini bildirib. Ölkəmizin bu mühüm beynəlxalq nəqliyyat marşrutunun inkişafına mühüm töhfə verdiyini diqqətə çatdıran nazir deyib ki, Azərbaycan təkcə tranzit ölkə deyil, həm də nəqliyyat dəhlizlərinin həyat qabiliyyətini, səmərəliliyini və dayanıqlı inkişafını təmin edən katalizatordur. Onun sözlərinə görə, Orta Dəhlizin rəqabət qabiliyyətinin davamlı olması üçün qarşılıqlı fəaliyyət möhkəmləndirilməli, ticarət və onunla əlaqəli prosedurların rəqəmsallaşması artırılmalı, eləcə də gələcəkdə əməkdaşlıq genişləndirilməlidir.

Hazırda Orta Dəhlizin funksionallığının artırılması məqsədilə rəqəmsallaşma konsepsiyası hazırlanır, bununla bağlı beynəlxalq şirkətlərlə danışıqlar aparılır. Orta Dəhlizin rəqəmsallaşmasının çox vacib və qaçılmaz məsələ olduğunu bildirən "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası"-nın baş katibi Qaydar Abdikerimov deyib ki, bunu tətbiq etməsək, digər dəhlizlər qarşısında rəqabət qabiliyyətliliyimizi itirə bilərik. Onun dediyinə görə, Orta Dəhlizdə konteyner daşımaları üçün yaradılan platformalar marşrut boyunca rəqəmsallaşmanı həyata keçirməyə imkan verəcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2023-cü il nöyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, növbəti üç il ərzində Azərbaycan ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırılması nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Təbriz YADİGAROV, ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**

Orta Dəhlizi tarixi İpək yolunun ən mühüm komponentlərindən birinə çevrilib. İqtisadi əməkdaşlığın və beynəlxalq ticarətin genişləndirilməsi məqsədilə başlanan layihənin geosiyasi səbəblərə və hegemonluq istəyinə söykəndiyi iddia edilsə də, hazırda beynəlxalq güc balansında çəkisi olan və Amerika Birləşmiş Ştatlarına meydan oxumağı bacaran Çin Asiya–Sakit okean regionunda əhəmiyyətli güc proyeksiyası yaratmağa müvəffəq olub.

Bəşər tarixinin ən iddialı iqtisadi inkişaf proqramlarından hesab olunan, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, elektrik xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni, 4,4 milyard insanı və dünya ümumi daxili məhsulunun 40 faizini əhatə edir. Təsir dairəsi çox yüksək olduğu üçün layihə beynəlxalq ictimaiyyətin də böyük marağına səbəb olub. Statistik mənbələrə görə, kəmərlər və yolların tikintisinə sərf olunan Çin sərmayəsinin məbləği 1 trilyon dollardan 8 trilyon dollara qədərdir. Dünya Bankının məlumatına görə, dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "bir kəmər–bir yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard ABŞ dolları təşkil edir.

Avrasiya regionunda əsas nəqliyyat marşrutuna çevrilən Orta Dəhlizin inkişafı, Şimal Dəhlizinin rəqabət qabiliyyətinin azalması ilə Avropa, Türkiyə və Mərkəzi Asiyadan daha çox ekspeditor və logistika şirkətləri Çinin dəstəklədiyi İpək Yolu və "bir kəmər–bir yol" təşəbbüsünün potensialını genişləndirməkdə maraqlıdırlar. Yaxın illərdə Avropa İttifaqında enerji və əmtəə böhranı fonunda Orta Dəhliz boyunca yük daşımalarının əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Multimodal yük daşımaları, xüsusilə konteyner daşımaları, o cümlədən Avropa sənayesinin neft-kimya və mineral xammala artan ehtiyacları səbəbindən getdikcə daha çox tələbat qazanır.

Qeyd edək ki, Orta Dəhliz Şərqlə Qərb arasında etibarlı logistika üçün optimal seçimə çevrilir. Bu marşrut Çin və Avropa arasında üç ticarət dəhlizindən biridir və onun uzunluğu avtomobil və dəmir yolu ilə birlikdə 4256 kilometr, dəniz yolu ilə isə 508 kilometrdir. Bu dəhlizlə hərəkət edən konteyner bloku qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır ki, bu da mühüm logistik üstünlüklərdən hesab olunur.

# Naxçıvanda Qərbi Azərbaycana Qayıdış aksiyası

**Naxçıvanda keçirilən“Qərbi Azərbaycana qayıdışa gedən yol” festival-konqresinin ikinci günü mövzu ilə bağlı məruzələr dinlənildi, sənədli filmlər nümayiş olundu. İştirakçılar Ordubad və Kəngərli rayonlarında məskunlaşmış Qərbi azərbaycanlılarla görüşüb qaçqın soydaşlarımızla doğma yurda qayıdışa hazırlıqla bağlı söhbətlər apardılar.**









Festival-konqres çərçivəsində Naxçıvan Dövlət Universitetində müxtəlif bölmələrdə “Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar”, “Qərbi Azərbaycanın mədəni sərvətləri”, “Qərbi Azərbaycan dil faktları və toponimikası” və “Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri” mövzularında məruzələr dinlənildi, geniş müzakirələr aparıldı.

Naxçıvan şəhərindəki “Gənclik” mərkəzində isə Müasir yaradıcılığa dəstək” İctimai Birliyinin hazırladığı “Yada daşı” sənədli filmi nümayiş olundu. Qonaqlarla yanaşı, Qərbi Azərbaycan icmasının üzvləri, müəllim və tələbələr qədim türk torpağı olan Zəngəzurda dağıdılmış tarixi abidələrimizdən və vətənsiz qalmış soydaşlarımızın acı taleyindən bəhs edən ekran əsərinə maraqla baxdılar, fikir mübadiləsi apardılar.

“Gənclik” mərkəzində nümayiş etdirilən ikinci film isə “Nəsil ağacı” adlanır. Bir neçə ailənin faciəli taleyinin timsalında hazırlanan videolent Qərbi Azərbaycanın qədim tarixi, etnoqrafiyası, mətbəxi, tanınmış şəxsiyyətləri və soydaşlarımızın bu yerlərdən deportasiyası üzərində qurulub. İştirakçılar bu filmi də böyük maraqla izləyib yüksək qiymətləndirdilər.

Festival-konqresin qonaqları Ordubad rayonuna səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan qərbi azərbaycanlılarla görüşdülər. Sərgilənən Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri iştirakçılarda köçkün soydaşlarımızın yurd sevgiləri və Vətən həsrətləri barədə geniş təsəvvür yaratdı. Konsert proqramı görüşə yüksək vətənpərvərlik əhvalı gətirdi.

Festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla da sıx təmasda oldular, onlara tezliklə doğma yerlərə dönmələrini arzu etdilər. Çalxanqala kənd mərkəzində qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgi hamını dərindən təsirləndirdi, zəngin etnoqrafik mədəniyyətimizlə bağlı yüksək təəssürat yaratdı.

Görüşdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova və digər çıxış edənlər doğma torpaqlarından deportasiya olunan soydaşlarımızın tezliklə öz yurdlarına qayıdacaqlarına əminlik ifadə etdilər, Naxçıvanda keçirilən festival-konqresin və müxtəlif görüşlərin Qayıdış missiyasına önəmli dəstək olduğunu söylədilər.

Qaçqın aşıqların saz ifaları və müxtəlif musiqi nömrələri yurd həsrətinin ağrı-acısını hamıya dərindən duydurdu.

Bununla da qədim Naxçıvanda keçirilən festival-konqres yaddaşlarda dərin iz buraxaraq sona yetdi.

**Tahir AYDINOĞLU,**
**Səbuhi HƏSƏNOV**
**XQ**

**Naxçıvan – Bakı**



# Qlobal sosial çağırışlar Bakı tribunasında



**Azərbaycan Universitetinin evsahibliyi ilə təşkil olunan ikigünlük konfransda böhran dövründə sosial iş təcrübəsi, bu sahədə təhsilinin inkişafı, beynəlxalq standartların yaradılması, həssas qrupların sosial müdafiəsi kimi məsələlər müzakirə olunur.**

Açılış mərasimində çıxış edən dövlət rəsmiləri, deputatları və qonaqlar konfransı sosial siyasət və sosial iş sahəsindəki aktual məsələlərin müzakirəsində mühüm platforma kimi qiymətləndiriblər.

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva bildirib ki, son zamanlar mövcud münaqişə ocaqlarına yenilərinin əlavə olunması, o cümlədən ekoloji və təbii fəlakətlər dünyada ciddi sosial problemlər yaradır və onların elmi nöqteyi-nəzərdən araşdırılması zərurətini ortaya qoyur. Yeni sosial-iqtisadi və siyasi şəraitdə əhali ilə sosial iş xüsusi önəm kəsb edir. Azərbaycan da ölkə Prezidenti səviyyəsində sosial siyasət sahəsinə xüsusi diqqət yetirdiyini dəfələrlə elan edib. Ölkəmizdə həyata keçirilən sosial layihələr, dövlət büdcəsinin əhəmiyyətli hissəsinin sosial sahəyə yönəldiməsi bunu sübut edir. Bu istiqamətdə Azərbaycanın Birinci vitse–prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd edilməlidir.

Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin (STM) sədri Zahid Oruc bildirib ki, ölkəmizdə Zəfər Gününün qeyd edildiyi noyabr ayında silsilə tədbir və görüşlər, o cümlədən beynəlxalq elmi konfranslar keçirilir. Ölkəmizdə Vətən müharibəsi iştirakçıları, yaralılar, şəhid və aztəminatlı ailələrə qulluq üçün peşəkar sosial işçilərə dərin ehtiyac duyulur. Hərbi sosial işçilərin hazırlanması da dövlət və özəl sektorun qarşısında duran ən mühüm vəzifədir. 30 ildə 2 müharibədən keçən xalqımıza xidmət üçün 10 minlərlə peşəkar mütəxəssis gərəkdir.

Ölkəmizdə 2005-ci ildə təhsilin magistratura, 2008-ci ildə isə bakalavr pilləsində sosial işçi hazırlığına başlanılıb. 10-dan çox ali təhsil ocağında sosial işçi hazırlığı proqramı yerinə yetirilir. İndi Böyük Qayıdış dövründə yaşayırıq. Təxminən 30 ildən sonra doğma torpaqlarına dönən hər bir ailə ilə yaxından çalışmaq, onların dayanıqlı məskunluğunu təmin etmək və dağıdılmış ərazilərdə həyatı canlandırmaq ordumuzun işi qədər müqəddəs vəzifədir.

Beynəlxalq məclisin işi plenar iclaslarla davam edib. Bölmə iclaslarında isə sosial iş təhsili sahəsində səriştələrin, yeni bacarıqların və qlobal standartların yaradılması, davamlı inkişaf və sosial iş təhsili, sosial iş təhsilində rəqəmsallaşma və İKT, ictimai səhiyyə böhranı, müharibədən zərərçəkənlər və hərbçilərlə sosial iş, həssas qruplar və sosial müdafiə kimi mövzuların müzakirəsi planlaşdırılır.

Qeyd edək ki, konfransa dünyanın 32 ölkəsindən 156 məruzə qəbul edilib.

Bir ildən sonra ikinci “Social Work & Social Research” konfransının keçirilməsi nəzərdə tutulur.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Ordubadda Azadkənd məktəbi istifadəyə verilib

**Dünən Ordubad rayonunun Azadkənd tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib. Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.**



Səlahiyyətli nümayəndə Fuad Nəcəfli müəllim və şağirdləri yenilənmiş təhsil ocağının istidadəyə verilməsi münasibətilə təbrik edərək Naxçıvan təhsilinin ölkədə qabaqcıl yer tutduğunu və ali məktəblərə qəbul göstəricilərinin yüksək olduğunu söyləyib. Lakin son təhlillər göstərir ki, tədrisin keyfiyyəti daha da artırılmalıdır. Bu məqsədlə təhsil sahəsində yeni layihələr icra olunacaq, nöqsan və problemlər aradan qaldırılacaq.

Elm və təhsil naziri Emin Əmrullayev kollektivə yeni uğurlar arzulayaraq bildirib ki, belə müasir məktəb binalarının istifadəyə verilməsi orta təhsilin innovativ yeniliklər əsasında daha da təkmilləşdirilməsinə imkan verəcək. Müəllimlərdən Əhliman Əsgərov bu cür müasir tədris ocağının istifadəyə verilməsinin kollektivi olduqca sevindirdiyini qeyd edib.

Mərasimdə bildirilib ki, yenilənmiş 3 mərtəbəli təhsil ocağında 16 sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, şahmat sinfi, kompüter və müəllimlər otaqları, hərbi kabinə, STEAM otağı, kitabxana, bufet və idman zalı yerləşir. Məktəbdə 23 kompüter və 4 elektron lövhə quraşdırılıb, internetə çıxış təmin edilib. Hazırda 155 şagird təhsilini davam etdirir. Onların təlim-tərbiyəsi ilə 22 müəllim məşğul olur.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev Ordubad şəhər internat tam orta, texniki peşə və sürücülük məktəblərində də olublar, bu təhsil ocaqlarının keyfiyyət göstəricilərinin yüksəldilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

**XQ**

25 noyabr 2023-cü il, şənbə Xalq qəzeti

Tarixdən gələn səs

# Üzeyir Hacıbəyli – məfkurə publisisti

**Özünün musiqi əsərləri ilə dünyaya pəncərə açan, "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi şedevrlərlə cahanşümul şöhrət qazanmış Üzeyir bəy Hacıbəyli həm də çox güclü qələm sahibi, jurnalist, publisist idi. Onun publisistik yaradıcılığının ən məhsuldar dövrlərindən biri 1918–1920-ci illərdir ki, həmin zaman kəsiyində qələmə aldığı məqalələri sovet hakimiyyəti illərində yasaq edilərək, xalqdan gizlədilmişdir.**



Növbəti anım günü ilə əlaqədar istiqlal və istiqbal yolçusu olan dahi şəxsiyyətin bədii-publisistik irsinə yenidən nəzər salarkən bir daha şahidi olduq ki, Azərbaycanın ilk müstəqillik illərində Üzeyir bəy hər gün mətbuatda son dərəcə maraqlı yazılarla çıxış edib. Əvvəlcə müxbir, parlament müxbiri, kiçik qardaşı – "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli Fransaya getdikdən sonra isə qəzetin redaktoru kimi saysız-hesabsız məqalələri, felyetonları qəzetin səhifələrində dərc olunub.

Üzeyir bəyin yazılarını oxuduqca əvəzsiz publisist qələminin dürüstlüyünə, qərəzsizliyinə, itiliyinə, hadisələrin düzgün şərhinə heyran qalırsan. Həmin yazıların mövzuları da müxtəlifliyi ilə seçilir. Məqalələrdən bir neçəsinin adına nəzər salaq: "Nuru Paşa həzrətləri şərəfinə böyük ziyafət", "Mühüm məsələlər", "Partiyalarımıza", "Azərbaycan parlamanı", "Tarixi günümüz", "Andranikin məsələsi", "Vəzifəmiz nədir", "İstiqlal və istiqbal ümidi", "Lənkəran faciəsi", " Düşmənlərimizin fəaliyyəti", "31 mart", "Naxçıvan və Qarabağ", "Ermənistan və Azərbaycan münasibəti", "Erməni–gürcü münasibəti", "Şimalımızın halı", "Rusiya əhvalı", "Qara təhlükə", "İçimizdəki denikinlər", "Məmurlarımız haqqında", "Dördgöz olmalıyıq" və s.

Bu yazıları mütaliə etdikcə, Üzeyir bəyin nə qədər təmiz qəlbli, vətəninə bağlı ziyalı, xalq sevdalısı olduğunu bir daha anlayırsan. Məsələn, 1 dekabr 1918-ci ildə dərc edilmiş "Mühüm məsələlər" məqaləsində qüdrətli qələm ustası yazırdı: "...Biz Azərbaycanı və iki milyondan artıq olan Azərbaycan türklərini Yevropaya və müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimizin firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn, bir ləzgi ilə bir erməninin və ya bir malakan ilə bir aysorun bir-biri ilə türk-Azərbaycan dili ilə danışmağa məcbur olduğunu isbat etməliyik. Musiqimizin ümumi Qafqaz millətlərinə zövq və ləzzəti-ruhani verən bir musiqi olduğunu bildirməliyik. Yevropa şairlərindən geri qalmayaraq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik".

Fərəhli haldır ki, Üzeyir bəyin 1918-ci ildə yazdığı "Mühüm məsələlər"i bu gün müstəqil Azərbaycanın Prezidenti cənab İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva uğurla həyata keçirirlər. Şair, yazıçı, alim və bəstəkarlarımızın, elə Üzeyir bəy Hacıbəylinin özünün, həmçinin, ölməz "Leyli və Məcnun", "Arşın mal alan" əsərlərinin yubileylərinin UNESCO-da, dünya ölkələrində, beynəlxalq səviyyədə keçirilməsi böyük dühanın vəsiyyətlərinə əməl olunduğunu və həyata keçirildiyini bariz şəkildə göstərir.

Üzeyir bəy Hacıbəyli məqalə və felyetonlarında xalqı narahat edən bütün məsələlərə aydınlıq gətirməklə yanaşı, erməni–Azərbaycan mövzusuna xüsusi diqqət yetirib. Yazılarının çoxunda bu məsələyə toxunan sənətkar daşnakların fitnə-fəsadlarından, onların, hətta sadə erməni millətinin başına gətirdikləri bəlalardan bəhs edib, dəf yollarını göstərib. "Başlanır", "Eyni müamilə gözləyirik", "Qarabağ hadisatı", "Kontrast", "Rusiya əhvalı", "Ermənistan və Azərbaycan münasibəti", "Corciən meil"in məqaləsi və s. publisistik yazılarında Ü.Hacıbəyli məhz erməni məsələsinə toxunmuşdur. Qüdrətli qələm sahibi "Başlanır" məqaləsində yazırdı: "Özgənin iki gözünü çıxarmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu tutmuş olan daşnaklardan nəticəsi hər vaxt erməni millətini fəlakətdən-fəlakətə salan "müsəlləh üsyan"lardan başqa özgə bir qabiliyyət gözləmək üçün cahil və qafil olmaq lazım gəlir.

Daşnaklar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzetə vasitəsilə elanı, daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir. (Hacıbəyli Üzeyir, 13 fevral 1919-cu il).

"Eyni müamilə gözləyirik" məqaləsində isə Üzeyir bəy belə qeyd edirdi: "Qarabağda bu "hartu-vurtu" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməyə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanlarıdırlar, bu güruhi-layəfəlhun erməni millətinin gözünü o qədər qorxudublar ki, bir bu qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilirsə və onların yuvaları dağılırsa, Qarabağ erməniləri asudə nəfəs çəkib, həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan hökumətinin ədaləti altında və sayeyi-mərhəmət qayəsində kəmali-asudəgi ilə imrari-məişət edərlər" (Üzeyir Hacıbəyli, 5 may 1919-cu il).

"Rusiya əhvalı" məqaləsində isə Üzeyir bəy müdrikcəsinə qeyd edirdi: "Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır... Təhlükə bolşevik tərəfindənmi və ya Denikin tərəfindən vaqe olacaqmı, bizdən ötrü təfavüt yoxdur, qorunmaq və hər bir vasitə ilə istiqlalımızı mühafizə etmək, vəssalam" (Hacıbəyli Üzeyir, 9 oktyabr 1919-cu il).

Önəmlisi budur ki, Üzeyir bəyin yüksək siyasi fəhmlə toxunduğu mövzuların böyük əksəriyyəti bu gün də aktualdır. Hər zaman xalqın rifahını düşünən, onun yaxşı yaşamasını istəyən böyük şəxsiyyət öz yazılarında əmək haqlarının azlığını da önə çəkir, müəllimlərin timsalında bunun dözülməzliyini vurğulayırdı: "Xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar və ailə sahibi olan bir müəllim, hətta subay adamlar da dolana bilməzlər" ("Əgri yol", 10 aprel 1919-cu il).

Qüdrətli, cəsarətli qələm sahibi, ünlü yazar olan Üzeyir bəy Hacıbəyli bütün bu həyati vacib problemlərin qaldırılmasının, oxucuların nəzərinə çatdırılmasının, həlli yollarının göstərilməsinin öhdəsindən layiqincə gəlib. Səmimi qəlb ilə vətəninin, xalqının, millətinin özgürlüyünü, bağımsızlığını istəyən böyük ziyalı, dahi sənətkar həm də qürurla aşağıdakıları bəyan edib: "Məmləkətimiz və vətənimiz kəmali-sürətlə bir tərəfdən qüvvət tapıb, bir tərəfdən də tərəqqi edəcək və getdikcə ağ günlərə çatacaqdır" (Ü.Hacıbəyli "Xatimə " 15 may 1919-cu il).

Ömrü boyu Azərbaycanımızın müstəqilliyini arzulayan və həyatında cəmi 23 ay onun dadını görən, varlığına şahidlik edən qorxmaz, qürurlu, obyektiv, qərəzsiz, iti qələm sahibi olan bu böyük şəxsiyyətin musiqi tariximizlə bərabər, ədəbiyyat, mətbuat tariximizdə də yerinin danılmaz olduğunu bir daha görürük.

***Səadət QARABAĞLI,***
***Üzeyirşünas***

İmran Qasımov – 105

# İstedadlı yazıçı, nüfuzlu ictimai xadim

**Görkəmli ictimai xadim, yazıçı, dramaturq İmran Qasımov ədəbiyyat, kino və teatrda iz qoymuş sənətkarlardan olub. Hələ 1940-cı ildə onun ilk ssenarisi əsasında "Yeni üfüq" bədii filmi çəkilib və sənətkar kimi yaradıcılıq üfüqlərinin geniş olduğu görünüb.**

...Hər dəfə paytaxtın Nəsimi rayonunda Səməd Vurğun prospekti ilə kəsişən, Feyzulla Qasımzadə küçəsi ilə paralel yerləşən İmran Qasımov küçəsindən keçəndə düşünürəm ki, nə yaxşı, bu ünvanda da onun adı ədəbi məsləkdaşları ilə yanaşıdır. Təsadüfi deyil ki, 2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə unudulmaz yazıçının 100 illik yubileyi geniş qeyd olunub.

İmran Haşım oğlu Qasımov Bakıda ziyalı ailəsində anadan olub. Ona Üzeyir Hacıbəyli, Hüseynqulu Sarabski, Cəlil Məmmədquluzadə, Abbas Mirzə Şərifzadə, İsmayıl Hidayətzadə kimi şəxsiyyətlərlə çiyin-çiyinə işləyərək Azərbaycanda musiqili teatrın yaranmasında, inkişafında böyük rol oynamış əmisinin adını veriblər. Nümunəvi həyat yolu, məhsuldar yaradıcılığı həmin adı layiqincə daşıya bildiyinə sübutdur. Əməkdar incəsənət xadimi (1960), Xalq yazıçısı (1979), Dövlət mükafatı laureatı (1980) fəxri adlarına layiq görülüb.



Onu da vurğulayım ki, İmran Qasımovun Həsən Seyidbəyli ilə birgə yazdığı "Uzaq sahillərdə" romanı 22 dilə çevrilərək dönə-dönə nəşr edilib. Həmin roman əsasında Tofiq Tağızadənin çəkdiyi eyniadlı film də dünyada populyarlıq qazanıb (Nodar Şaşıqoğlunun yaratdığı Mixaylo – əfsanəvi partizan Mehdi Hüseynzadə vətənimizin hüdudlarından kənarda da sevilən kino qəhrəmanı olub).

Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini və Moskvada Ali ssenari kurslarını bitirmiş İmran Qasımov həyatda pillə-pillə ucalaraq, Azərbaycan Nazirlər Soveti yanında Kinematoqrafiya nazirinin 1-ci müavini, Yazıçılar İttifaqı idarə heyətinin 1-ci katibi vəzifələrində çalışıb. Unudulmaz yazıçı 20-dək roman, povest və hekayə kitabının müəllifidir. "Sən nə üçün yaşayırsan", "Dairəni genişləndirin", "İnsan məskən salır", "Xəzər üzərində şəfəq", "Ömrümüz qısadır" pyesləri tamaşaya qoyulub. "İllər keçir" (1968), "Fransız qobeleni (Yol qeydləri)" (1970), "İtaliya mozaikası" (1972) və s. kitabları, necə deyərlər, əl-əl gtəzib. Ssenari müəllifi olduğu "Onun böyük ürəyi", "Əsl dost", "Bizim küçə" və digər filmləri isə bu gün də maraqla baxılır.

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın İmran Qasımovla bağlı özəl xatirələri var:**

– İmran müəllim atamın ən yaxın dostlarından idi. Rəsul Rza əvvəlcə Kino işləri idarəsinin müdiri, sonra Azərbaycanın ilk kino naziri olarkən İmran Qasımov onun müavini vəzifəsində çalışırdı, ancaq onların münasibətləri nazir–müavin münasibəti deyildi, çox yaxın, məhrəm dostluq əlaqəsi idi, ruhən yaxın insanların mənəvi yoldaşlığı idi. Atam onu nəvazişlə "İmrani" deyə çağırırdı. İmran da Rəsul Rza haqqında ən səmimi sözlər deyib və yazıb. Gözümü açandan İmran müəllimi evimizin əziz qonaqlarından biri kimi xatırlayıram, lap uşaq yaşlarımda onu Minarə xanımla birlikdə atamın Buzovnadakı bağına gəldiyi yadıma düşür. Müharibənin son illərində və müharibədən sonra Azərbaycana gətirilmiş Amerika maşınları - üstüaçıq "Villis"lə gəlmişdilər bağımıza və sükan arxasında İmran müəllim özü oturmuşdu. Atam da o vaxt həm maşın, həm də motosiklet sürürdü. Çimərlikdə İmran müəllimin "Villis"də, atamın isə motosikletdə ötüşdüklərini xatırlayıram... O vaxt ən munis arzum böyüyüb motosiklet və maşın, özü də mütləq üstüaçıq "Villis" maşını sürmək idi.

Sonralar İmran müəllimlə daha ciddi ünsiyyətimiz oldu. O, zəngin məlumatlı, geniş erudisiyalı, həm də çox maraqlı müsahib idi. Söhbətlərindən doymaq olmurdu. İmran dünyasını dəyişəndən çox-çox illər sonra Türkiyədə rəhmətlik Çingiz Aytmatovla söhbətlərdə o, sıx-sıx mərhum yazıçımızı xatırlayır, İmranla ünsiyyətin insanı zənginləşdirməsindən danışırdı. Bilirəm ki, İmran Qasımovla Çingiz Aytmatov həm də tez-tez məktublaşıblar. Bu məktubları hər iki yazıçının arxivindən tapıb mətbuatda dərc etmək nəcib iş olardı.

İmran Qasımovun ssenari müəllifi olduğu filmlərdən biri "İnsan məskən salır" adlanır. Bu gün onun unudulmaz xatirəsi əbədi məskən saldığı ürəklərdə yaşayır.

***Ə.DOSTƏLİ***
***XQ***



# 89 il əvvəl ölkəmizdə Teatr Muzeyi yaradılıb

**Bu il Azərbaycan peşəkar milli teatrı 150 illik yubileyini qeyd edir. Teatr tarixinin öyrənilməsində və mühafizəsində Azərbaycan Dövlət Teatr Muzeyinin əvəzsiz rolu var. Həm milli teatrın yubileyi, həm də teatr muzeyinin yaranma günü ilə əlaqədar olaraq yolumuzu Teatr Muzeyindən saldıq. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova 89 yaşlı sənət saxlancı ünvanı haqqında ətraflı məlumat verdi:**

– Azərbaycan Dövlət Teatr Muzeyi milli səhnə sənətimizə dair materialların toplanması, mühafizəsi və nümayişi ilə yanaşı, peşəkar teatr tariximizin təbliği işini də həyata keçirir. Odur ki, milli teatrımızın 150 illik yubileyi yalnız teatrlarımız üçün deyil, muzeyimiz üçün də əlamətdar hadisədir və biz bu tarixi günü ilboyu müxtəlif layihələrlə qeyd edirik. Bu il Xalq artistləri Rafiq Əzimovun 85, Hökümə Qurbanovanın 110, Hamlet Qurbanovun 85 illik yubileylərini keçirdik. Ankara şəhərində "TÜRKSOY" Beynəlxalq Mədəniyyət Təşkilatının mənzil-qərargahında Xalq artisti, görkəmli rejissor Tofiq Kazımovun 100 illik yubileyi qeyd olundu. Həmin toplantıda muzeyimiz sənətkarın həyat və yaradıcılığını əks etdirəm səyyar foto-sərgi və video-çarx ilə iştirak etdi.

Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə Bakıda keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalının açılış mərasiminə Teatr Muzeyi fondunda qorunan və müxtəlif dövrlərin teatr estetikasını əks etdirən 200-dən artıq fotonun cəmləndiyi səyyar sərgi ilə qatıldıq. Festivalın Azərbaycan Dövlət Akademik Musiqili Teatrında keçirilən bağlanış mərasimində muzeyimizin zəngin kolleksiyasında qorunub saxlanılan, teatr rəssamlarının yaradıcılığını əks etdirən eksponatlardan ibarət "Eskizdən səhnəyə" adlı səyyar sərgi maraqla qarşılandı.

Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamına əsasən 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Ulu öndər dahi siyasi xadim kimi, Azərbaycanda bütün sahələrə, o cümlədən mədəniyyətin inkişafına hər zaman böyük diqqət və qayğı göstərib. İlin əvvəlində muzeyimiz "Heydər Əliyev və Azərbaycan" adlı layihəyə start verib. Gənclər Gününə həsr olunmuş "Çağdaş Azərbaycan gəncliyi üçün Heydər Əliyev fenomeni" adlı dəyirmi masa bu layihə çərçivəsində təşkil olunan silsilə tədbirlərin ilki idi. 20 Yanvar hadisəsinin 33-cü ildönümünə, Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunmuş tədbirlərimiz də olub. " Zamana qalib gələnlər!" isə Azərbaycan Teatrının 150 illik yubileyinə həsr olunmuşdu.

"Can gülüm, can, can!" Novruz bayramında keçirilən bayram tədbirimiz idi. "Sabah" – Azərbaycan teleməkanında üzən ada" kimi tədbirlər də bu qəbildəndir.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş daha bir tədbirimiz isə "Bir günəşin altında" adlı 18 May Beynəlxalq Muzeylər günündə keçirildi.

Muzeydə 28 May Müstəqillik, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi, 27 Sentyabr Anım günlərinə həsr olunmuş tədbirlər də geniş səviyyədə keçirilib. Xalq artisti Qabil Quliyevin səhnə fəaliyyətinin 50 illik yubileyi, sənətşünas Fidan Cəfərovanın "Yarasaların gözünü kor edən" kitabının təqdimatı və H.Cavid yaradıcılığına həsr olunmuş sərgi də muzeyin həyata keçirdiyi işlərdəndir.

Sevinc xanım dedi ki, Teatr Muzeyinin açılış mərasimi 1934-cü il noyabrın 25-də keçirilib. Sənət ocağı əvvəlcə Azərbaycan Dövlət Dram Teatrının binasında fəaliyyət göstərib. Mərasimdə görkəmli sənət xadimləri – Bülbül, Şövkət Məmmədova, Hüseynqulu Sarabski, Aleksandr Tuqanov, Ülvi Rəcəb, İsmayıl Hidayətzadə iştirak ediblər. 1935-ci ildə muzeyə böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının adı verilib.1963-cü ildə ləğv edilərək Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Teatr və dramaturgiya şöbəsinə çevrilən Teatr Muzeyi 1968-ci ildə bərpa olunub. 1991-ci ildə isə bu sənət saxlancı "Muzey Mərkəzi"nə köçürülüb. Beləliklə, uzun illərdən sonra Azərbaycan teatrının tarixini əks etdirən zəngin ekspozisiya yaradılıb. Bu gün muzeyin kolleksiyasında 140 mindən artıq eksponat var. Ekspozisiyalar 7 zalda yerləşir.

Maraqlı faktlardan biri də odur ki, Dövlət Teatr Muzeyinin ilk direktoru Ağakərim Şərifov repressiya illərində həbs edilən vaxt elmi işçi Afərin Məmmədbəyova öz həyatını təhlükəyə qoyaraq muzeydəki bir çox əşyaları gizlətməsi və həmin sənədlər bugünümüzə gəlib çatmasıdır.

Teatr Muzeyinin fondu ilbəil genişlənir.

**Ramilə QURBANLI**
**XQ**



## Yaradıcı sənaye həftəsi

***Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın 27-dən dekabrın 3-dək Azərbaycanda yaradıcı sənayelər həftəsi ("Yaradıcı həftə") keçiriləcək. Layihənin məqsədi mədəniyyət və yaradıcı sənayelərin vahid sahə kimi formalaşması, bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi və sahəvi klasterləşmənin təşviqidir.***

Bu münasibətlə təşkil olunan mətbuat konfransında mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov və digər rəsmilər jurnalistləri maraqlandıran mövzular, o cümlədən "Yaradıcı həftə" çərçivəsində həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər. Qeyd olunub ki, həftədə müvafiq dövlət qurumlarının rəhbərləri, yaradıcı sektorun təmsilçiləri, onlarla beynəlxalq və yerli təşkilatın nümayəndələri, yüzlərlə yaradıcı şəxs, şirkətlər və ictimai birlikləri iştirak edəcəklər.

"Yaradıcı həftə" çərçivəsində Mədəniyyət və Yaradıcı Sənayelər Forumu və sərgisi, "Yaradıcı müzakirələr", Musiqi Sənayesi Platforması təşkil ediləcək, "GƏL, YARAT! Yaradıcılıq üzrə Marafon, Türk Dünyası Yumor Festivalı, "CINEMO" Mobil Film Festivalının açılışı baş tutacaq, "Disney" studiyasının 100 illiyi qeyd olunacaq, eləcə də milli filmlərin ali məktəblərdə nümayişləri, hakatonlar, təlimlər, türk dünyasının elektronik musiqi gecəsi, moda tədbirləri, təqdimat və digər tədbirlər keçiriləcək.

Qeyd edək ki, "Yaradıcı həftə" paytaxtla yanaşı, bölgələri də əhatə edəcək.

***XQ***

25 Noyabr Kəlbəcər Şəhəri Günüdür

# Murovdağdan Dəlidağa döyüşsüz Zəfər yürüşü

**Kəlbəcər ölkəmizin təbiətinə görə ən gözəl, təbii sərvətləri baxımından isə ən zəngin bölgələrindən biridir. Bir vaxtlar nəhəng Sovet İttifaqının hər yerindən insanlar buradakı "İstisu" sanatoriyasına axışıb gələrdilər. Qayıdanda isə Kəlbəcərin ecazkar təbiətindən, şəfalı bulaqlarından, ən başlıcası sadə, mərd, qonaqpərvər insanlarından ürəkdolusu söz açardılar.**



İndiki nəsillərə Kəlbəcəri xalq şairi Səməd Vurğunun aşıq Şəmkirlə deyişməsi yadigarı olan, o illərdə dillər əzbərinə çevrilən məşhur qoşma sevdirib. Yəqin ki, çoxlarınızın yadındadır. Böyük S.Vurğun kəlbəcərli el aşığına xitabən demişdir:

**Bəxt məni bu yerə qonaq göndərdi.**
**Gedirəm, yamandı ayrılıq dərdi.**
**Demə, Səməd Vurğun gəldi-gedərdi,**
**Unutmaz bu oba, bu mahal məni.**

Bu gözəl misralardan özüm üçün həm də onu anlamışam ki, dağlar, çeşmələr diyarı Kəlbəcərdə əsrlər boyu folklorumuza, xüsusilə aşıq sənətinə və bu sənəti yaşadan və zənginləşdirən istedadlı sənətkarlara dərin hörmət və ehtiram bəslənilib. Peşəm ilə bağlı bu gözəl məkana hər dəfə yolum düşəndə hamı kimi mən də onun gözəlliklərinə heyran qalmışam.

Açı təəssüf hissilə həm də belə bir faktı xatırlamalı oluruq ki, Kəlbəcər erməni qaniçənlərinin caynağına keçən ilk bölgəmizdir. Belə ki, 1992-ci ilin 2 aprelində Kəlbəcər yağı düşmən əsarətinə düşəndə, hər birimizin ürəyinə sanki bir xəncər sancılmışdı, bu dərin yaranın ağrısını illər boyu hiss edərək əzab çəkmişik.

Lakin qəhrəman türk övladının yurdu əbədi əsarətdə qala bilməzdi! Buna milli heysiyyatımız heç cür yol verə bilməzdi. Bir də ax! ilahi ədalət var. Bu torpağın tarixən əsl sahibləri var. Onlar qanları, canları hesabına haqqı, ədaləti bərpa etdilər!

Xoşbəxtlikdən artıq 3 ildir ki, Kəlbəcər azaddır! Bu gözəl diyar Azərbaycan ordusunun 2020-ci ilin payızında 44 günlük savaşdan sonra imzalanan Üçtərəfli Bəyanatın tələblərinə uyğun olaraq siyasi yolla azad olundu. Haqq nazilər, üzülməz deyirlər! Həyat hər şeyi öz yerinə qoydu!

Hörmətli oxuculara xatırlatmaq istəyirəm ki, işğal nəticəsində rayonun 53 min nəfərdən çox əhalisi öz dədə-baba yurdundan didərgin düşmüşdü. Ermənistanın silahlı quldur dəstələri ilə ağır döyüşlərdə 511 dinc sakin öldürülmüş, 321 adam əsir götürülmüş və itkin düşmüşdü. Kəlbəcərlilər yurddan ayrı düşdükləri 28 il ərzində çox ağrı-acılara tab gətirdilər. Lakin onlar geri dönəcəklərinə olan ümidlərini heç vaxt itirməmişdilər.

Kəlbəcərin işğalı nəticəsində rayon mərkəzi, 150-yə yaxın kənd, həmçinin onlarca tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və digər mühüm obyektlər erməni quldurları tərəfindən xarabazara çevrilmişdi.

Kəlbəcər rayonunun işğalı o dönəmdə Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Təəssüf ki, bunun nə qədər böyük itki olduğunu ovaxtkı iqtidar anlamırdı. Hətta yanlış olaraq düşünürdülər ki, BMT Kələbəcərə görə Ermənistanı təcavüzkar dövlət kimi cəzalandıracaq. Bu, çox sadəlövh yanaşma idi!

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul etmişdi. Ancaq, bu qətnamə və sonrakı daha üç qərar yerinə yetirilmədi. Yalandan vədlər verildi, saxta müzakirələr aparıldı. Beynəlxalq qurumlar ədaləti bərpa olunmasını sadəcə istəmirdilər.

Əlbəttə, bu tarixi ədalətsizlik əbədi davam edə bilməzdi. Üç il əvvəl Azərbaycanın igid əsgər və zabitləri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında böyük şücaət və qəhrəmanlıqlar nümayiş etdirərək düşməni Qarabağdan qovdular. Məhz bundan sonra Kəlbəcərin azad olunması üçün real zəmin yarandı.

Kəlbəcər azad olunan gün ölkəmizdə böyükdən kiçiyə hamı sevinirdi. Bu müjdəni xalqa çatdıran Prezident İlham Əliyev hamıdan çox xoşbəxt görünürdü. Möhtərəm dövlət başçımız demişdir: "Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur. ...Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq".

...Kəlbəcər azad olunan günün ertəsi günün avtobusda kəlbəcərli tələbə yoldaşım, şair Adil Cəmillə təsadüfən görüşdük. Doğulub boya-başa çatdığı rayonun azad olunması ilə bağlı onu təbrik etdim.

Adil çox sevinirdi. Dedi ki, nə yaxşı belə bir qürurlu, xoşbəxt anları yaşamaq ona nəsib oldu. O, bir vətəndaş və ziyalı kimi, yenilməz Azərbaycan Ordusunun hər bir əsgərinə, zabitinə, xüsusilə Ali Baş komandan İlham Əliyevə bütün ömrü boyu minnətdar olacaq.

Bu gün Kəlbəcər rayonu və onun kəndləri yenidən qurulur, burada bir-birindən gözəl, yaraşıqlı evlər, rahat yollar, uşaq bağçaları, məktəb və mədəniyyət evləri inşa edilir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022–2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" rayonda böyük uğurla həyata keçirilir.

Kəlbəcəri, əlbəttə, "İstisu"suz təsəvvür etmək olmaz. Yeri gəlmişkən, Prezident İlham Əliyev 2022-ci il iyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib. Qeyd olunub ki, hələ 1928-ci ildən fəaliyyət göstərən, lakin işğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq.

Məlumat verilib ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfəri qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Bu gün isə Kəlbəcərin və kəlbəcərlilərin bayramıdır. Axı, Prezident İlham Əliyevin 31 iyul tarixli sərəncamı ilə 25 noyabr Kəlbəcər Şəhəri Günü elan edilmişdir. Bu xəbər hər bir kəlbəcərlinin qəlbində dərin coşqu yaratmışdır.

...Dünən axşam yazı çapa hazırlanarkən mənə Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tanınmış kulturoloq Minəxanım Əsədli zəng etmişdi. Söhbət Kəlbəcərin turizm imkanlarından söz düşəndə dedi ki, burada yerli və regional turizmin inkişafı üçün olduqca böyük potensial və fürsətlər var.

Deməli, ən yaxın illər ərzində böyük Səməd Vurğunun qeyd etdiyi kimi, Kəlbəcərdə Dəlidağdan keçənlərin sıraları birə on artacaq, bu ecazkar məkan insanlara könül xoşluğu və rahatlıq bəxş edəcək! Bayramın mübarək, əziz Kəlbəcərim!

***Məsaim ABDULLAYEV***
**XQ**

**Bakıda "İdmanda irqçiliyin aradan qaldırılması üçün Ədalətli oyun təhsili" mövzusunu əhatə edən və 15 ölkədən 40-dək nümayəndənin iştirak etdiyi Avropa Ədalətli Oyunlar Hərəkatının Konqresi keçirilib.**

# Bakıda "Ədalətli oyun təhsili"

Tədbirin açılış mərasimində gənclər və idman nazirinin müavini Mariana Vasileva, Milli Olimpiya Komitəsinin (MOK) baş katibi Azər Əliyev, qurumun Ədalətli Oyunlar komissiyasının sədri Xəzər İsayev, Avropa Ədalətli Oyunlar Menecmentinin prezidenti Filip Huzyu və Avropa Olimpiya Akademiyasının prezidenti Manfred Laymer iştirak ediblər.

Mərasimdə çıxış edən Mariana Vasileva Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkədə idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Nazir müavini qeyd edib ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Təmsilçilərimizin beynəlxalq arenalarda qazandıqları nailiyyətlər sevindirici haldır.




MOK-un baş katibi Azər Əliyev Azərbaycanın son illər bir çox nüfuzlu idman tədbirinə ev sahibliyi etdiyini deyib. Ölkəmizdə artıq üçüncü dəfə Avropa Ədalətli Oyunlar Hərəkatının Konqresinin keçirildiyini bildirən qurum rəsmisi "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanovun ədalətli oyun prinsiplərinə sədaqətinə görə dünyanın ən nüfuzlu feyr-pley mükafatı olan "Cin Borotra - Karyera" diplomuna layiq görüldüyünü vurğulayıb.

Filip Huzyu çıxışında idmanın müsbət tərəflərinin təbliğ edilməsinin, mənfi hallara qarşı isə tədbirlərin görülməsinin vacib olduğunu bildirib. O qeyd edib ki, ədalətə və bərabərliyə mühüm töhfə verən idmanda irqçiliyə yer yoxdur.

Avropa Olimpiya Akademiyasının prezidenti Manfred Laymer bərabərlik prinsipinin təmin olunmasında sosial təşkilatların da üzərinə məsuliyyət düşdüyünü deyib. Vurğulayıb ki, son zamanlar idmanı siyasətlə qarışdırma hallarına rast gəlinir ki, bu da yolverilməzdir.

Konqresə ev sahibliyi üçün Azərbaycana təşəkkür edən Avropa Ədalətli Oyunlar Hərəkatı Konqresinin sədri Tyerri Zintz isə ölkəmizin də irqçiliklə mübarizədə öz töhfəsini əsirgəmədiyini vurğulayıb.

MOK-un Ədalətli Oyunlar Komissiyanın sədri Xəzər İsayev əvvəlki illərdə ölkəmizdə bu formatda bir neçə tədbirin yüksək səviyyədə təşkil edildiyini bildirib. O qeyd edib ki, bu, dövlət başçımız İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nümunəsidir. Qurum rəsmisi İdmanda irqçiliklə mübarizəyə Azərbaycanın da töhfələr verdiyini deyib.

Sonra Ümummilli lider Heydər Əliyevin idmanla bağlı xatirələrini əks etdirən videoçarx nümayiş olunub.

Konqres çərçivəsində Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlığı təcəssüm etdirən "Ədalətli Oyunlar" mövzusuna həsr olunmuş sərgi keçirilib.

**L.QURBANOVA**
**XQ**

# Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

## 2024-cü il üçün Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Lot -1. 2024-cü il üçün Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması. Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 12000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərfləin açıldığı tarixdən sonra azı 120 bank günü müddətində qüvvədə olmalıdır);

-tender təklifinin 1 faizi həcmində bank təminatı;

-tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;

- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;

- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqlı təqdim edilməlidir.)

-pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);

-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;

-iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-dövlət satınalmaları müsabiqəsində son 3 ildə iştirak etmiş oxşar işlərə aid azı 5000000 manat dəyərində bağlanmış müqavilələrin surəti (təsdiqli formada).

-satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;

- tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən – əlavə 2);

- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat.

- AZS İSO sertifikatları : 9001, 14001, 45001, 50001.

- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması barədə sənəd;

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 8 yanvar 2024-cü il saat 10.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı,Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 16 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 yanvar 2024-cü il saat ¬10.00-da Bakı,Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Suriyadan 12 vətəndaş da vətənə qaytarılıb

**Azərbaycan Hökuməti Suriyadan 12 nəfər vətəndaşın da ölkəmizə qaytarılmasına nail olub. Onlardan 4-ü qadın, 8-i uşaqdır.**



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız xəbərdə bildirilir ki, həmin şəxslər Sosial Xidmətlər Agentliyinin müvafiq müəssisəsinə yerləşdirilib. Onlara ilkin tibbi, sosial-psixoloji dəstək göstərilib. Növbəti mərhələdə agentliyin sosial işçiləri və psixoloqları ölkəyə qaytarılan şəxslərin sosial-psixoloji vəziyyətlərini qiymətləndirəcək və hər biri ilə bağlı fərdi psixoloji dəstək tədbirləri həyata keçirəcək.

Xatırladaq ki, indiyədək xaricdən ölkəyə qaytarılan vətəndaşlar agentlikdə psixoloji konsultasiyalara, maarifləndirici tədbirlərə, müxtəlif dərnəklərə cəlb ediliblər.

**Z.HÜSEYNOVA**
**XQ**

# "İmişli Yol Tikinti-6" ASC səhmdarlarının nəzərinə!

13 yanvar 2024-cü il saat 11.00-da "İmişli Yol Tikinti-6" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
**2.** Cəmiyyətin ləğv edilməsi.
**3.** Ləğvetmə komissiyasının yaradılması.
**4.** Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.
**5.** Cəmiyyətin müşahidə şurasının və icra orqanın səlahiyyətlərinə xitam verilməsi.
**6.** Digər məsələlər.

Ümumi yığıncaq Bakı şəhəri, Binəqədi rayonu, Abay Kunanbəyov küçəsi 151 nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi- +99450-318-30-20.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 257 (30373) 25 noyabr 2023-cü il, şənbə

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

NƏQLİYYAT

## Yerüstü keçid – təhlükəsizlik

***Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun (M1) 28,5-ci kilometrində yerüstü piyada keçidinin inşası yekunlaşdırılaraq istifadəyə verilib.***



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən mətbuata verilən məlumatda deyilir ki, keçidin ümumi uzunluğu 45 metr, eni 3,5 metr, pilləkənlərin eni 2,5 metrdir.

Yol səviyyəsindən hündürlüyü 5,5 metr olan keçid tağvari metal konstruksiyalıdır. İki giriş-çıxışdan ibarət olan keçiddə fiziki məhdudiyyətli insanların rahat hərəkətini təmin etmək üçün müasir lift sistemləri quraşdırılıb.

Layihə çərçivəsində avtobus dayanacağının, keçidin istismarına nəzarət edən işçilər üçün nəzarət otağının tikintisi aparılıb, piyada keçidinin ətrafında abadlaşdırılma işləri görülüb.

**XQ**

İDMAN XƏBƏRLƏRİ

## Yubiley ultramarafonunun qalibləri



**Ümummilli lider Heydər Əliyevin və Azərbaycan atletikasının 100 illik yubileyi münasibətilə 100 kilometr məsafə üzrə təşkil edilən ultramarafon qaçışının qalibləri müəyyənləşib.**

Dənizkənarı Milli Park ərazisində keçirilən və 5 dairəni əhatə edən yarışda 50-yə yaxın idmançı iştirak edib. Ən yaxşı nəticəni 7:37.56 göstərici ilə Üzeyir Söylemez qazanıb. Ağa Əliyev isə ikinci pillədə qərarlaşıb.

## Millimizin oyunlarını kimlər idarə edəcək?




**Qadın futbolçulardan ibarət millimizin Millətlər Liqası çərçivəsində Kipr və Farer adaları yığmasına qarşı keçirəcək oyunlarını idarə edəcək hakimlər müəyyənləşib.**

Dekabrın 1-də “Limassol” stadionda keçiriləcək Kipr – Azərbaycan oyununu Belçikadan, dekabrın 5-də “Dalğa Arena”da təşkil olunacaq Azərbaycan – Farer adaları qarşılaşmasını isə İsveçdən olan hakimlər briqadası idarə edəcək. Kipr – Azərbaycan matçında baş hakim Caroline Lanssens, köməkçiləri İrmgard Van Meirvenne, Margot Jacobs, 4-cü hakim isə Jana Van Laere olacaq.

Azərbaycan – Farer adaları matçında əsas hakim Lovisa Johanssona olacaq. Kamilla Stendal və Jilan Taher ona kömək edəcəklər. 4-cü hakim qismində isə Maral Mirzai Beni çıxış edəcək.

## Eduard Məmmədov 28-ci dəfə dünya çempionu oldu

**Azərbaycan idmançısı Eduard Məmmədov Portuqaliyanın Albufeyra şəhərində keçirilən kikboksinqin WAKO versiyası üzrə dünya çempionatında uğurla çıxış edib.**




“Master class” kateqoriyasında 63 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz həm “light contact”, həm də “kick light” versiyaları üzrə qızıl medal qazanıb.

Bununla da idmançımız WAKO versiyası üzrə 8-ci, ümumilikdə isə 28-ci dəfə dünya çempionu adını qazanıb.

***Leyla SABİRQIZI***
**XQ**

TEXNOLOGİYA YENİLİKLƏRİ

**Yer kürəsi daha bir kosmik təhlükə ilə üz-üzədir. Bu dəfə təhlükə Günəşdəki fırtınaları ilə bağlıdır. Belə ki, 2024-cü ildə super Günəş fırtınası gözlənildiyi üçün onun aktivliyi ən yüksək həddə çata bilər.**

## Günəş fırtınalarının internetə təsiri



Məsələ burasındadır ki, Günəşdəki fırtınaların sıçrama yüksəkliyi Yer kürəsinin nisbətən yaxınlığında baş verəcək ki, bunun nəticəsində planetimizdə internetə giriş həftələr və ya aylar ərzində dayana bilər. Yəni televizorlar, radiolar işləməyə bilər.

Alimlər qeyd edirlər ki. auroral hadisələr zamanı Yer səthi boyunca hərəkət edən güclü elektrik cərəyanları elektrik enerjisi şəbəkələrini sıradan çıxarır, neft və qaz kəmərlərinin korroziyasına (metalların oksidlənmə nəticəsində sıradan çıxması halı) səbəb olur.

Bu da dünya ölkələrinin iqtisadiyyatına xeyli dərəcədə ziyan vuracağı mənasına gəlir. Bundan başqa, geomaqnit qasırğaları zamanı ionosferdəki dəyişikliklərin yüksək tezlikli radio rabitəsinə və Qlobal Mövqeləşdirmə Sisteminə (GPS) mane olacağı bildirilib.

***Ayan SƏMƏDQIZI,***
***tələbə–jurnalist***

## “Apple” “iPhone”u necə qoruyur?

**“Apple” korporasiyasının patentləşdirdiyi yeni üsul abonentləri xakerlərdən qoruyacaq. Bu barədə “MacRumors” nəşri məlumat yayıb.**



Qəzetin yazdığına görə, smartfonların 170 dərəcədən artıq baxış bucağına malik olması fırıldaqçıların işini asanlaşdırırmış. Yeni üsul isə abonentlərin şəxsi məlumatlarını qorumağa hesablanıb.

**XQ**

HAVA



## Yağış yağmayacaq, amma duman olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Səhər zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 8-11°, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 753 mm civə sütununa enəcək, nisbi rütubət 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında, hava əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° , gündüz 15-20° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
**XQ**

TURİZM

## Milli parklar – təbiət seyrangahı

**Ekologiya və Turizm Nazirliyindən aldığımız xəbərdə deyilir ki, bu ilin əvvəlindən ölkəmizdə milli parklara səfər edənlərin sayı çoxalıb. Bu ilin doqquz ayında Göygöl və Abşeron Milli parkları ən çox ziyarətçi qəbul ediblər. Şahdağ Milli Parkına gələnlərin də sayında artım müşahidə olunub.**



Nazirliyin məlumatında, həmçinin qeyd olunur ki, hazırda ölkəmizdə ekoloji turizm marşrutunu əhatə edən 10 milli park, eyni sayda dövlət təbiət qoruğu və 24 təbiət yasaqlığı var.

Xatırladaq ki, ekosistemimə görə, bir-birindən fərqli təbiət abidələri sayılan milli parklar Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə, rəngarəng landşaft komplekslərini özündə birləşdirir.

**XQ**

SAĞLAMLIQ

## Vəzəri – yox eləyir azarı

**İnsan sağlamlığı üçün faydalı tərəvəzlər çox olsa da, ABŞ alimləri birini daha üstün hesab edib. Onlar bildiriblər ki, tərə – vəzəri yemək insanı 10 növ problemdən xilas edir. Bu göyərti bəzi bölgələrdə acıtərə kimi tanınır.**



Elmi araşdırmalar sübut edib ki, ağciyər xəstəliklərindən əziyyət çəkənlərə və siqaret çəkənlərə daha çox istifadə etmək tövsiyə olunur.

Qanazlığı olanlar çuğundur, ətlə yanaşı, vəzəri də yeməlidir.

Tərkibində çoxlu dəmir mineralı olan tərə toxumu hemoglobin səviyyəsini artırır.

Saç tökülməsi, kövrək dırnaq quruluşu və bədəndə dəmir çatışmazlığından qaynaqlanan sümük problemlərində faydalıdır.

Tərkibində xərçəngin əsas səbəbi olan sərbəst radikallarla effektiv mübarizə aparan antioksidantlar var. Bu antioksidantlar, həmçinin xərçəng hüceyrələrinin toxumalarda yaratdığı zərərli təsirləri aradan qaldıraraq xərçəng hüceyrələrinin dağıdıcı təsirlərini azaldır.

Tərə ən təsirli sidikqovucu göyərtilərdən biridir, sidik yolları və böyrəkləri toksinlərdən təmizləyir.

***Z.HÜSEYNLİ***
**XQ**

*✓ 2016-cı il iyunun 8-də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tərəfindən Orucova (Məmmədova ) Gülər Babək qızının adına verilmiş A seriyalı, 106703 nömrəli bakalavr diplomu və AA seriyalı, 106703 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Süleyman İsmaylov və şöbənin əməkdaşları iş yoldaşları Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqataladan Mübariz Əhmədzadə rayon prokuroru Rasim Musayevə atası

**BƏBİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun kollektivi kiçik elmi işçi Rasim Məmmədova həyat yoldaşı

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 3059
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00